RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 268 (9723) 5 dekabr 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Emoməli Rəhmon İlham Əliyevi COP29-un uğurlu təşkilinə və nəticələrinə görə təbrik edib



Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Prezident Emoməli Rəhmon COP29-un uğurlu təşkilinə görə təbriklərini çatdırıb və onun nəticələrinin qlobal iqlim gündəliyinin irəli aparılması baxımından vacibliyini vurğulayıb.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib, Emoməli Rəhmonun COP29-un Liderlər Sammitində iştirakını və bütövlükdə Tacikistan nümayəndə heyətinin müzakirələrə fəal töhfə verdiyini məmnuniyyətlə qeyd edib.

Telefon söhbəti zamanı ikitərəfli gündəliyə aid olan aktual məsələlər, həmçinin Tacikistanın MDB-də qarşıdan gələn sədrliyi çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***



# QUYUYA SU TÖKƏNLƏR

## SU QUYUSU İLƏ KİMƏSƏ TƏLƏ QURMAQ ÜÇÜN QAZILAN QUYUNUN FƏRQİ

**Müharibə Azərbaycan ərazisində getdiyindən Ermənistanın da daxil olduğu KTMT hərbi əməliyyata qarışmadı.**

Bundan rəncidə düşən Ermənistan Rusiyadan incidi, onun işğal etdiyi Azərbaycan ərazilərində əbədi qalmasına kömək göstərmədiyinə görə özünə yeni ağa axtarmağa başladı.

*İncik Ermənistan gah sərhədlərinə Avropa İttifaqının casuslarını toplayır, gah ABŞ-nin hərbçiləri ilə təlimlər keçir, gah da "böyük bacı"sı Fransanın vasitəsilə yenidən silahlanaraq qisas almağa hazırlaşır.*

**Onu revanşizmə təhrik edənlər ABŞ, Fransa, Aİ müxtəlif adlar altında maliyyə vəsaitləri ayıraraq Ermənistanın güclənməsinə şərait yaradırlar.**

Müxtəlif bəhanələrlə sülh müqaviləsinin imzalanmasından yayınan Paşinyan isə Hindistandan, indi də Yunanıstandan yeni silahlar alaraq darmadağın edilmiş ordusunu ayağa qaldırmaq eşqinə düşüb.

**ABŞ-ni və Fransanı Cənubi Qafqaza gətirərək köhnə ağası Rusiyanı buradan çıxarmaq xülyasına düşən Ermənistan odla oynamağa başlayıb!**

*Bütün parametrlərlə Azərbaycandan qat-qat aşağıda dayanan Ermənistan, görəsən, hansı imkan və ağılla revanşizm niyyətinə düşüb?*

İqtisadi gücü heç zaman bizə çatmaz!

* Dalanda qalan forpost ölkə ianələr hesabına yaşayır, bütün beynəlxalq layihələrdən kənardadır.

* Əhalisinin sayı Azərbaycandan 3 dəfədən də azdır və dilənçi vəziyyətinə düşən vətəndaşları dayanmadan ölkəni tərk edirlər.

* Ordusu qırılaraq məğlub edilib, hərbi texnikası və silahları Bakıdakı Hərbi Qənimətlər Parkında nümayiş olunur.

**"Dəmir yumruğ"un dadını görərək silah-sursatını atıb İrəvanacan qaçan erməni əsgər və zabitləri çətin ki, Azərbaycana üstün gələ biləcəklərini ağıllarına gətirərlər.**

Ermənistan özünə yenidən ordu qurmadan, onu silah-sursatla təchiz etmədən, revanşizmə uyğun addımlar atmadan əvvəl dərindən düşünməli, 44 günlük müharibədəkindən daha ağır və daha ciddi nəticələr doğuracaq yeni müharibədə də məğlubiyyətə məhkumluğuna şübhə etməməlidir!

İnanmırlarsa, yoxlasınlar!

*Amma bu dəfə vassal dövlətlərini və "dövlətçilik"lərini də itirəcəklərini hökmən nəzərə alsınlar!*

→ 4

## COP29 türk dünyasının növbəti uğuru oldu

### Prezident İlham Əliyev Türkiyənin sabiq xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Mövlud Çavuşoğlu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Mövlud Çavuşoğluna Qərbi Azərbaycan İcmasının Bakıda keçirəcəyi Beynəlxalq Konfransda iştirakına görə minnətdarlığını bildirərək, bu tədbirin əhəmiyyətinə toxundu.

Mövlud Çavuşoğlu da öz növbəsində bu konfransın önəmini vurğuladı və tədbirə dəvətə görə minnətdarlığını bildirdi.

O, Azərbaycanda bu il keçirilmiş parlament seçkilərində Yeni Azərbaycan Partiyasının qələbəsi münasibətilə təbriklərini çatdırdı. Eyni zamanda Azərbaycanın evsahibliyi etdiyi COP29-un çox yüksək səviyyədə təşkil olunması ilə bağlı Prezident İlham Əliyevi təbrik edən Mövlud Çavuşoğlu bu tədbiri tarixi zirvə toplantısı kimi qiymətləndirərək, burada qəbul edilmiş qərarların böyük önəm daşıdığını vurğuladı.

Dövlətimizin başçısı da COP29-un yüksək səviyyədə təşkil olunduğunu və əhəmiyyətini qeyd edərək, Türkiyə Prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətinin həmin tədbirdə iştirakını bir daha yüksək qiymətləndirdi və bunun COP29-un önəminin daha da artırılması işinə töhfə verdiyini bildirdi. Prezident İlham Əliyev xeyli sayda dövlət və hökumət başçısının, qonaqların tədbirdə iştirakına toxundu və konfransın qərarların qəbul edilməsi baxımından çox uğurlu olduğunu dedi, COP29-un Azərbaycanın potensialını və liderlik qabiliyyətini bir daha bütün dünyaya nümayiş etdirdiyini vurğuladı. Dövlətimizin başçısı bunun türk dünyasının da növbəti bir uğuru olduğunu dedi.

Görüşdə ölkələrimiz arasında dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi bildirilərək, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

## Qərbin siyasi avantüralarının maliyyə maxinasiyaları

"Dropsitenews.com" resursunda dərc olunmuş "Jurnalistika nəhəngi büdcəsinin yarısını ABŞ hökumətindən alır" başlıqlı məqalədə sensasiyalı məlumatlar öz əksini tapıb.

Öncə onu vurğulayaq ki, özünü 2007-ci ildə yaradılmış müstəqil təhqiqat konsorsiumu kimi təqdim edən OCCRP əldə edilən mühüm məlumatların guya araşdırmaçı jurnalist məhsulu kimi təqdimatı prosesini həyata keçiməklə məşğul olub. Bir müddət öncə Azərbaycan mətbuatında dərc edilən bir araşdırmada təşkilatın saytına istinadən deyilirdi ki, qurumun yerləşmə ərazisi Sarayevo və Buxarestdədir. Beş postsovet ölkəsi - Rusiya, Ukrayna, Latviya, Ermənistan və Gürcüstanla əməkdaşlıq və nümayəndəlik əlaqələri barədə məlumat verilirdi. Qeyd olunurdu ki, təşkilat jurnalistlər üçün qiymətli mənbə ola biləcək şirkət yazışmalarının, bank-maliyyə əməliyyatlarının, istintaq protokollarının, məhkəmə stenoqramlarının "online" resursunu hazırlayır və təqdim edir.

"Jurnalistika nəhəngi büdcəsinin yarısını ABŞ hökumətindən alır" başlıqlı məqalədə təşkilatın maliyyəçiləri arasında Soros Fondunun, USAID və ABŞ Milli Demokratiya Fondunun adları keçir.

→ 5

### 5 Dekabr Beynəlxalq Könüllülər Günüdür

## COP29-da könüllülük hərəkatının Azərbaycan nümunəsi

Ölkəmizdə həyata keçirilən gənclər siyasətinin əsas istiqamətlərindən biri də gənclərin könüllülük fəaliyyətinə cəlb edilməsidir. 2009-cu ildə "Könüllü fəaliyyəti haqqında" qanunun qəbul edilməsi Azərbaycanda könüllülük fəaliyyətinin inkişafında xüsusi rol oynadı. Bu geniş və əsaslı qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu.

Könüllülər indiyədək Azərbaycanın yüksək səviyyədə evsahibliyi etdiyi "Eurovision-2012" mahnı müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və "Formula-1" yarışları kimi mötəbər beynəlxalq tədbirlər zamanı olduğu kimi, qlobal əhəmiyyətli BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) təşkilində də mühüm rol oynayıblar.

→ 6

## Qərb Gürcüstanda qarşıdurma yaratmaqda çirkin məqsəd güdür

Hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının deputatı İrakli Kirtsxaliya ölkəsində baş verən hadisələrdən danışarkən qeyd edib ki, Gürcüstan hökumətinin Avropa İttifaqına (Aİ) qəbul olması ilə bağlı danışıqların başlanmasını 2028-ci ilə qədər dayandırmaq qərarı ilə razılaşmayanların etiraz dalğası, əslində, casusların təşkil etdiyi dövlət çevrilişinə cəhddir. Onun sözlərinə görə, baş nazir İrakli Kobaxidze bu qərarın ölkənin Aİ-yə inteqrasiyasının dayandırılması demək olmadığını izah etsə də, Prezident Salome Zurabişvili və müxalifət düşünülmüş şəkildə dezinformasiyalar yayaraq insanları mitinqlərə dəvət edir, iğtişaşlar yaratmağa çalışırlar.

→ 5

azerbaijan-news.az

# Müstəqilliyimiz əbədidir: ordumuz ancaq Azərbaycanı müdafiə etmək məqsədi daşıyır, işğalçılıq məqsədi daşımır

**"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin təkrar nəşrinin 2-ci kitabı çapdan çıxıb.**




AZƏRTAC xəbər verir ki, çoxcildliyin 2-ci kitabına Ulu Öndər Heydər Əliyevin 1993-cü il noyabrın 2-dən 1994-cü il martın 9-dək keçirdiyi görüşlərə dair materiallar, çıxış və nitqlərinin, xalqa müraciətlərinin, bəyanatlarının mətnləri, müsahibələri, məktubları daxil edilib. O zaman Azərbaycan dövlət müstəqilliyini yenicə bərpa etmişdi və Ermənistanla müharibə şəraitində idi. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı 1993-cü il noyabrın 2-də Ulu Öndər Heydər Əliyev milli televiziya və radio ilə xalqa müraciət edib ordu yaradılmasının vacibliyini vurğulayıb: "İndi bizim ordumuz yaranmalı və qurulmalıdır. Bir də qeyd edirəm, ordumuz ancaq Azərbaycanı müdafiə etmək məqsədi daşıyır. İşğalçılıq məqsədi daşımır. Bizim işimiz haqq işidir, gərək hər bir vətəndaş bunu özünün şərəfli borcu kimi qəbul etsin. Kim özü orduda qulluq edə bilirsə, qoy könüllü surətdə getsin. Kim özü qulluq edə bilmirsə, yanındakıları başa salsın ki, gedib orduda xidmət etmək lazımdır. Yaxud əgər özü orduda qulluq edə bilmirsə, fikirləşsin ki, orduya necə kömək etmək lazımdır. İndi bunların hamısı ən zəruri vəzifələrdir. Bütün xalqa, Azərbaycan vətəndaşlarına müraciət edirəm ki, bu tədbirlərin həyata keçirilməsində fəal iştirak etsinlər". Oxucular müraciətin tam mətni ilə çoxcildliyin bu kitabında tanış ola bilərlər.

Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanın xarici siyasətində sülhsevərliyi başlıca prinsip kimi müəyyən etmişdi. Dövlətlərarası münasibətə gəldikdə isə Türkiyə ilə əməkdaşlığı xüsusilə diqqətdə saxlayır, eləcə də digər dövlətlərlə sıx əlaqələr qurulmasına önəm verirdi. 1994-cü il fevralın 9-da Türkiyədə səfərdə olduğu zaman Ankarada Hacəttəpə Universitetinin fəxri doktoru diplomunun təqdim olunması mərasimində çıxış edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın xarici siyasəti ilə bağlı da fikirlərini söyləmişdi: "Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir. Ölkəmiz bütün dövlətlərlə sülh və əmin-amanlıq əlaqələri yaratmaq istəyir. Azərbaycan dövləti öz xarici siyasətini məhz bu istiqamətdə yeridəcəkdir. Buna görə də Azərbaycan qonşu dövlətlərlə daha sıx əlaqələr yaratmağı xüsusilə önəmli hesab edir. Lakin burada bizim Türkiyə ilə əlaqələrimiz xüsusi yer tutur. Çünki Türkiyə ilə Azərbaycanın birgə tarixi keçmişi var. Xalqlarımız bir kökdəndir. Bizim mədəniyyətimiz də, tariximiz də, ənənələrimiz də birdir, dilimiz, dinimiz də birdir. Bütün bunlar əsrlər boyu bizi birləşdirmişdir".

Çoxcildliyin 2-ci kitabında yer alan materiallar oxucularda, tədqiqatçılarda, politoloqlarda dövrün ictimai-siyasi prosesləri haqqında geniş təsəvvür yaradır.

Kitabın buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur. Çoxcildlik "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası çərçivəsində təkrar nəşr edilir.

Nəşrin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunub.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 507 QƏRAR Bakı şəhəri, 3 dekabr 2024-cü il

## "Kiçik elektrik nəqliyyat vasitəsinin icarəyə (istifadəyə) verilməsinə, habelə onların sürətinə və lokasiyasına nəzarətin həyata keçirilməsi məqsədilə kiçik elektrik nəqliyyat vasitələrinin operatorları tərəfindən ötürülən səfər və operator barədə məlumatların siyahısı"nın təsdiq edilməsi haqqında

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1196-VIQD nömrəli Qanunun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 iyul tarixli 156 nömrəli Fərmanının 2.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Kiçik elektrik nəqliyyat vasitəsinin icarəyə (istifadəyə) verilməsinə, habelə onların sürətinə və lokasiyasına nəzarətin həyata keçirilməsi məqsədilə kiçik elektrik nəqliyyat vasitələrinin operatorları tərəfindən ötürülən səfər və operator barədə məlumatların siyahısı" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Daxili işlər naziri Vilayət Eyvazov Balakən rayonunda növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov dekabrın 3-də və 4-də Balakən Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**





Nazir əvvəlcə Balakən rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Balakən Rayon Polis Şöbəsinin inzibati binasında Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ şəhər və rayonlarından qəbula gələn 194 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Zaqatalada yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb.

Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda general-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 34 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 198 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Aİ-nin ali nümayəndəsi Azərbaycan-Ermənistan normallaşma gündəliyi barədə məlumatlandırılıb

**Dekabrın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 31-ci iclasında iştirakı çərçivəsində Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və Aİ münasibətlərinin hazırkı durumu, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar, habelə ətraf mühitin qorunması istiqamətində əməkdaşlıq imkanları, regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol diqqətə çatdırılıb. Ölkəmizin COP29 sədrliyi çərçivəsində xüsusilə maliyyə hədəflərinin artırılması daxil olmaqla, iqlim dəyişmələri ilə mübarizə sahəsində dönüş yarada biləcək tarixi razılıqların, eləcə də "yaşıl enerji" sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, bu fəaliyyətə maneə törədən mina təhdidi, habelə Azərbaycanın Ermənistanla normallaşma gündəliyi barədə məlumatlandırıb. Ermənistanın ölkəmizə qarşı davam edən ərazi iddialarının sülh prosesinə maneə təşkil etdiyi qeyd olunub.

Avropa İttifaqının Ermənistandakı Missiyasının fəaliyyətinə toxunan Ceyhun Bayramov sözügedən missiyanın bəyan edilmiş məqsədlərinə zidd olaraq ölkəmiz əleyhinə təbliğat kampaniyasının alətinə çevrilməsinin narahatlıq doğurduğunu diqqətə çatdırıb.

Görüşdə tərəflər həmçinin gündəlikdə duran və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında da fikir mübadiləsi aparıblar.

# Azərbaycana böyük etimad

## Sahib Məmmədov Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti vəzifəsinə təsdiqlənib

**Dekabrın 3-də Braziliyada Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası (BHİK) Baş Şurasının 35-ci iclası öz işinə başlayıb.**






Tədbirdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov iştirak edir.

BHİK-in prezidenti xanım Akiko Qono Şuranın gündəliyi ilə üzvləri tanış edib. Sonra təşkilatın baş katibi Luk Trianqlın hesabatı dinlənilib, ötən dövr ərzində görülən işlər şura üzvlərinin diqqətinə çatdırılıb.

İclasda gündəlikdəki məsələlər, o cümlədən baş şuranın 34-cü iclasının hesabatı, 2025-ci il üçün iş planı, baş şuranın və icraedici büronun növbəti il üçün iclas günləri təsdiqlənib. Həmçinin Beynəlxalq Əmək Təşkilatı və BHİK-in strateji prioritetləri, iqlim dəyişmələri və ədalətli keçid üzrə 2022-ci ildən indiyədək görülən işlər, sülh və təhlükəsizlik məsələləri müzakirə edilib və müvafiq qərarlar qəbul olunub.

Baş şurada Özbəkistan Həmkarlar İttifaqları Federasiyasının BHİK-ə üzvlüklə bağlı müraciətinə baxılıb, müzakirələr zamanı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndələri özbəkistanlı həmkarlarına öz dəstəklərini ifadə ediblər.

Eyni zamanda iclasda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov BHİK-in vitse-prezidenti vəzifəsinə təsdiqlənib.

Tədbirdə BHİK-in 2027-ci ilin noyabr ayında Avstriyada keçirilməsi nəzərdə tutulan VII Qurultayı barədə danışıqlar aparılıb. Bildirilib ki, qurultayda Baş katib və digər yüksəkvəzifəli şəxslər seçiləcək, baş şuranın üzvləri müəyyənləşəcək, qarşıda duran vəzifələr planlaşdırılacaq və bəyanat qəbul olunacaq. Eyni zamanda qurumun nizamnamə və digər sənədlərində dəyişikliklər müzakirə ediləcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# 2025-ci ilin dövlət büdcəsi maliyyə təminatının gücləndirilməsinə xidmət edəcək

**"2025-ci ilin dövlət büdcəsi Azərbaycan iqtisadiyyatının inkişaf prioritetlərinə uyğun hazırlanmış sənəddir. Büdcə üç əsas istiqamət üzrə xərclərdə artımlar həyata keçirilməsi ilə reallaşdırılacaq".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Vüqar Bayramov deyib. O bildirib ki, mövcud düzəni nəzərə alsaq, Qarabağ və Şərqi Zəngəzur, xüsusən milli təhlükəsizlik və müdafiə qabiliyyətinin gücləndirilməsi prioritetliyini daha da artırıb. Bu kontekstdən dövlət büdcəsindən bu istiqamətə ayrılan vəsaitin həcmində artımlar var. Büdcənin təxminən 20 faizi bu istiqamətə yönəldiləcək. Eyni zamanda Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması üçün 2025-ci ilin dövlət büdcəsindən 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu, bütövlükdə məskunlaşma prosesinin sürətlənməsinə imkan verəcək. Növbəti il işğaldan azad olunmuş ərazilərdə intensiv məskunlaşma ili kimi yadda qalacaq. Çünki məhz gələn il Ağdam şəhəri də daxil olmaqla, bir sıra yaşayış məntəqələrində sürətli şəkildə köçürülmənin həyata keçirilməsi gözlənilir.

Deputat vurğulayıb ki, Qarabağ və Şərqi Zəngəzurun bərpasına vəsaitlərin ayrılmasının davam etməsi nəticə etibarı ilə keçmiş məcburi köçkünlərin ata-baba yurdlarına daha tez qayıtmalarına imkan yaradacaq.

Ümumiyyətlə, indiyədək Qarabağ və Şərqi Zəngəzurun bərpasına 18 milyard manata yaxın vəsait ayrılıb. Vətən müharibəsindən başlayaraq 2025-ci ilin proqnoz ayırmaları da daxil olmaqla işğaldan azad olunmuş ərazilərin bərpasına və yenidən qurulmasına 23 milyard manat yönəldilib. Bu, təbii ki Azərbaycanın maliyyə imkanlarını və gücünü göstərən ciddi faktorlardan biridir. "Növbəti ildə sosial təminat tədbirlərinin gücləndirilməsi də əsas istiqamətlərdəndir. Bu məqsədlə 16,9 milyard manat vəsaitin ayrılması planlaşdırılır. Bu, büdcə xərclərinin 41 faizi deməkdir. Ona görə də 2025-ci ilin dövlət büdcəsi Azərbaycanda prioritet istiqamətlərə uyğun olaraq maliyyə təminatının daha da gücləndirilməsinə xidmət edəcək", - deyə V.Bayramov əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan-Türkiyə yüksəksəviyyəli əməkdaşlıq əlaqələri parlamentlər müstəvisində də inkişaf etdirilib

**Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin üzvü və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə dost və qardaş ölkələrimiz, o cümlədən qanunverici orqanlarımız arasında münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluq ifadə edilib. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarına əsaslanan və bütün sahələri əhatə edən münasibətlərimiz dövlət başçılarımızın siyasi iradəsi və birgə səyləri sayəsində bu gün özünün ən yüksək səviyyəsinə yüksəlib.

Tərəflər yüksəksəviyyəli əməkdaşlıq əlaqələrinin parlamentlər müstəvisində də inkişaf etdirildiyini diqqətə çatdırıblar.

Mövlud Çavuşoğlu Azərbaycanda növbədənkənar parlament seçkilərinin uğurla keçirilməsi və yenidən Milli Məclisin Sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik edib.

Parlament sədrləri, dostluq qrupları və deputatlar arasında təmasların münasibətlərimizə mühüm töhfələri qeyd edilib. Həmçinin qanunverici orqanlarımızın və deputatların bütün beynəlxalq parlament təşkilatlarında ortaq mövqedən çıxış etdikləri məmnunluqla diqqətə çatdırılıb. Qeyd olunub ki, ölkələrimizə qarşı bir sıra dairələr tərəfindən həyata keçirilən qarayaxma və təzyiq kampaniyalarına qarşı mübarizədə parlamentarilərimizin əməkdaşlığı olduqca vacibdir.

Söhbət zamanı Azərbaycanın evsahibliyi ilə COP29-un çox yüksək səviyyədə təşkil olunması ilə bağlı da fikirlər səsləndirilib. Bu tarixi zirvə toplantısının ölkəmizin qlobal proseslərə növbəti töhfəsi kimi dəyərləndirilib.

Görüşdə həmçinin regionda mövcud olan vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb. Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ - Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təşviqi" mövzusunda beynəlxalq konfransının əhəmiyyəti barədə fikirlər səsləndirilib.

# Milli Məclis Sədrinin müavini TBMM-in nümayəndə heyətinin rəhbəri ilə görüşüb

**Dekabrın 4-də Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin (TBMM) NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, parlament Sədrinin müavini ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan dövlətlərarası münasibətlərdən söz açıb. Dünya dövlətləri üçün nümunə olan Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında ölkə başçılarının rolu xüsusi qeyd edilib, iki qardaş ölkə arasında dostluq münasibətlərinin inkişafında parlamentlərarası əlaqələrin rolu vurğulanıb.

Azərbaycanın bölgədə sülhün və əməkdaşlığın möhkəmləndirilməsində maraqlı olduğunu vurğulayan Ziyafət Əsgərov Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının sülh müqaviləsinin bağlanmasına ən böyük maneə olduğuna, Fransa və digər ölkələrin normallaşma prosesinə müdaxilələrinin, eləcə də Ermənistanın sürətlə silahlanmasının regional təhlükəsizliyə ciddi təhdidlər yaratdığına diqqəti çəkib.

TBMM-in NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu Türkiyə və Azərbaycan arasında bütün sahələr üzrə uğurla inkişaf edən münasibətlərin strateji xarakterinə toxunub, ölkəmizə səfərinin məqsədinin Qərbi Azərbaycan İcmasının Bakıda keçirəcəyi Beynəlxalq Konfransda iştirakçı olduğunu bildirib. Qonaq qeyd edib ki, konfrans öz dədə-baba yurdlarından didərgin düşmüş yüz minlərlə soydaşımızın haqlarının qorunması, beynəlxalq ictimaiyyətə reallıqlar barədə məlumatların çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Söhbətdə bu ilin noyabr ayında Azərbaycanın evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un ən yüksək səviyyədə təşkil olunması və burada qəbul edilmiş qərarların böyük əhəmiyyət daşıdığı vurğulanıb. Tədbirdə xeyli sayda dövlət və hökumət başçısının, o cümlədən Türkiyə Prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətinin iştirakı yüksək qiymətləndirilib.

# *Mövlud ÇAVUŞOĞLU:* "Azərbaycanlı qardaşlarımız tarixi torpaqlarına geri dönməlidirlər"

**"Qayıdış hüququ: Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçiriləcək beynəlxalq konfransda iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olan Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu dekabrın 4-də Qərbi Azərbaycan İcmasında olub.**



AZƏRTAC xəbər verir ki, görüşdə Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Vətən müharibəsi dövründə Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstəyi xatırladıb.

İcmanın yaranması və fəaliyyəti barədə danışan Ə.Ələkbərli bildirib ki, icmada toplaşan insanlar 1987-1991-ci illərə qədər indiki Ermənistan ərazisində yaşayıblar. İcmanın məqsədləri barədə məlumat verən İdarə Heyətinin sədri vurğulayıb ki, Qərbi Azərbaycan İcması olaraq son 200 ildə öz ata-baba yurdlarından didərgin salınmış azərbaycanlıların hüquqlarını beynəlxalq müstəviyə qaldırmağa və onların qayıdış hüququnun təmin olunmasına çalışırlar.

O qeyd edib ki, sonuncu deportasiya zamanı 300-ə yaxın yaşayış məntəqəsindən 300 minə yaxın azərbaycanlı Ermənistan tərəfindən doğma yurdlarından didərgin salınıb. Həmin dövrdə 172 kənddə ancaq azərbaycanlılar yaşayırdılar və orada bir nəfər də olsun erməni yox idi.

Bildirilib ki, öz doğma torpaqlarına sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıdış qərbi azərbaycanlıların fundamental insan hüquqlarıdır və bu hüquqlar təmin olunmalıdır. Onların geri qayıdışına şəraitin yaradılması Ermənistan dövlətinin öhdəliyidir.

Azərbaycanlıların yaşadıqları tarixi torpaqlarına qayıtmaq istəmələrinin Ermənistanın ərazi iddiası kimi təqdim etməsinin isə heç bir əsası yoxdur.

Türkiyə Böyük Millət Məclisinin NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu ölkəsinin hər zaman Azərbaycanın yanında olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərin inkişaf etdiyini diqqətə çatdıran M.Çavuşoğlu Türkiyənin bu istiqamətdə Azərbaycana bütün dəstəyi verdiyini vurğulayıb. Deyib ki, artıq keçmiş məcburi köçkünlər də öz doğma torpaqlarına qayıtmağa başlayıblar.

O, ölkəmizin bu istiqamətdə də sülhpərvər siyasətini təqdir edib. Vurğulayıb ki, Azərbaycan qaçqınların geri qayıdışı məsələsində beynəlxalq hüquqa uyğun davranır.

Qarabağ Zəfərindən sonra Azərbaycanın sülh təşəbbüslərinə toxunan TBMM-in üzvü deyib: "Bütün dünya Azərbaycanın Ermənistana qarşı səmimi davranışının şahididir. Amma Ermənistan vaxtilə işğal etdiyi Azərbaycan torpaqlarındakı bütün maddi-mədəni irsi dağıdıb. Türkiyə olaraq bizim mövqeyimiz ondan ibarətdir ki, azərbaycanlı qardaşlarımız tarixi torpaqlarına geri dönməlidirlər. Həmçinin bu məsələyə dünya ictimaiyyətinin diqqətinin artırılması da vacibdir".

İcma sədrinin müavini, Milli Məclisin deputatı Ramil Həsən M.Çavuşoğlunun icmaya səfərinin qərbi azərbaycanlılar üçün mühüm mənəvi dəstək olduğunu deyib.

Qərbi azərbaycanlıların geri qayıdışı hüquqi yolla həyata keçirmək istədiklərini deyən deputat əlavə edib: "Ermənistandan zorla çıxarılan insanlar öz ata-baba yurdlarına geri qayıdaraq minilliklər boyu olduğu kimi, bundan sonra da orada yaşamaq istəyirlər. Qərbi azərbaycanlılar əgər öz evlərindən çıxarılmasaydılar, indi yaşayışlarını və fəaliyyətlərini məhz ata-baba yurdlarında davam etdirərdilər.

Qərbi Azərbaycan İcmasının üzvü, Milli Məclisin deputatı Qaya Məmmədov isə bildirib ki, qərbi azərbaycanlıların haqq işi insan hüququ məsələsidir.

Deputat qeyd edib ki, Qərbi Azərbaycan İcması bu günə qədər Ermənistanın baş naziri Nikol Paşinyana, eyni zamanda beynəlxalq ictimaiyyətin mühüm aktorlarına məktublar, müraciətlər ünvanlayıb, soydaşlarımızın sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə geri qayıdışına dair tələbini ifadə edib. Lakin təəssüf ki, Ermənistan tərəfi icmanın dialoq müraciətinə hələ də cavab verməyib.

Qaya Məmmədov Ermənistandakı irqçilik siyasətinin də yolverilməz olduğunu vurğulayıb.

# Türkiyənin sabiq xarici işlər naziri Mövlud Çavuşoğlu Milli Məclisdə olub

**Dekabrın 4-də Milli Məclisin NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Ramid Namazov ölkəmizdə səfərdə olan Türkiyənin sabiq xarici işlər naziri, TBMM-in millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Ramid Namazov Mövlud Çavuşoğlunun Türkiyənin xarici işlər naziri kimi və AŞPA-da fəaliyyət dövrü də daxil olmaqla həmişə Azərbaycana xüsusi rəğbəti ilə seçildiyini və bunun qarşılıqlı olduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, parlament nümayəndə heyətlərimiz beynəlxalq təşkilatlarda həmişə uğurla əməkdaşlıq edirlər. Ölkələrimiz xoş günlərdə də, dar günlərdə də daim bir-birinə dəstək olur, bütün taleyüklü məsələlərdə bir-birinə arxalanır.

Mövlud Çavuşoğlu Azərbaycanda parlament seçkilərinin uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırıb. Bildirib ki, ötən parlament seçkiləri Azərbaycanın bütün suveren ərazisində keçirilmiş ilk parlament seçkiləri kimi mühüm əhəmiyyətə malikdir.

Söhbət zamanı NATO PA çərçivəsində əməkdaşlıq, gələcək planlar və görüləcək işlər, parlamentlərarası əlaqələrin inkişafı və digər mövzularda fikir mübadiləsi aparılıb. Hər iki ölkənin nümayəndə heyətlərinin NATO PA-da bundan sonra da uğurla əməkdaşlıq edəcəyinə, qarşıya çıxan məsələlərin birlikdə öz həllini tapacağına inam ifadə olunub.

# Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclası keçirilib

**Dekabrın 4-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Əli Hüseynli gündəliyə 8 məsələnin daxil edildiyini bildirib.**




Komitə sədri birinci məsələ olan Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə bildirib ki, təklif olunan dəyişikliklər genişhəcmlidir və sənəd son vaxtlar qanunvericiliyə gətirilmiş məhdudlaşdırıcı normaların Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində əks olunmasını ehtiva edir.

Növbəti məsələ - Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı qeyd olunub ki, layihə tikinti obyektinin və fərdi yaşayış evinin torpaq sahəsində elektrik mühərrikli nəqliyyat vasitələri üçün enerji doldurucuların yerləşdirilməsini tənzimləyir.

Növbəti - "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Valyuta tənzimi haqqında", "Xidməti və mülki silah haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Lotereyalar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Kredit büroları haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) müzakirəyə komitə sədrinin müavini Elşən Musayev təqdim edib. O bildirib ki, layihə mənzil fondunun özəlləşdirilməsi ilə bağlı sənədlərin elektron yolla asan əldə olunmasını təsbit edir.

Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı komitə sədri Əli Hüseynli bildirib ki, sənəddə "yüksəkixtisaslı miqrant" anlayışı qanunvericiliyə gətirilməklə onların bilik və bacarıqlarının ölkənin sosial-iqtisadi inkişafına cəlb edilməsi məqsədilə hazırlanıb.

Növbəti iki qanun layihəsini - "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunda dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri ilə bağlı komitə üzvü Bəhruz Məhərrəmov məlumat verib. O bildirib ki, təklif olunan dəyişikliklər Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların (yeni adla - Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların) fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə tənzimləmələrin effektivliyinin artırılması məqsədilə hazırlanıb.

İclasda gündəliyin son iki məsələsi - qanunsuz miqrantların saxlanılması qaydalarının təkmilləşdirilməsini nəzərdə tutan Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında və məişət zorakılığı ilə bağlı müraciətlərə baxılma prosedurunun təkmilləşdirilməsi məqsədilə hazırlanan "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri isə üçüncü oxunuşda baxılaraq müzakirə olunub.

Qanun layihələrinin müzakirəsində komitə sədri Əli Hüseynli, komitə sədrinin müavini Elşən Musayev, komitə üzvləri Erkin Qədirli, Bəhruz Məhərrəmov çıxış edərək dəyişikliklərlə bağlı fikirlərini bölüşüblər.

Deputatlar müzakirə olunan qanun layihələrinin hər birini Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

*"Azərbaycan"*

# Azərbaycanla Yəmən arasında mədəniyyət sahəsində əlaqələrin qurulması məsələsi müzakirə olunub

**Azərbaycanın mədəniyyət naziri Adil Kərimli dekabrın 4-də Yəmən Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Məhəmməd Saleh Əhməd Turiq ilə görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, diplomatı Azərbaycanda fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona işlərində uğurlar arzulayıb. Deyib ki, islam dünyasının bir hissəsi olan Azərbaycan müsəlman ölkələri ilə əməkdaşlığa önəm verir.

Qeyd olunub ki, mədəniyyət xalqlar arasında körpülər qurmaq üçün əhəmiyyətli vasitədir. Azərbaycan ilə Yəmən arasında mədəniyyət sahəsində əməkdaşlığın qurulması üçün hüquqi baza yaradılmalıdır. Azərbaycan tərəfi bu istiqamətdə addım atmağa hazırdır. Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Məhəmməd Saleh Əhməd Turiq ölkəmizdə diplomat kimi fəaliyyət göstərməsindən məmnunluğunu bildirib. O, fəaliyyəti dövründə iki ölkə arasında bir sıra sahələrdə, o cümlədən mədəniyyət sahəsində əlaqələrin qurulması üçün səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

Söhbət zamanı yəmənli gənclərin Azərbaycanda incəsənət üzrə təhsil alması, kitabxana, muzey, mədəni irsin qorunması və s. sahələrdə təcrübə qazanması ilə bağlı fikir mübadiləsi aparılıb.

# QUYUYA SU TÖKƏNLƏR



## SU QUYUSU İLƏ KİMƏSƏ TƏLƏ QURMAQ ÜÇÜN QAZILAN QUYUNUN FƏRQİ

**Azərbaycan xalqının əsrlərin sınağından çıxaraq dəfələrlə təsdiqini tapan "atalar sözləri" adlı müdrik deyimləri var.**

Onlardan bir neçəsi quyularla bağlıdır.

İkisini xatırladırıq:

*Biri, "Quyuya su tökməklə quyu sulu olmaz".*

*Digəri "Gen qaz, dərin qaz, özün üçündür".*

Bu misallarda "quyu" anlayışının da mahiyyəti açılır.

Birinci halda quyu dərin və şaquli çuxur qazmaqla yerin altından içməli, yaxud əkinləri suvarmaq üçün su əldə etmək anlamındadır.

İkinci halda isə quyu məcazi mənada işlədilir.

Yəni kiməsə tələ qurmaq, ona müxənnətlik, pislik etmək üçün hazırlıq görməkdir.

**Həqiqi quyunun çox mühüm bir xüsusiyyəti var: yerindən və dərinliyindən asılı olaraq içərisindən su qaynayıb çıxa bilər.**

*Bu su şor da olar, şirin də.*

*Bu su içməli də ola bilər, suvarmaya yararlı da.*

Quyunun ən əsas xüsusiyyəti odur ki, gərək su onun dibindən qaynayıb çıxa.

İkinci cəhəti isə belədir ki, quyu özü dəmir, yaxud plastik çən kimi su saxlamır.

**Məsələn, qışda susuz quyuya aylarla su yığaraq, yayda onu qaytarıb işlətmək mümkün deyil.**

Çünki hoparaq yerin təkinə gedəcəkdir.

*Yəni quyunu su ilə doldurmaqla onu sulu quyuya çevirmək qeyri-mümkündür!*

İkinci məqamdakı quyu da xətasız deyil!

**Məsələn, qonşunu yıxmaqdan ötrü onun yolunun üstündə quyu qaza bilərsən.**

**Amma gecə vaxtı olar görməzsən, yaxud quyunun yerini unudarsan, ya da başqa səbəbdən özün qonşundan qabaq həmin quyuya düşə bilərsən.**

*Tarixə qısa bir ekskursiya etməklə "Ermənistan quyusu"nun bunlardan hansına oxşadığını asanlıqla müəyyən etmək mümkündür!*

❖ ❖ ❖

Azərbaycan xalqı qonaqpərvərdir, çörəklidir!

Amma çörəyinin duzu yoxdur.

**Yəni çörək verdiyinin bir qismi sonradan çönərək onunla düşmənçiliyə başlayır.**

MƏSƏLƏN:

"Kürəkçay", "Gülüstan" və "Türkmənçay" sülh müqavilələrinə əsasən, Azərbaycan xəyanət üzündən Türkiyədən qovulmuş ermənilərə öz ərazisində yer verdi.

Onlar da azərbaycanlılara məxsus qədim İrəvan şəhərini özlərinə paytaxt edərək ərazimizdə dövlət qurmağa başladılar.

İrandan da bir edəcək xeyli erməni gəlib onlara qoşuldu.

*Sovet hökuməti qurulanda hayların çiçəyi çırtladı: çünki bu hökumət əvvəldən axıradək onların istədiyini edəcək, çaldıqları bütün havalara oynayacaqdı.*

MƏSƏLƏN:

**1923-cü ildə heç bir zərurət olmadan Azərbaycan ərazisində "DQMV" adlı bir qurum yaradaraq ermənilərə muxtariyyət verdi.**

İştah dişin altında olar, - demişlər.

Ermənilər saylarını süni şəkildə artırmaqdan ötrü bütün vasitələrdən istifadə etdilər.

*Dünyanın hər yerindən erməniləri yığaraq əvvəlcə Ermənistana, sonra bir qismini də Azərbaycan ərazisindəki "DQMV"yə daşıdılar.*

Gördülər yerləri darısqallıq edir.

**Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarı ilə guya Azərbaycanın qeyri-qaratorpaq ərazilərində kənd təsərrüfatını inkişaf etdirmək üçün 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlını yük vaqonlarına dolduraraq Azərbaycana yola saldılar.**

*Onların boşalan kəndlərindəki boş qalan evlərinə, şəhərlərdəki mənzillərinə isə xaricdən gətirdikləri erməniləri yerləşdirdilər.*

Ötən əsrin 80-ci illərinin sonlarında qırmızı imperiya laxlayaraq iflasa uğrayanda ermənilər yenə də fürsəti əldən vermədilər.

**Bu dəfə onların arxalarında Stalin deyil, SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçov və arvadı Raisa Maksimovna dayandı.**

*"Miatsum" - yəni Azərbaycandan qoparaq Ermənistana birləşmək tələbi ilə Xankəndidə mitinqlərə başlayan ermənilər Moskvadan tam dəstək gördülər.*

* Ermənilərin bu qanunsuz və haqsız tələblərinə göz yumuldu.

* Onların özlərinə ordu qurmalarına və "fədai"lər adı altında terrorçu-quldur dəstələri təşkil etmələrinə şərait yaradıldı.

* Rusiya iki dəfə Ermənistana hər dəfə bir milyard dollar dəyərində havayı silah-sursat verdi.

* Ermənilərin nazı ilə oynayan Moskva "xüsusi idarəetmə komitəsi" adlı bir oyuncaq qurum yaradaraq "DQMV"ni Azərbaycanın tərkibindən çıxarmaqla guya öz nəzarətinə götürdü, əslində isə "DQMV"nin müstəqilliyinə şərait yaratdı.

* 1992-ci ilin 26 yanvarında 366-cı rus polkunun hərbi imkanlarından istifadə edən Ermənistan Xocalı soyqırımını törətdi.

**Beləliklə, azərbaycanlıların dədə-baba torpaqlarından zorla, terror və silah gücünə qovularaq ərazilərimizin işğalına münbit şərait yaradıldı.**

**Nəticədə Azərbaycan dövlətinə məxsus ərazinin 20 faizi Ermənistan tərəfindən zəbt edilərək 30 ilədək müddətdə işğalda saxlanıldı.**

*BMT-nin Ermənistanın qeyri-qanuni hərbi birləşmələrinin dərhal və qeyd-şərtsiz Azərbaycan ərazilərini tərk etmələri barədə 4 qətnaməsi yerinə yetirilmədi!*

Heç ermənilərin xətrinə dəyərək onlara təzyiq, təsir göstərilmədi, sanksiya qoyulmasından söhbət belə getmədi!

*Münaqişənin sülh yolu ilə çözülməsi ilə bağlı yaradılan ATƏT-in Minsk qrupu isə "sülh danışıqları", "sülh yaratma missiyası" adı ilə sonradan lətifələrə çevrilən mənasız gediş-gəlişlər və danışıqlarla məşğul oldu, heç bir real nəticə yaratmadı.*

**Çünki ATƏT-in məqsədi heç də torpaqları danışıqlar vasitəsilə geri qaytarmaq yox, işğalı əbədiləşdirmək idi.**

Ermənistan isə ona yaradılan bu riyakar şəraitdən istifadə edərək işğal etdiyi ərazilərimizi barbarcasına söküb daşıyaraq İran bazarlarında satdı, kənd və qəsəbələrimizi viran qoydu, tarixi, mədəni, dini abidə və məkanlarımızı təhqir edib xarabalıqlara çevirdi, qəbiristanlıqları düzlədi.

Beynəlxalq hüquqdan, beynəlxalq qurum və təşkilatlardan, ATƏT-in Minsk qrupundan bir şey çıxmayacağını görən Azərbaycan xalqı özünə güvənərək işğala son qoymaq üçün toparlana bildi.

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli dövlət yaradıldı, güclü ordu qurularaq ən müasir silahlarla təchiz olundu, xalqın milli birliyi təmin edildi, torpaqların erməni vandallarından təmizlənməsi üçün zəruri tədbirlər görüldü.**

44 günlük hərbi əməliyyatlar nəticəsində Ermənistan ordusu diz çökdürüldü, 12 min hərbçisi qorxaqcasına fərarilik etdi, Paşinyan Azərbaycanın bütün şərtlərini təmin edən kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzaladı.

*Təkcə Ermənistan ordusunu deyil, Ermənistanın havadarlarını və müdafiəçilərini, dünya ermənilərini də biabırçı məğlubiyyətə uğradan Azərbaycan ərazi bütövlüyünü və dövlət suverenliyini də təmin etməklə ölkə ərazisindəki separatizmə birdəfəlik son qoydu!*

❖ ❖ ❖

**Müharibə Azərbaycan ərazisində getdiyindən Ermənistanın da daxil olduğu KTMT hərbi əməliyyata qarışmadı.**

Bundan rəncidə düşən Ermənistan Rusiyadan incidi, onun işğal etdiyi Azərbaycan ərazilərində əbədi qalmasına kömək göstərmədiyinə görə özünə yeni ağa axtarmağa başladı.

*İncik Ermənistan gah sərhədlərinə Avropa İttifaqının casuslarını toplayır, gah ABŞ-nin hərbçiləri ilə təlimlər keçir, gah da "böyük bacı"sı Fransanın vasitəsilə yenidən silahlanaraq qisas almağa hazırlaşır.*

**Onu revanşizmə təhrik edənlər ABŞ, Fransa, Aİ müxtəlif adlar altında maliyyə vəsaitləri ayıraraq Ermənistanın güclənməsinə şərait yaradırlar.**

Müxtəlif bəhanələrlə sülh müqaviləsinin imzalanmasından yayınan Paşinyan isə Hindistandan, indi də Yunanıstandan yeni silahlar alaraq darmadağın edilmiş ordusunu ayağa qaldırmaq eşqinə düşüb.

**ABŞ-ni və Fransanı Cənubi Qafqaza gətirərək köhnə ağası Rusiyanı buradan çıxarmaq xülyasına düşən Ermənistan odla oynamağa başlayıb!**

*Bütün parametrlərlə Azərbaycandan qat-qat aşağıda dayanan Ermənistan, görəsən, hansı imkan və ağılla revanşizm niyyətinə düşüb?*

İqtisadi gücü heç zaman bizə çatmaz!

* Dalanda qalan forpost ölkə ianələr hesabına yaşayır, bütün beynəlxalq layihələrdən kənardadır.

* Əhalisinin sayı Azərbaycandan 3 dəfədən də azdır və dilənçi vəziyyətinə düşən vətəndaşları dayanmadan ölkəni tərk edirlər.

* Ordusu qırılaraq məğlub edilib, hərbi texnikası və silahları Bakıdakı Hərbi Qənimətlər Parkında nümayiş olunur.

**"Dəmir yumruğ"un dadını görərək silah-sursatını atıb İrəvanacan qaçan erməni əsgər və zabitləri çətin ki, Azərbaycana üstün gələ biləcəklərini ağıllarına gətirərlər.**

Ermənistan özünə yenidən ordu qurmadan, onu silah-sursatla təchiz etmədən, revanşizmə uyğun addımlar atmadan əvvəl dərindən düşünməli, 44 günlük müharibədəkindən daha ağır və daha ciddi nəticələr doğuracaq yeni müharibədə də məğlubiyyətə məhkumluğuna şübhə etməməlidir!

İnanmırlarsa, yoxlasınlar!

*Amma bu dəfə vassal dövlətlərini və "dövlətçilik"lərini də itirəcəklərini hökmən nəzərə alsınlar!*

❖ ❖ ❖

"Avropa çoxdan dünyanın mərkəzi deyil" - bu sözlərin müəllifi Aİ-nın ali nümayəndəsi C.Borel Avropanın bu statusunu itirməsində nədənsə öz "xidmət"lərini xatırlatmır.

**Məgər Aİ beynəlxalq hüququ tapdalayanda, korrupsiya və rüşvətxorluq yuvasına çevriləndə, qərəzli, qeyri-obyektiv qərarlar qəbul edəndə, dünya erməniliyinin əlində alətə çevriləndə bilmirdi ki, özünün itirəcəyi daha çox olacaqdır?!**

Hələ bu harasıdır...

Maraqlıdır ki, dünyanın gözündən düşən Avropa İttifaqı indi özünə daha bir *"fəaliyyət sahəsi"* tapıb:

*Ermənistan sərhədinə adamlar göndərərək binoklla Azərbaycan tərəfinə baxdırmaq!*

"Mülki"lər adı altında keçmiş polis və jandarmlarını casus kimi sərhədimizə göndərmələrini başa düşürük.

**Anlaşılmayan odur ki, bütün günü gözündə durbin bizə baxanda nə olur?**

**Bəlkə bu "üsul"la Azərbaycan sərhədçilərini hipnoz etmək istəyirlər?**

*Amma anlamırlar ki, onların "hipnoz"u nə sərhədçilərimizə, nə də ordumuza təsir etmək qabiliyyətindədir!*

**"Dəmir yumruq" hipnoza, filana baxmır, qalxıb enən kimi əzib diz çökdürür!**

*Heç Polşa Prezidenti Dudanın da "durbinçi"lərə qoşulmasının faydası olmadı.*

*Sabah pensiyaçı Cozep Borel, yaxud Ursula fon der Lyayen də gəlib durbinlə biz tərəfə boylansa, çətin ki, nəsə dəyişə.*

**Necə deyərlər, olan olub, torba dolub!**

❖ ❖ ❖

Sonda daha bir atalar sözünü xatırlatmaq istərdik:

*"Özünə umac ova bilmir, başqasına əriştə kəsmək istəyir".*

Avropa artıq "dünyanın mərkəzi" funksiyasını itirib...

**Makron, Şolts, Ursula fon der Lyayen, Cozep Borel kimilərinin "fəaliyyəti" sayəsində iqtisadi, mənəvi və hərbi böhran keçirməkdədir.**

*Ukraynanı qızışdırıb Rusiyanın üstünə saldılar.*

İndi nə müharibəni davam etdirə bilirlər, nə də qurtara.

*Gürcüstanı Aİ-yə qəbulla aldadaraq yarıyolda qoydular, üstəlik, Avropaya inanan Gürcüstan bir xeyli ərazi də itirdi.*

İndi Avropaya arxa çevirir.

**Əslində, Gürcüstanı və Ermənistanı öz tərəfinə çəkərək Azərbaycanı Cənubi Qafqazda təkləmək istəyən Avropa və Qərb fiaskoya uğradı!**

*Öz müstəqilliyini və ənənəvi dəyərlərini daha yüksək tutan Gürcüstan Azərbaycan kimi müstəqil, milli maraqlarına xidmət edən siyasət yürütməyi üstün tutdu!*

**Nəticədə bölgədə Azərbaycan yox, Ermənistan təklənmiş vəziyyətdə qaldı!**

İndi isə tək qalmış Ermənistanı olmayan dövlətçiliyindən də məhrum etmələrinə az qalıb.

Sən öz saydığını say...

44 gündə Ermənistanı diz üstə çökdürən Azərbaycana yeni müharibənin başlanacağı halda daha az vaxt gərək olacaqdır!

Ölkəni tərk edən haylar isə bu dəfə Rusiyaya yox, Avropaya üz tutacaqlar.

**Bəxtiyar SADIQOV**





# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Qərbin siyasi avantüralarının maliyyə maxinasiyaları

**Fransanın "Mediapart", İtaliyanın "Il Fatto Quotidiano", Yunanıstanın "Drop Site" və "Reporters United" nəşrlərinin apardıqları birgə araşdırmalarda Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsi - OCCRP haqqında çox maraqlı faktlar ortaya çıxıb. Belə ki, araşdırmada OCCRP-nin mənsubluğu, maliyyə mənbələri, əsl məqsəd və məramı bəlli olub. Bununla Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsinin əsl fəaliyyəti ifşa edilib.**




"Dropsitenews.com" resursunda dərc olunmuş "Jurnalistika nəhəngi büdcəsinin yarısını ABŞ hökumətindən alır" başlıqlı məqalədə sensasiyalı məlumatlar öz əksini tapıb.

Öncə onu vurğulayaq ki, özünü 2007-ci ildə yaradılmış müstəqil təhqiqat konsorsiumu kimi təqdim edən OCCRP əldə olunan mühüm məlumatların guya araşdırmaçı jurnalist məhsulu kimi təqdimatı prosesini həyata keçiməklə məşğul olub. Bir müddət öncə Azərbaycan mətbuatında dərc edilən bir araşdırmada təşkilatın saytına istinadən deyilirdi ki, qurumun yerləşmə ərazisi Sarayevo və Buxarestdədir. Beş postsovet ölkəsi - Rusiya, Ukrayna, Latviya, Ermənistan və Gürcüstanla əməkdaşlıq və nümayəndəlik əlaqələri barədə məlumat verilirdi. Qeyd olunurdu ki, təşkilat jurnalistlər üçün qiymətli mənbə ola biləcək şirkət yazışmalarının, bank-maliyyə əməliyyatlarının, istintaq protokollarının, məhkəmə stenoqramlarının "online" resursunu hazırlayır və təqdim edir.

"Jurnalistika nəhəngi büdcəsinin yarısını ABŞ hökumətindən alır" başlıqlı məqalədə təşkilatın maliyyəçiləri arasında Soros Fondunun, USAID və ABŞ Milli Demokratiya Fondunun adları keçir.

"Dropsitenews.com"un məlumatına əsasən, illik 20 milyon avro büdcəyə malik və 200 əməkdaş çalışdıran OCCRP ABŞ dövlətinin layihəsidir. 2008-ci ildə kiçik bir media qrupu kimi fəaliyyətə başlayanda sərəncamında Dövlət Departamentinin Beynəlxalq Narkotik və Hüquq Mühafizə Məsələləri Bürosunun (İNL) verdiyi 1 milyon dollar vəsait olub. Bu vəsait də Delaverdə yerləşən "Jurnalistikanın İnkişafı Şəbəkəsi"nə (Journalism Development Group, LLC) verilib və bundan sonra OCCRP həyata vəsiqə qazanıb.

Qurulduğu dövrdən indiyə kimi OCCRP ABŞ hökumətindən 47 milyon dollar vəsait alıb. Əlavə olaraq 1,1 milyon dollar Avropa İttifaqından və 14 milyon dollar da Avropa ölkələrindən alan təşkilatın büdcəsinin 52 faizi ABŞ hesabına formalaşıb. OCCRP-nin ABŞ hökuməti ilə əlaqələri o qədər sıxdır ki, hətta USAID-in erməniPərəst rəhbəri Samanta Pauer onu "tərəfdaş qurum" adlandırır. USAID-in OCCRP üzərində hökmünü daha aydın təsəvvür etmək üçün bir faktı qeyd etmək kifayətdir ki, o, OCCRP-dən layihələri və əməkdaşları ilə bağlı hər il hesabat tələb edir və bütün bunlarla bağlı söz sahibidir.

OCCRP ABŞ kəşfiyyatı tərəfindən ötürülən məlumatları araşdırmaçı jurnalist məhsulu kimi təqdim edir və bununla da Vaşinqtonun xarici siyasətində təsir rıçağı rolunu oynaması faktını təsdiqləyir.

OCCRP-nin Cənubi Qafqaz siyasəti isə bizlərə çox yaxşı bəllidir. Hələ bir dəfə də olsun Azərbaycan reallıqları ilə bağlı doğru-düzgün araşdırma təqdim etməyən təşkilat yalnız işğalçı Ermənistanın maraqlarına xidmət edən "fəaliyyəti" ilə seçilib.

Bu təşkilat hər zaman Azərbaycanı əsas hədəf kimi seçərək ölkənin daxili işlərinə qarışmaq və əsasən, erməni maraqlarının müdafiəçisi kimi çıxış etməklə çirkin kampaniyalar həyata keçirib.

USAID-in erməniPərəst rəhbəri Samanta Paueri bütün dünya azərbaycanlıları yaxşı tanıyır. "Ermənidən betər erməni" olan bu xanım OCCRP-ni "tərəfdaş qurum" hesab edirsə, buna başqa ad vermək olmaz. Azərbaycan bu təşkilatın hər zaman hədəfində olan dövlətlərdən biridir. Hazırda OCCRP-nin əməliyyatlarını USAID əməkdaşı Şennon Maquayrinin kurasiya etməsi də bunu təsdiqləyən reallıqdır.

İndiyə qədər Avropa İttifaqı, Avropa ölkələri, xüsusilə ABŞ-dən aldığı vəsait hesabına büdcəsini formalaşdıran OCCRP-nin Azərbaycanla bağlı "araşdırmalarında" Xədicə İsmayıldan vasitə kimi istifadə edilməsi də reallıqdır. Bəlli olur ki, X.İsmayıl, əslində, sifariş yerinə yetirib. O, müəyyən materiallarda yalnız imzasının istifadəsinə razılıq verərək bunun müqabilində pul qazanıb.

Azərbaycanın dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri hesab edilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sammitinə evsahibliyi ərəfəsində OCCRP-nin "fəaliyyətini" görməmək mümkün deyildi. ABŞ Dövlət Departamenti tərəfindən aldığı sifarişi yerinə yetirən təşkilat bütün imkanları ilə çalışırdı ki, COP29-da Azərbaycanın yüksəksəviyyəli evsahibliyinə xələl gətirsin, kölgə salsın. "Vaşinqton Post", "Qardian", "CNN"nin bu oyunda informasiya təminatçısı kimi çıxış etmələri də Qərbin Azərbaycana qarşı əsl niyyətini göstərən reallıqlardır.

Bir sözlə, bu günə kimi OCCRP-nin Azərbaycan da daxil olmaqla apardığı araşdırmaların sifarişçisi, icraçıları, onların qarşısına qoyulmuş vəzifələr aydındır. İndi maraqlıdır ki, bu boyda araşdırmadan, real faktlardan sonra OCCRP və onun arxasında duranlar, yəni ABŞ Dövlət Departamenti, USAID-in rəhbəri Samanta Pauer buna necə don geyindirəcəklər?!

***R.BAXŞƏLİYEV, "Azərbaycan"***

## Ermənistanın müharibəyə təhriki Qərbin növbəti planıdır

### Paşinyan hakimiyyəti regionda formalaşan yeni arxitekturanı və təhlükəsizliyi təhdid edir

**"Azərbaycan Cənubi Qafqaz regionunda tezliklə sülh və təhlükəsizliyin təmin olunmasının tərəfdarıdır. Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması məsələsi bölgənin strateji gündəliyinin və siyasi gündəminin aktual mövzusudur. Yeni mərhələdə bölgədə sabitlik və əməkdaşlıq mühitinin formalaşması, qarşıdurma və təhdidlərin istisna olunması üçün sülh müqaviləsinin imzalanması vacibdir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, 44 günlük Vətən müharibəsində parlaq qələbə qazanan Azərbaycan bununla da Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb. Müharibədə Ermənistanı ağır məğlubiyyətə uğratmasına baxmayaraq, Azərbaycan dövləti bölgənin gələcəyi naminə qarşı tərəfə beynəlxalq hüquq normalarına əsaslanan sülh sazişini imzalamağı təklif edib. Uzun müddətdir ki, sülh sazişi üzrə danışıqlar davam edir. Lakin Ermənistan sülh üçün əsas şərtləri yerinə yetirməkdən yayınmağa çalışır.

Deputatın sözlərinə görə, Ermənistanın bu manipulyasiya və siyasi avantüralarının son məqsədi sülh prosesini ləngitmək və ya iflasa uğratmaqdır. Paşinyan hakimiyyəti regionda formalaşan yeni arxitekturanı, olduqca pozitiv əməkdaşlıq imkanlarını, inkişafı və təhlükəsizliyi təhdid edir və açılan yeni perspektivlərə zərbə vurmağa çalışır: "Digər tərəfdən, Ermənistan hazırda işğaldan azad olunmuş ərazilərdə görülən işlərin miqyasını aydın görür. Sülh prosesinin pozulmasında məqsədlərdən biri də bu prosesə zərbə vurmaqdır. Əvvəlki dövrdə rəsmi İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına arxalanırdısa, sonradan baş verən hadisələr artıq bu ölkənin oriyentirlərini dəyişdiyini və açıq şəkildə Qərbdə dəstək axtardığını göstərdi. Belə ki, Ermənistan artıq NATO-nu bölgəyə gətirməyi və öz revanşist məqsədlərini Qərbin əli ilə reallaşdırmağı düşünür. Bəzi Qərb ölkələrinin rəsmi nümayəndələrinin açıqlamaları, Ermənistanın silahlandırılması, görünür Paşinyan hakimiyyətini "ruhlandırır"", - deyə o əlavə edib.

S.Fətəliyeva qeyd edib ki, dünya dövlətləri və beynəlxalq təşkilatlar Ermənistanın hazırda yürütdüyü siyasətin mahiyyətini aydın görməli, onun əsl niyyətlərini düzgün qiymətləndirməlidir. Əgər Ermənistan sülhə məcbur edilməsə, regionda qeyri-sabitlik davam edəcək: "Çox maraqlıdır ki, hazırda bir sıra Qərb ölkələri Ermənistanı sülhə deyil, revanşizmə sövq etməyə çalışırlar. Fransa kimi ölkələrin addımları da bunu sübut edir. Sual olunur, Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlayarkən onlar nə üçün susurdular? Nə üçün haqqın, ədalətin yanında deyildilər? Bu faktlar dünyada ikili standartların göstəricisidir. Azərbaycan öz mövqeyində beynəlxalq hüquq normalarına arxalanır. İşğalçı, təcavüzkar dövlət Ermənistandır. Bu gün, sadəcə, ölkəmiz haqqında beynəlxalq birlikdə yanlış rəy formalaşdırılmasına çalışılır. Belə bir halda, kimlərinsə ölkəmizi ittiham etməsi qəbulolunmazdır".

Deputat vurğulayıb ki, əgər beynəlxalq birlik, dünya gücləri regionumuzda sülh və sabitliyin təmin olunmasını istəyirsə, Ermənistana təzyiqlər göstərməlidirlər. Lakin görünür ki, Ermənistanın yeni müharibə avantürası Qərbin növbəti planıdır. Burada Ermənistan hakimiyyəti ilə Qərbin maraqları üst-üstə düşür. Rəsmi İrəvan nəzərə almalıdır ki, sülhü yox, hərbi təxribatlar yolunu seçərsə, layiqli cavabını alacaq.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## Qərb Gürcüstanda qarşıdurma yaratmaqda çirkin məqsəd güdür

**Oktyabrın 26-da Gürcüstanda keçirilən parlament seçkilərindən sonra bu ölkədə Qərbin təhriki və dəstəyi ilə mitinqlər, qarşıdurmalar başlayıb. Gündən-günə vəziyyət gərgin xarakter alır. Buna səbəb isə Qərbin seçkilərdə iqtidar partiyasının qələbəsini qəbul etməməsidir. Qərbin dedikləri ilə oturub-duran gürcü müxalifəti ölkədə xaos yaradır, insanları mitinqə çağırır, hüquq-mühafizə orqanlarına qarşı zorakılıq göstərir.**



Belə qarşıdurmalar, mitinqlər Gürcüstanda ilk dəfə deyil baş verir. Arxada qalmış 24 il ərzində bu ölkədə dəfələrlə qalmaqallı hadisələr baş verib, gərgin günlər yaşanıb. 2003-cü ildə Gürcüstanda "qızılgül inqilabı" adlandırılan hadisə baş verib. Qərbin sifarişi ilə həyata keçirilmiş "qızılgül inqilabı" nəticəsində ovaxtkı prezident Eduard Şevardnadze tutduğu vəzifə ilə vidalaşmalı olub. Təəssüflər ki, Qərbin o zamanlar Gürcüstanda başlatdığı qarşıdurma, hakimiyyət çevrilişi planları davam edir. Qərb ətək-ətək pul payladığı qeyri-hökumət təşkilatları vasitəsilə proseslərə müdaxilə edir, gürcü xalqının hüquqlarını kobud şəkildə pozur. Qeyri-hökumət təşkilatlarını maliyyələşdirməklə sanki "dövlət içində dövlət" qurur. Sonra da onların vasitəsilə ölkədə xaos yaradır. Xalqın iradəsinin, istəyinin əleyhinə gedir. Qonşu respublikada baş verən qarşıdurmalar bir daha göstərir ki, Qərb verdiyi qrantlar hesabına Gürcüstanda QHT-çilərdən ibarət manqurt dəstələr, LGBT və ifrat liberal mövqe tutan sağ təmayüllü düşərgə formalaşdırıb. İndi də onların vasitəsilə ölkədə vətəndaş qarşıdurmasını körükləyir. Bu qarşıdurmadan istifadə edərək çirkin məqsədlərinə çatmağa çalışır.

Gürcü xalqı öz milli-mənəvi dəyələrinə, adət-ənənələrinə hər zaman sadiq qalıb, hörmətlə yanaşıb. Ancaq qrant dəllalları Qərbin diktəsi və maliyyəsi ilə Gürcüstan cəmiyyətinin əsaslarını ifrat sağçı düşüncə sistemi ilə zədələyib. Bütün çirkin işlər isə demokratiya və insan hüquqları kimi dəyərlərin "çətir"i altında aparılıb.

Hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının deputatı İrakli Kirtsxaliya ölkəsində baş verən hadisələrdən danışarkən qeyd edib ki, Gürcüstan hökumətinin Avropa İttifaqına (Aİ) qəbul olması ilə bağlı danışıqların başlanmasını 2028-ci ilə qədər dayandırmaq qərarı ilə razılaşmayanların etiraz dalğası, əslində, casusların təşkil etdiyi dövlət çevrilişinə cəhddir. Onun sözlərinə görə, baş nazir İrakli Kobaxidze bu qərarın ölkənin Aİ-yə inteqrasiyasının dayandırılması demək olmadığını izah etsə də, Prezident Salome Zurabişvili və müxalifət düşünülmüş şəkildə dezinformasiyalar yayaraq insanları mitinqlərə dəvət edir, iğtişaşlar yaratmağa çalışırlar.

Gürcüstan hökumətinin Avropa İttifaqına daxil olmaqla bağlı danışıqları 2028-ci ilə qədər dayandırmaq qərarı çox məntiqlidir. Tarixə nəzər salanda görürük ki, Gürcüstan hələ 1999-cu ildə Avropa İttifaqına üzvlüyə namizəd statusu qazanmışdı. Amma tarix göstərir ki, arxada qalan 25 il ərzində bu məsələ müsbət həllini tapmadı. Avropa İttifaqı hər dəfə bir bəhanə gətirərək Gürcüstanın arzularını reallaşdırmadı. Bütün bunlar bir daha aydın şəkildə göstərdi ki, Avropa İttifaqının Gürcüstanı sıralarına qəbul etmək fikri yoxdur. Sonuncu dəfə isə Aİ bəyan edib ki, Gürcüstanı ən yaxşı halda 2030-cu ildə quruma üzv qəbul edə bilər. Təbiidir ki, bu da Qərbin növbəti yalanıdır. Çünki Gürcüstanın hazırkı durumda Aİ-yə üzvlük məsələsi mümkün deyil. Məlumdur ki, Gürcüstan ərazisinin 20 faizi işğal altındadır. Belə vəziyyətdə isə heç bir təşkilat bu ölkəni sıralarına qəbul etməz. Gürcüstan hökuməti də Qərbin yalanlarına cavab olaraq 2028-ci ilə qədər bu mövzuda danışıqları davam etdirməyi dayandırıb. Qərb isə onunla masa arxasına oturub danışmayan hökumətə "rəngli inqilab"larla, qarşıdurmalarla, mitinqlərlə cavab verir. Belə çirkin əməllərdən sonra Qərbin səmimiliyinə inanmaq avamlıqdan başqa bir şey deyil.





Hadisələrin gedişini izlədikcə şahidi oluruq ki, Qərb açıq şəkildə ona üz göstərməyən, dediklərinə baş əyməyən Gürcüstanın üzərinə gedir. Əvvəlcə bu ölkəyə qarşı iqtisadi dəstəyi dayandırdı, siyasi rəhbərlərin Qərb ölkələrinə gəlişinə qadağa qoydu. Bir müddət sonra isə Aİ Gürcüstana 121 milyon avronun ayrılması qərarını ləğv etdi. Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borel Brüsseldə keçirilən mətbuat konfransında bildirdi ki, Aİ Gürcüstan hökuməti üçün ayrılmış 121 milyon avro vəsaiti başqa məqsədlərə yönəldəcək. Bütün bunlara cavab olaraq isə noyabrın 28-də baş nazir İrakli Kobaxidze Gürcüstanın 2028-ci ilin sonuna qədər Aİ ilə danışıqları dondurduğunu elan etdi. Bu da Qərbi qəzəbləndirdi. İndi Qərb qəzəbini qonşu ölkədə başlatdığı "rəngli inqilab"la, qarşıdurmalarla "soyutmağa" çalışır.

Ümumiyyətlə, baş verən bu gərgin hadisələr göstərir ki, ABŞ və Qərb postsovet ölkələrindən həmişə çirkin məqsədlərinə çatmaq üçün siyasi alət kimi istifadə edib. Həmin ölkələrdə "rəngli inqilab"lar edərək sanki eksperimentlər keçiriblər. Təəssüflər olsun ki, bu çirkin siyasət yenə də səngimək bilmir. Biz bunu Gürcüstanda baş verən qanlı hadisələrin fonunda bir daha açıq şəkildə görürük. Qərb açıq-açığına gürcü xalqının istəyinə, iradəsinə zidd addımlar ataraq Gürcüstanda qarşıdurma yaradır, insanları hökumət əleyhinə mitinqə çağırır. Çirkin məqsədinə çatmaq üçün bütün vasitələrdən istifadə edir. Amma bunlarla gürcü xalqının iradəsini qırıb arzusuna çata bilməyəcək. Müdrik gürcü xalqı bu çətin anlarda təxribatçı çağırışlara uymayacaq, öz hökumətinin, öz dövlətinin yanında olacaq.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

## *Qoqa XAİNDRAVA:* "Son günlər Tbilisidə baş verənlər dövlət çevrilişinə cəhddir"

**Son günlər Tbilisidə baş verənlər dövlət çevrilişinə cəhddir. Əlbəttə ki, burada "müharibə partiyası"nın əlində alət olan bəzi Qərb dairələrinin, siyasətçilərinin də əli var. Bu xarici güclər, əslində, hazırkı ABŞ administrasiyasının siyasətinin bir hissəsidir.**

Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq Qoqa Xaindrava söyləyib.

Onun sözlərinə görə, hazırda Tbilisidə baş verən hadisələrə ABŞ-nin Gürcüstandakı səfirliyi rəhbərlik edir. "Məsələyə siyasi tərəfdən baxsaq görərik ki, onlar burada da "meydan hərəkatı" yaratmağa çalışırlar. Amma onlar bizdə buna müvəffəq olmayacaqlar", - deyə politoloq vurğulayıb.

O deyib: "Bu xarici qüvvələr o qədər özlərini aşağılayıblar ki, artıq onlar məktəb uşaqlarını belə aksiyalara cəlb etməyə çalışırlar. Təbii ki, buna aksiya demək olmaz. Siyasi aksiya hökumətdən nəsə tələb etmək deməkdir. Bu fonda isə heç nə baş vermir. Onlar müəyyən adamları öz ətrafında toplayır, xalqı polislə toqquşmağa təhrik edirlər. Təbii ki, bu hal əvvəlcədən düşünülmüş addımdır".

Xaindrava bildirib ki, Gürcüstandakı siyasi vəziyyətə Baltikyanı ölkələr fəal müdaxilə edirlər. "Bu, bizim üçün çox təəccüblüdür. Bizim bu ağır vəziyyətimizdə məhz bizə qarşı çox fəal iştirak edirlər. Avropa Şurasında Eston Qayaş var. Onun həyat yoldaşı milyonerdir və onun biznesi Rusiya ilə bağlıdır. Belə olan halda xanımın hansısa demokratiyadan və Qərb dəyərlərindən danışması sual doğurur", - deyə o vurğulayıb.

Avropa Şurasının antidemokratik fəaliyyətinə toxunan siyasətçi deyib: "Avropa Şurası, demək olar ki, bütövlüklə çürüyüb. Siz gördünüz ki, Fransa Azərbaycana qarşı necə hərəkət edirdi, necə bəyanatlar verirdi? Görün, burunlarını hara soxurlar. Biz bunları görürük. Avropa Şurasında 600 deputat səs verir. Amma inanın ki, onlar heç qətnamədə nə yazıldığını belə oxumurlar. Amma Azərbaycan neynədi? Öz gücünə tarixi ədaləti bərpa etdi. Hamıya sübut etdi ki, əsl demokratiya elə bizdədi. COP29 kimi böyük tarixi bir tədbiri keçirməklə öz sülhsevərliyini, ədalətlilik prinsipini uca tutduğunu dünyaya sübut etdi. Azərbaycana dişi batmayan həmin qüvvələr indi də Gürcüstanı sınağa çəkiblər".

Onun sözlərinə görə, elə bir gün yoxdur ki, ABŞ Gürcüstandan nəsə yazmasın: "Avropa Şurası isə gecə-gündüz Gürcüstan haqqında danışır. Sual edirəm, Gürcüstan necə ölkədir ki, Avropa Şurası, ABŞ, Bayden bütün günü bizdən danışır. Nə istəyirsiniz bizdən?! Təbii ki, onlar bununla gürcülərin əzmini qırmaq, əymək istəyirlər. Amma unudurlar ki, onlar özləri çoxdan qırılıb, çürüyüblər. Onların pornoliberalizmi bütün Avropanı "fəth edib". ABŞ-dəki yeni seçkiləri pornoliberalizmə qarşı qiyam da adlandırmaq olar. ABŞ Trampı seçməklə faktiki olaraq Baydenin pornoliberalizminə qarşı çıxdı. Çökməkdə olan "müharibə partiyası"nın qalıqları isə son nəfəslərində belə öz çirkin niyyətlərindən əl çəkmirlər. Amma onlar heç nəyə nail ola bilməyəcəklər. Gürcü xalqı özü öz müqəddəratını müəyyən edib, müstəqilliyinə qovuşub, bundan sonra da öz müstəqilliyini qoruyub saxlayacaq, heç kimə boyun əyməyəcək".

**5 Dekabr Beynəlxalq Könüllülər Günüdür**

# COP29-da könüllülük hərəkatının Azərbaycan nümunəsi

**BMT Baş Assambleyasının 1985-ci il qətnaməsinə əsasən, hər il dekabrın 5-i dünyada Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur. Könüllülük iradə və sərbəst seçim əsasında heç bir maddi qazanca əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyətdir.**











Könüllülük əvəzolunmaz təcrübədir. Bu fəaliyyət gənclərə peşəkar bacarıqlarını inkişaf etdirmək, komanda işi və liderlik qabiliyyətlərini artırmaq, yeni insanlarla tanış olub şəbəkələşmək imkanı yaradır. Eyni zamanda beynəlxalq tədbirlərdə iştirak etməklə fərqli mədəniyyətlər və perspektivlərlə tanış olmaq onların şəxsi və peşəkar inkişafına müsbət təsir göstərir.

Ölkəmizdə həyata keçirilən gənclər siyasətinin əsas istiqamətlərindən biri də gənclərin könüllülük fəaliyyətinə cəlb edilməsidir. 2009-cu ildə "Könüllü fəaliyyəti haqqında" qanunun qəbul edilməsi Azərbaycanda könüllülük fəaliyyətinin inkişafında xüsusi rol oynadı. Bu geniş və əsaslı qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu.

Könüllülər indiyədək Azərbaycanın yüksək səviyyədə evsahibliyi etdiyi "Eurovision-2012" mahnı müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və "Formula-1" yarışları kimi mötəbər beynəlxalq tədbirlər zamanı olduğu kimi, qlobal əhəmiyyətli BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) təşkilində də mühüm rol oynayıblar.

## COP29-da 3000-dən çox könüllü fəaliyyət göstərdi

Qlobal iqlim siyasətində böyük əhəmiyyət daşıyan və dünyanın 196 ölkəsindən gələn müxtəlif millətlərdən olan qonaqları bir araya gətirən COP29-da 3000-dən çox könüllü fəaliyyət göstərdi. İqlim konfransının Könüllülük Proqramının qeydiyyat prosesinə 29 may tarixində start verildi. İlk 24 saat ərzində Azərbaycanda rekord qeydiyyat göstəricisinə nail olundu. Belə ki, bir gündə 9000 nəfər könüllülük üçün qeydiyyatdan keçdi.

Könüllülük proqramına başlanılan andan etibarən xarici könüllülər üçün də müraciət imkanı yaradıldı, 80-dən çox əcnəbi vətəndaş COP29-un könüllüsü olaraq təşkilati işlərə qoşuldu, onlarla ayrılıqda müsahibə və təlimlər təşkil edildi. Xarici könüllülər, əsasən, Amerika Birləşmiş Ştatları, Türkiyə, Almaniya, Kolumbiya, Belarus, Cənubi Koreya, Çin, Gürcüstan, Hindistan, Türkmənistan, Pakistan, Nigeriya, Qırğızıstan və digər ölkələrin vətəndaşları idi. Ümumiyyətlə isə 16 mindən çox şəxs COP29 könüllüsü olmaq üçün qeydiyyatdan keçmişdi.

Bir neçə mərhələdən ibarət olan seçim prosesini həyata keçirən komandada olan əməkdaşların böyük əksəriyyəti daha əvvəl keçirilmiş tədbirlərdə könüllü kimi iştirak etmiş gənclər idi. İlk mərhələdə qeydiyyat müraciətləri yoxlanıldı və nəticədə 10 min nəfər müsahibə mərhələsinə dəvət olundu. Müsahibələr zamanı könüllülərin motivasiyası, xarici dil bilikləri və komandada işləmə bacarıqları əsas diqqət mərkəzində oldu. Həmçinin müəyyən sahələrdə işləyəcək könüllülər üçün əlavə tələblər nəzərə alındı, əvvəlki təcrübələr qiymətləndirildi. Bu mərhələdən uğurla keçən könüllülərin 68 faizi qadın, 32 faizi kişi olmaqla, təxminən 7 min nəfər ümumi və rol təlimlərinə dəvət edildilər. Bu proses isə təkcə könüllülərin işə hazırlığını təmin etmədi, həm də onları bir ailə olaraq birləşdirdi.

## 16 yaşdan 72 yaşa qədər

COP29 könüllüləri ümumilikdə 17 müxtəlif şöbə üzrə 35 fərqli rolda fəaliyyət göstərirdilər. Onların işi qonaqların hava limanında qarşılanmasından tutmuş, transport və yerləşmə proseslərinin təşkilinə, eləcə də tədbir məkanlarında təşkilati işlərin aparılmasına qədər müxtəlif istiqamətləri əhatə edirdi. Bundan əlavə, könüllülər yalnız qonaqlara deyil, əməkdaşlara dəstəyin göstərilməsi, media əməliyyatları və dəstək komandasının üzvləri olaraq BMT əməkdaşları ilə çiyin-çiyinə çalışaraq tədbirin ən yaxşı formada təşkilində iştirak etdilər.

Gənclərimiz, həmçinin tədbirin əsas məkanlarında, məsələn, Bakı Olimpiya Stadionunda və müxtəlif konfrans zallarında, iştirakçı və qonaqlara dəstək göstərərək, tədbirin hər bir detalının yüksək səviyyədə təşkilinə töhfələrini verdilər. Hər bir şöbədə fəaliyyət göstərən könüllülər öz bacarıq və təcrübələrinə uyğun tapşırıqlarla təmin olunmuşdular. Bu yanaşma onların həm fərdi, həm də komanda şəklində işləmə bacarıqlarını maksimum səviyyədə istifadə etməyə imkan yaratdı.

COP29 könüllülərinin digər tədbirlərdən fərqləri burada yuxarı yaşlı insanların da könüllü qismində fəaliyyət göstərməsi idi. Belə ki, könüllülər arasında ən gəncinin 16, ən yaşlısının isə 72 yaşında olması bu prosesin müxtəlif yaş kateqoriyasında olan şəxslər üçün cəlbedici olduğunu göstərirdi. COP29 könüllülər proqramının müraciətçilərinin 84 faizini 18-25 yaş qrupu, 11 faizini 16-18 yaş arası, 5 faizini 25 yaşdan yuxarı şəxslər təşkil edirdi.

Ölkəmizdə keçirilən tədbirin fərqləndirici daha bir məqamı isə indiyə qədər keçirilmiş COP konfransları tarixində ilk dəfə olaraq Azərbaycanda COP29 Akademiyasının təşkil edilməsi oldu. COP29 Akademiyasında mentorluq, peşəkar inkişaf və iş imkanları təklif edən genişmiqyaslı layihə olmaqla, iştirakçıların iqlim dəyişmələri, dayanıqlılıq sahəsində yeni biliklər əldə etməsi istiqamətində öyrənmə mədəniyyətinin təşviqi prosesi həyata keçirildi. Akademiyada iştirak üçün çoxsaylı müraciətin dəyərləndirilməsi nəticəsində 29 nəfər seçilərək COP29 Akademiyasının iştirakçısı olmaq imkanı əldə etdilər. İştirakçılar 2 ay müddətində fərdi və peşəkar inkişaf təlimlərində iştirak etməklə yanaşı, COP29 Azərbaycan Əməliyyat Şirkətinin fərqli şöbələrinin iş prosesləri ilə də yaxından tanış oldular. Proqramın sonunda şöbələr tərəfindən seçilmiş gənclər həmin şöbələrin tərkibində uğurlu təcrübə keçdi, Azərbaycan Əməliyyat Şirkətində iş imkanı əldə etdilər.

Cəmiyyətin təkanverici qüvvəsi olan gənclərimiz onlara bəslənən ümidləri yenə də doğrultdular. COP29 könüllüləri konfrans çərçivəsində təkcə öz bacarıqlarını nümayiş etdirmədilər, həm də bu mötəbər tədbirin yüksək səviyyədə həyata keçirilməsində vacib rol oynadılar, daha "yaşıl dünya" üçün mübarizə missiyasının bir parçası oldular.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Daha 48 şuşalı ailə arzusuna çatdı

## Hazırda mədəniyyət paytaxtımızın min nəfərə yaxın sakini var

**Ötən gün Şuşa növbəti sakinlərini qarşıladı. Bu dəfə Şuşa şəhərinə 48 ailə - 164 nəfər köçürüldü. Bununla da mədəniyyət paytaxtımıza qayıdan şuşalıların sayı 987 nəfərə (268 ailə) çatdı.**







İşğaldan azad edilən bütün ərazilərimizdə olduğu kimi, Şuşada da qısa zaman müddətində aparılan hərtərəfli quruculuq və bərpa işləri sayəsində artıq bu şəhərə də, sözün əsl mənasında, yenidən can verilib.

Bu il mayın 10-da - Ulu Öndərin doğum günündə Şuşaya ilk qayıdan sakinlərlə görüşü zamanı Prezident İlham Əliyev vurğulamışdı ki, düşmən tapdağından qurtarılan ərazilərimizdə quruculuq zəfərləri, tarixi yurdlarımıza möhtəşəm qayıdış təntənəsi yaşanır: "Bu gün isə Şuşanın yeni tarixi başlayır. Mən 2020-ci il noyabrın 8-də xalqa müraciətimdə demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bax bu gün biz dirçəldilən Şuşanı görürük".

Böyük qayıdışı milli çağırışımız kimi müəyyənləşdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda misli görünməmiş tikinti-quruculuq işləri həyata keçirilir. "Ağıllı" kənd və şəhərlər qurulur, tunellər, körpülər, yollar salınır, hava limanları tikilib istifadəyə verilir. Hərtərəfli infrastruktur qurulan bu ərazilərimizin əzəli sakinləri üçün layiqli həyat şəraiti yaradılır, onların məşğulluğu təmin edilir.

Eyni zamanda Qarabağın ürəyi Şuşanın dirçəldilməsi geniş vüsət alıb. Vətən müharibəsindən dərhal sonra quruculuq işlərinə start verilən qala şəhərimizə ilk olaraq Zəfər yolu çəkilib. İndi həmin yolla və yeni çəkilən digər yollarla Şuşaya qayıdış karvanları yola salınır. Bu yollarla Azərbaycanın müxtəlif bölgələrindən mədəniyyət paytaxtımızı ziyarət etməyə gedən insanlarımız burada görülən misilsiz işlərə heyrətlə tamaşa edir, Şuşanın ruhunun özünə qaytarılmasından fəxr duyurlar.

Yeni və müasir yaşayış binaları, mehmanxanalar tikilən Şuşanın tarixi abidələri Heydər Əliyev Fondu tərəfindən müvəffəqiyyətlə bərpa edilir. Ötən müddətdə Vaqifin məqbərəsi yenidən qurulub, Yuxarı və Aşağı Gövhər ağa, Saatlı, Mamayı məscidləri bərpa olunub. Mehmandarov məscidi və Mehmandarovun evi bərpa edilib. Şirinsu hamamı əsaslı təmir edilib, Üzeyir bəy Hacıbəylinin ermənilər tərəfindən dağıdılmış evi yenidən qurulub.

Bir sözlə, nümunə gətirdiyimiz və sadalamadığımız digər çoxsaylı quruculuq və bərpa işi də göstərir ki, Şuşa tarixi şan-şöhrətinə qovuşur. Əzəli sakinləri onun qoynunda əbədi xoşbəxt həyata başlayırlar.

Ümumiyyətlə, Qayıdış proqramının uğurla həyata keçirilməsinin nəticəsidir ki, indiyədək 2415 ailə - 9303 nəfər doğma ocağına geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 268 ailə (987 nəfər) Şuşa şəhərində, 46 ailə (179 nəfər) Xocalı şəhərində, 237 ailə (912 nəfər) Cəbrayıl şəhərində məskunlaşıb.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İslam dünyasının "Gənclər paytaxtı" gəncləri yenidən bir araya gətirdi

**Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın incisi Şuşa şəhəri 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığımız böyük Zəfər nəticəsində azadlığına qovuşduqdan sonra bir-birindən maraqlı və əhəmiyyətli beynəlxalq tədbirlərin keçirildiyi məkan oldu. Bu baxımdan 2024-cü il Şuşa şəhərinin tarixində ən əlamətdar illərdən biridir.**

Tariximizdə özünəməxsus yeri olan Şuşa bu il də yalnız ənənəvi tədbirlərə evsahibliyi etmir. Bu gözəl məkan islam dünyasının həm mədəniyyət paytaxtı, həm də gənclər paytaxtıdır. Bununla bağlı Şuşada il boyu bir-birindən maraqlı və yaddaqalan tədbirlər düzənləndi.

Dekabrın 2-də islam dünyasının "Gənclər paytaxtı" olan Şuşa şəhəri yenidən gəncləri bir araya gətirdi. Həmin gündən başlayaraq dekabrın 4-dək Şuşada 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı"nın tədbirləri təşkil olundu.

Qeyd edək ki, ötən il noyabrın 10-da İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu İcraiyyə Şurasının Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş 11-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri yekdilliklə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) "Gənclər paytaxtı 2024" Beynəlxalq Proqramına 10-cu ev sahibi seçildi. Həmin iclasda İƏT Gənclər Forumunun həyata keçirdiyi "Gənclər paytaxtı 2024" beynəlxalq proqramının seçim komissiyasının üzvləri bu qərarın lehinə yekdilliklə səs verdilər.

Dövlət başçısı İlham Əliyev aprelin 17-də Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında" sərəncam imzaladı. Əsas məqsədi dünya gənclərini bir araya gətirmək olan layihə çərçivəsində təşkil olunan tədbirlərdə iştirak etmək üçün İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtına - Şuşaya müxtəlif ölkələrdən gənclər gəldilər. Onlara bu tarixi şəhərin azad olunmasında misilsiz hünər göstərmiş həmyaşıdları barədə geniş məlumatlar verildi.

Dekabrın 2-də keçirilən islam dünyasının "Gənclər paytaxtı" olan Şuşa şəhərində beynəlxalq proqramı Gənclər və İdman Nazirliyi, İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə reallaşdı. Beynəlxalq proqrama İƏT-ə üzv və müşahidəçi ölkələrin 300-ə yaxın nümayəndəsi, habelə gənclər və könüllülər qatıldılar. Tədbir çərçivəsində Şuşa şəhərində "Şuşa Beynəlxalq Gənclər Festivalı", "Şuşa yaradıcılıq emalatxanası", "İslam dünyası gənc klassik musiqi ifaçılarının Beynəlxalq Festival - Müsabiqəsi", "Yaradıcılıq marafonu", "Oyun texnologiyaları mövzusunda sammit-G-Hub", "SİNA - islam ölkələrinin gənc alimlərinin forumu", "İƏT ölkələrinin Gənclər Təşkilatlarının Forumu" təşkil olunması nəzərdə tutuldu.

Tədbir çərçivəsində Mədəniyyət Nazirliyinin təşkil etdiyi, əsas məqsədi gənclərdə innovativ və yaradıcı yanaşma tərzini formalaşdırmaq olan "Yaradıcılıq marafonu" islam ölkələrindən olan gənc istedadları bir araya gətirdi. Layihə ayrı-ayrı yaradıcı sahələrdə birgə əməkdaşlıq və innovativ məhsulların yaradılmasını təşviq edən platforma rolunu oynadı. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nı rəhbər tutaraq təqdim olundu.

Dörd sahə - animasiya, dəb, film və dizayn marafonunun əsas istiqamətləri olaraq müəyyən edildi. Marafonda təcrübəli mentorların rəhbərliyi ilə beynəlxalq və yerli iştirakçılardan ibarət ümumilikdə 14 komanda 24 saat ərzində öz məhsullarını hazırladılar. Komandalar dekabrın 3-də münsiflər heyətinin qarşısında təqdimatlarla çıxış etdilər. Münsiflər heyətinin qiymətləndirməsindən sonra nəticələr açıqlandı. Qaliblər sırasında animasiya üzrə "Little Simurg", film üzrə "Last night", Dəb üzrə "Gothica" və dizayn üzrə "Millenium" komandaları yer aldılar.



Dekabrın 3-də Şuşa şəhərində İslam Ölkələrinin Gənc Alimlərinin Forumu təşkil olundu. Forum çərçivəsində islam mədəniyyəti və sivilizasiya, davamlı inkişaf, texnoloji yeniliklər və "yaşıl gələcək" naminə, süni intellekt, beşinci sənaye inqilabı, islam elm və təhsilinin əhəmiyyətli rolu mövzusunda müzakirələr keçirildi.

Şuşada islam dünyasının "Gənclər paytaxtı"nın bağlanış mərasimi dekabrın 4-də təşkil olundu. İslam Əməkdaşlıq Təşkilatının Beynəlxalq Proqramına yekun vuruldu. Beləliklə, Şuşa İslam Əməkdaşlıq Təşkilatının "Gənclər paytaxtı" missiyasını uğurla yerinə yetirdi.

İslam dünyasının "Gənclər paytaxtı" çərçivəsində il boyu Şuşada təşkil olunan bütün tədbirlərdə dünyaya vacib mesajlar ötürüldü. Şuşa şəhərinin müxtəlif ölkələrdən gələn gənc qonaqları həmçinin bu qəhrəman şəhər, ümumilikdə zəngin mədəniyyətə, şanlı tarixə malik olan Azərbaycan haqqında geniş məlumatlar əldə edə bildilər.

Qeyd edək ki, islam dünyasının "Gənclər paytaxtı" çərçivəsində keçirilən tədbirlər elm, mədəniyyət, incəsənət və digər sahələrdə yeni əməkdaşlıqların qurulması baxımından da uğurlu oldu.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Əsas vəzifəmiz

## Qarabağ və Şərqi Zəngəzuru dirçəltmək həmin əraziləri işğaldan azad etdiyimiz kimi müqəddəs borcumuzdur

**Bəlkə də 4 il əvvəl torpaqlarımız işğaldan azad ediləndə heç kəs inanmazdı ki, Qarabağda və Şərqi Zəngəzurda qısa müddət ərzində həyat yenidən qaynayacaq, minlərlə soydaşımız büsbütün yenidən qurulan doğma yurda dönəcək. Amma sürətlə aparılan bərpa və quruculuq işləri, icra olunan misli görünməmiş layihələr yuxu kimi görünən bu arzunu reallığa çevirdi və hər kəs əmin oldu ki, Böyük qayıdış proqramı quru kağız parçası yox, gerçəkliyə gedən yolun başlanğıcıdır.**



Bu gün regionda aparılan nəhəng quruculuq işləri bir an belə dayanmır. Prezident İlham Əliyevin imzaladığı sərəncamların icrası çərçivəsində irimiqyaslı tikinti işləri həyata keçirilir, müasir infrastruktur qurulur. Hamı dərk edir ki, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi ölkənin birnömrəli vəzifəsidir. Dövlət başçısı VII çağırış Milli Məclisin ilk iclasındakı nitqində bu barədə demişdir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası hər birimizin önəmli vəzifəsidir. Prezident böyük Zəfərdən sonra görülmüş işlərin miqyasının çox geniş olduğunu qeyd edərək bildirmişdir: "İnfrastruktur layihələri çox geniş miqyas alıb, 3 min kilometr avtomobil yolu inşa edilib. Ümumi layihələrin içində 45 tunel nəzərdə tutulur və bu tunellərin uzunluğu 70 kilometrdir - yəni o dağlarda tunel açmaq, yol salmaq asan məsələ deyil - 450 körpünün inşası nəzərdə tutulur. Dəmir yolları, iki beynəlxalq hava limanı istifadəyə verilmişdir. Enerji potensialı gücləndirilir və üç il ərzində 270 meqavat gücündə su-elektrik stansiyaları istismara verilmişdir və bu proses davam etdirilir. Məktəblər, xəstəxanalar, sosial obyektlər, kəndlər salınır. Bir sözlə, Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır. Bilmirəm, tarixdə buna oxşar bərpa işləri hansısa ölkədə aparılmışdır, ya yox. Ancaq bu fakt bir də onu göstərir ki, bu, bizim üçün həmişə ən vacib məsələ olub, - həm işğal dövründə məcburi köçkünlər üçün yeni qəsəbələr salınırdı və xüsusilə indiki şəraitdə".

Amma görülən işlər təkcə bunlar da deyil. Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları tam gücü ilə fəaliyyətə başlayandan sonra Qarabağın və Şərqi Zəngəzurun iqtisadi mərkəzi olacaqlar. Bu ərazilərdə yeni elektrik stansiyaları tikilir, özü də ekoloji cəhətdən təmiz olan su-elektrik stansiyaları. Başa çatmasına sayılı günlər qalan bu ilin sonuna kimi Qarabağda və Şərqi Zəngəzurda daha 12 stansiyanın istismara verilməsi nəzərdə tutulur. Baxmayaraq ki, regionun sərt, keçilməz iqlim və relyefi var, burada ümumi gücü 226 MVt olan 4 su elektrik stansiyasında elektrik avadanlıqlarının quraşdırılması və sazlama işləri bir gün belə təxirə salınmır.

Bundan başqa, regionda "ağıllı" kəndlər və şəhərlər salınır, bu zaman müasir texnologiyalar tətbiq edilir, yeni infrastruktur qurulur. Bu məqsədlə Azərbaycanın dövlət büdcəsindən ayrılan vəsaitin həcmi də hər il artırılır. Həmin hesaba azad olunmuş ərazilərdə mədəni, tarixi irsimizin bərpası işləri də görülür. İndiyəcən ermənilər tərəfindən dağıdılmış 7 məscid yenidən qurulub, 8 məscidin isə inşası davam edir. Ağdamın Cümə, Qiyaslı və Şuşanın Yuxarı və Aşağı Gövhər ağa, Saatlı məscidləri artıq bərpa olunub. Paralel olaraq, dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin və Bülbülün ev-muzeyləri açılıb, heykəlləri qoyulub. Şuşada "Xarıbülbül" hoteli istifadəyə verilib, yeni mehmanxana və muzey mərkəzi tikilib.

Qısa müddətdə görülən bu işlər deməyə əsas verir ki, regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması vaxtında təmin ediləcək. Buna kimsə şübhə etməsin. Prezident İlham Əliyev verdiyi hansı sözə əməl etməyib?! Üstəlik də regionda icra olunan layihə və proqramlara, çoxyönlü tədbirlərə dövlət başçısı özü rəhbərlik edirsə... Hər səfərində neçə-neçə sosial obyektin təməlini qoyması, açılışını etməsi bölgənin sürətlə dirçəldilməsindən xəbər vermirmi?!

Bu gün Qarabağ və Şərqi Zəngəzur investorlar üçün maraq mərkəzinə çevrilib. Aybaay deyil, günbəgün regiona sərmayə yatırmaq istəyən yerli və xarici iş adamlarının sayı artır. Bu da təsadüfi deyil. Hökumət Qarabağ və Şərqi Zəngəzura investisiya qoymaq istəyən sahibkarlar üçün sərfəli güzəştlər tətbiq edir, onlar üçün münbit şərait yaradır. Qalır bircə sərmayə qoyub iş görmək.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Gəncədə ekoloji mövzuda respublika elmi konfransı keçirilmişdir

**AMEA-nın Gəncə Bölməsində şəhər icra hakimiyyətinin, Elm və Təhsil Nazirliyinin və onun Gəncədə yerləşən Nəbatat bağının təşkilatçılığı ilə "Azərbaycanın Qərb bölgəsinin biomüxtəlifliyi: mövcud yanaşmaların və gələcək imkanların nəzərdən keçirilməsi" mövzusunda "Yaşıl dünya naminə həmrəylik ili"nin COP29-un yekunlarına həsr edilmiş respublika elmi konfransı keçirilmişdir.**

Konfransda Gəncə Şəhər İcra Hakimiyyətinin mədəni irsin qorunması şöbəsinin müdiri Yadigar Bədəlov, AMEA-nın Gəncə Bölməsinin rəhbəri, akademik Fuad Əliyev, Gəncə Nəbatat bağının direktoru Nizami Nağıyev, Bakı və Naxçıvanın elmi-tədqiqat və ali təhsil ocaqlarını təmsil edən alim və tədqiqatçılar iştirak etmişlər.

Tədbirdən əvvəl iştirakçılar Gəncədə fəaliyyət göstərən ekoloji məsələlərlə bağlı olan elmi qurumların nailiyyətlərinə həsr olunan sərgi ilə tanış olmuşlar.

Konfransı giriş sözü ilə akademik Fuad Əliyev açaraq COP29-un Azərbaycanda keçirilməsini ölkəmizin beynəlxalq arenada daha bir uğuru kimi dəyərləndirmiş, alim və tədqiqatçılarımızı müasir dünyanı təhdid edən ekoloji problemlərin həllinə öz töhfələrini verməyə çağırmışdır. ŞİH-in şöbə müdiri Yadigar Bədəlov da Azərbaycanın evsahibliyi etdiyi və uğurla başa çatmış COP29-un əhəmiyyətindən, ekoloqların təbiətin və biomüxtəlifliyin qorunmasına verdikləri töhfələrdən danışmışdır. Çıxış edən alimlər isə istər ölkəmizdə, istərsə də qlobal miqyasda ətraf mühitin tarazlığını pozan, müasir dövrün xüsusiyyətlərindən yaranan həlli vacib ekoloji problemləri diqqətə çatdırmışlar.

6 istiqamət üzrə müxtəlif mövzularla işini davam etdirən konfransda edilən məruzələr ətrafında fikir mübadiləsi aparılmışdır.

***"Azərbaycan"***



# İntensiv moruq bağları salan fermerlərə subsidiya verilməsi davam edəcək

**Aqrar Subsidiya Şurasının qərarına əsasən, yeni təsərrüfat ilində də ölkəmizdə giləmeyvə yetişdiriciliyinə dəstək məqsədilə subsidiyalar veriləcək.**

2025-ci il mayın 31-dək respublikanın istənilən bölgəsində salınmış intensiv moruq bağları üzrə hər hektara görə fermerlər 3200 manat birdəfəlik əkin subsidiyası alacaqlar. Subsidiya hər hektarda ən azı 4700 tingin əkildiyi, damcı sulama sistemi ilə təchiz olunmuş intensiv moruq bağlarına şamil ediləcək. Qeyd olunan şərtlərə uyğun gəlməyən intensiv moruq bağlarına görə isə suvarma sistemindən asılı olaraq iki fərqli subsidiyanın verilməsi nəzərdə tutulub.

Xatırladaq ki, bu dəstək 2024-cü il sentyabrın 1-dən başlayıb.

# Laçında dağ keçisi sürüsü kameralara tuş gəlib

**Əsrarəngiz təbiəti ilə seçilən Laçının həm də zəngin faunа və florası hər fəsildə göz oxşayır.**

Bu günlər Laçında dağ döşündə gəzən bir sürü dağ keçisi insanlar tərəfindən lentə alınıb. AZƏRTAC xəbər verir ki, maraqlı görüntülər Laçının Malıbəy və Cağazur kəndlərinin ərazisindəki dağlarda çəkilib. Dağ ətəyində otlayan bir sürü dağ keçisi daha sonra sıldırım qayalardakı yüksəkliklərə dırmanaraq gözdən itib.



# Özbəkistan Həmkarlar İttifaqları Federasiyasının nümayəndələri Naftalanda olmuşlar

**Naftalana gələn Özbəkistan Həmkarlar İttifaqları Federasiyasının nümayəndələri şəhərdə bir sıra görüşlər keçirmişlər. Görüşlərdə müxtəlif sahələr üzrə inkişaf edən Azərbaycan-Özbəkistan əlaqələrindən danışılmış, əməkdaşlığın genişlənməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin əhəmiyyəti, eləcə də hər iki ölkənin həmkarlar ittifaqları federasiyası arasında münasibətlər müzakirə olunmuşdur.**



Şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov beynəlxalq sağlamlıq mərkəzi olan Naftalanın inkişafının Prezident İlham Əliyev tərəfindən daim diqqət mərkəzində saxlanıldığı, həmçinin şəhərin inkişafı istiqamətində görülən işlər və şəhərin turizm potensialı haqqında qonaqlara ətraflı məlumat vermişdir.

Görüşdə ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəyə çatmasında Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin mühüm rolları xüsusi qeyd edilmişdir.

Sonra Özbəkistan Həmkarlar İttifaqları Federasiyası yanında Sanatoriya-Kurort İdarəsinin rəisi Ənvər Əhmədov çıxış edərək səmimi qarşılandıqları üçün Naftalan şəhər rəhbərliynə minnətdarlıq etmiş, iki qardaş xalqın münasibətlərinin bundan sonra daha da möhkəmlənəcəyinə əminliyini bildirmişdir.

Səfər çərçivəsində qonaqlar Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının şəhərdəki sanatoriya və obyektləri, həmçinin Naftalan nefti ilə tanış olmuşlar.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

# "Şəki teatrını ölkəmizdə keçiriləcək beynəlxalq festivala dəvət etməyi düşünürük"

**"Şəki teatrını əlamətdar yubiley münasibətilə təbrik edirəm. 145 illik fəaliyyət - bu, həqiqətən də çox qürurvericidir. Burada olmağımıza, festivalda iştirak etməyimizə çox sevinirik. Dəvətə və yüksək qonaqpərvərliyə görə şəhər rəhbərliyinə, təşkilatçı qurumlara, teatrın kollektivinə minnətdarlığımızı bildiririk".**

Bu sözləri IV Şəki Beynəlxalq Teatr Festivalının iştirakçısı, Qazaxıstan Respublikasının Şaxmet Kusaynov adına Atınlağı Vilayəti Qazax Musiqili Dram Teatrının direktoru Jaras Kaldarov Şəkidə AZƏRTAC-a müsahibəsində söyləyib.

Azərbaycanda, eləcə də Şəkidə ilk dəfə olduğunu diqqətə çatdıran qonaq deyib: "Biz bu festivalda görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin əsəri əsasında hazırladığımız "Göytürklər" tamaşasını təqdim edirik. Bəxtiyar Vahabzadə təkcə Azərbaycan xalqının deyil, eyni zamanda türk dünyasının böyük oğludur. Bu əsəri tamaşaya qoymağı vaxtilə Qazaxıstanda Türk Akademiyasına rəhbərlik etmiş dostum məsləhət görüb. Çünki bu əsərdə övladlarımıza deyiləsi, çatdırılacaq çox dərin məna var. Bizim əcdadlarımız hələ neçə əsr əvvəl türk xalqlarının bir olmasını arzulayırdılar. Tamaşanın quruluşçu rejissoru Sultan Sraulov məhz bu ideyanı tamaşaçılara yeni baxışda çatdırmaq istəyib. Biz gələcək nəsillərə birliyimizi daima qoruyub saxlamağı tövsiyə etməliyik".

Rəhbərlik etdiyi teatrın hələ gənc olduğunu, gələn il 30 yaşını qeyd edəcəklərini bildirən J.Kaldarov deyib: "Üç ildir ki, teatra rəhbərlik edirəm. Beynəlxalq teatr festivallarına tez-tez dəvət alırıq. Festivalın açılışında Şəki teatrının tamaşasını izlədik, çox xoşumuza gəldi. Gələn il Qazaxıstanda keçiriləcək beynəlxalq teatr festivalına böyük məmnuniyyətlə Şəki teatrını da dəvət etməyi düşünürük".



Şəki şəhərinin gözəlliyinə valeh olduqlarını vurğulayan qonaq artıq Kiş kəndindəki qədim alban məbədini ziyarət etdiklərini, növbəti günlərdə Xan sarayına və Bəxtiyar Vahabzadənin ev-muzeyinə də baş çəkəcəklərini bildirib.

**● İlə yekun vurulur**

# Taxıl, kartof, üzüm, bal

## Bu il də Tovuz kəndlisinin təknəsi boş qalmadı

**İl başa çatır. Belə bir vaxtda Tovuzda da hər bir təsərrüfat sahibi, fermer il boyu gördüyü işləri nəzərdən keçirir, xərcini, qazancını hesablayır, qarşıda duran vəzifələri müəyyənləşdirir. Vəzifələrsə az deyil. Çalışıb yaradılan şəraitdən, olunan güzəştlərdən maksimum istifadə edib daha çox məhsul istehsal etmək lazımdır ki, bu çətin zamanda idxaldan asılılığımız minimuma ensin.**

Bütün kənd rayonları kimi, Tovuzun iqtisadiyyatında da əkinçilik və heyvandarlıq aparıcı rol oynayır. Kartofçuluq, taxılçılıq, üzümçülük, baramaçılıq Tovuz əkinçisinin qazanc yeridir. Rayonun fermerləri və torpaq sahibləri bu mövsüm 14 min 137 hektarda taxıl əkmişlər. Onun 11 min 900 hektarı buğda, 2235 hektarı arpa idi. Aqrotexniki tədbirlərin vaxtında və lazım olan səviyyədə həyata keçirilməsi nəticəsində taxılçılar əvvəlki ildəkindən çox - hər hektardan 33,3 sentner buğda, 33,2 sentner arpa götürdülər.

Tovuz kartofu da alıcı sarıdan korluq çəkmir. Mətbəximizdən əskik olmayan bu ərzaq məhsulunun istehsalında fərqlənən rayon fermerləri cari ildə də istehsalı artırmışlar. Onlar əkin sahələrini 5496 hektara çatdırmaqla yanaşı, məhsuldarlığı da yüksəltmişlər. Hətta rayonda elə təsərrüfatlar oldu ki, kartof istehsalına görə respublikanın bu sahə üzrə orta göstəricisini ötüb keçmişlər. Uzun illərdir kartofçuluqla məşğul olan ikinci dərəcəli "Əmək" ordenli Ədalət Məhərrəmov öhdəsində olan 33,37 hektar əkin sahəsindən 65 ton məhsul götürmüşdür. Onu da qeyd edək ki, təsərrüfatda istehsal olunan kartofun çox hissəsi, əsasən, toxumçuluq üçün nəzərdə tutulur. Təsərrüfat sahibi deyir ki, gələn il təsərrüfatları yüksək kondisiyalı toxumla təmin etmək üçün böyük imkanlar yaranmışdır.

İqtisadi cəhətdən gəlirli olan üzümçülük Tovuz üçün yeni sahə deyil. Bununla belə, üzümçülüyün inkişafı ilə bağlı dövlət proqramı qəbul edildikdən sonra bu sahəyə maraq daha da artmışdır. Proqramın icrası istiqamətində rayonda çoxsaylı tədbir həyata keçirilmiş və nəticədə üzüm plantasiyaları genişləndirilərək 1150 hektara çatmışdır. Bu sahələrin 1070 hektarı barverəndir. Cari mövsüm həmin bağların hər hektardan 284 sentner olmaqla 8000 tona yaxın məhsul toplanmışdır.

Aşağı Quşçu kəndinin sakini İsmayıl Hüseynov hər il üzüm bağlarının sahəsini genişləndirir. Hazırda onun 5 hektar üzüm bağı var. İ.Hüseynov, əsasən, "Moldova" və "Mişel" üzüm sortlarına üstünlük verir. Onu da qeyd edək ki, təsərrüfatda 20 nəfər daimi işlə təmin edilib.

Rayonda heyvandarlığın inkişafına xüsusi diqqət verilir. Səbəbi məlumdur - bu gün ölkədə heyvandarlıq məhsullarına tələbat artdığından istehsal onu qarşılamalıdır. Hazırda Tovuzda 164 min baş qoyun və keçi, 41 min baş qaramal var. Qaramalın 42,6 faizi inəklərdir. Deməli, rayon üzrə süd istehsalında problem yoxdur. Yeri gəlmişkən, qeyd edək ki, rayonun ən böyük kəndlərindən olan Bozalqanlıda süd zavodu fəaliyyət göstərir. Zavod sutka ərzində 300 litrə yaxın süd qəbul edir. Ondan qatıq və yağ istehsal olunur.

Başqa bir gəlirli sahə tütünçülükdür. Artıq 4 ilə yaxındır ki, rayonda tütünçülüklə "Tovuz Aqro Sənaye" MMC məşğul olur. MMC hər il 20 hektarda tütün yetişdirir. Aqrotexniki tədbirləri vaxtında yerinə yetirən 250 nəfərlik kollektiv hər il nəzərdə tutulan qədər məhsul istehsal edir.



Bu sözləri baramaçılığa da aid etmək olar. Hazırda Tovuzun elə bir kəndi yoxdur ki, orada barama saxlanılmasın. Bu gəlirli sahənin inkişafına dövlətin verdiyi maddi dəstək hesabına Tovuz kümçüləri cari il qəbul məntəqəsinə 7 ton yaş barama təhvil vermişlər. Həmin kümçülərdən biri Xılxına kəndinin sakini Bakir Seyidovdur. O, rayonda ən çox ipəkqurdu götürüb saxlayan kümçülərdəndir. Keçən il 3 qutu ipəkqurdu bəsləyərək 120 kiloqram yaş barama təhvil verən Bakir bu il də həmin göstəricini təkrar etmişdir. Onun həmkarlarından olan Muğanlı kəndinin sakini Novruz Musayevin və Aşağı Göyçəli kəndinin sakini Şəfayət Bağırovun da adları kümçülər arasında hörmətlə çəkilir.

Deyirlər, Tovuz balının tamı fərqlidir. Yəqin ki, bu, rayonun aran və dağlıq ərazilərdə yerləşməsi ilə bağlıdır. Hazırda rayonda 13438 arı ailəsi var. Hər arı ailəsindən mövsüm ərzində 12-15 kiloqrama qədər bal götürülür. Ümumiyyətlə, Tovuzda arıçılığa maraq ildən-ilə artır. Elə peşəkar arıçılar var ki, 100-dən artıq arı ailəsinə qulluq edir. Məsələn, Xəyal Qarayev 150-yə yaxın arı ailəsinə baxır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# "Laçın dəhlizi"ni bağladı, Xankəndiyə zəfər bayrağı sancdı...

## Və 26 yaşında Vətən Müharibəsi Qəhrəmanı adı aldı - Ramazan Hudulov

**Zəfər fədailəri**

**Qarşımızda Vətən Müharibəsi Qəhrəmanıdır...**

**Laçın dəhlizini bağlayıb Şuşaya zəfər yolunu açan igid Azərbaycan oğlu...**

**Biz tarix boyu var olan igidlərimizin sadəcə adlarını eşitmiş, barələrində kitablardan, filmlərdən öyrənmişik...**

**Cəsurluqları ilə öyündüyümüz, fəxr duyduğumuz Milli qəhrəmanlarımızın çoxunu şəhadətlərindən sonra tanımışıq...**

**Amma o bizim canlı qəhrəmanımızdır...**

**Vətən müharibəsi başlayanda cəmi 26 yaşı vardı, ancaq döyüşlərdə göstərdiyi hünərlə, Şuşa Zəfərini qazanmağımıza birbaşa təkan verən misilsiz şücaəti ilə özünə əbədiyaşar həyat qazandı...**

**29 yaşındaykən Xankəndi qələbəsində böyük rol oynadı...**

**Vətən müharibəsinə Xocavənd istiqamətində bölük komandiri kimi atılan vətənpərvər gənc 44 günün sonunda Şuşaya tabor komandiri, Vətən Müharibəsi Qəhrəmanı - Zəfər döyüşçüsü kimi ayaq basdı. Azadlığından sonra da məhz Qarabağın ürəyi Şuşanı qorumaq ona tapşırıldı...**

**Xankəndidə separatçı quldurların yuvasının dağıdılmasında birbaşa iştirak etdi...**

**2020-ci il noyabrın 26-da "Vətən Müharibəsi Qəhrəmanı" adı təsis ediləndə cəsurluğuna görə həmin uca ada ilk layiq görülən qəhrəmanlarımızdan biri də Ramazan Hudulov oldu.**



### O necə qəhrəman oldu...

Vətən Müharibəsi Qəhrəmanı kapitan Ramazan Hudulovdur "Zəfər fədailəri" rubrikamızın qonağı. Ramazan Hudulovu Azərbaycanda demək olar ki, hər kəs tanıyır, haqqında yazılan yazıları oxuyub, videoçəkilişlərdən izləyib. Amma elə Vətən Müharibəsi Qəhrəmanı adının təsis olunduğu gün ərəfəsində əfsanəvi qəhrəmanımız Ramazan Hudulovla şəxsən görüşmək, Vətən müharibəsində, antiterror tədbirlərində göstərdiyi şücaətlər haqqında özündən eşitmək də bir başqa qürurverici tarixi andır...

"Azərbaycan" qəzetinin redaksiyasında qonağımız olan şanlı qəhrəmanımıza ünvanladığımız sualların bir çoxu bəlkə də Ramazan Hudulova adi, sadə görünə bilərdi, amma bizə - yəni xalqımıza da hər zaman maraqlı olub ki, mayaları vətənpərvərliklə yoğrulan bu oğullar necə bir ailədə böyüyür, hansı mühitdə yetişirlər? Bu igidlər hansı xarakterə malik olurlar, onların özlərinin qəhrəmanları kimlərdir?

Ramazan İzzət oğlu Hudulov 1994-cü il noyabrın 24-də Balakən rayonunun Qaysa kəndində avar ailəsində anadan olub. Məhəmməd Hudulov adına Meşəşambul kənd tam orta məktəbinin məzunudur. O, 2012-2016-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə taqım komandiri vəzifəsində xidmətə başlayıb, Xocavənd istiqamətində bölük komandiri, Füzuli cinahında tabor komandirinin müavini, Şuşa istiqamətində tabor komandiri vəzifəsində döyüşlərdə iştirak edib. Vətən Müharibəsi Qəhrəmanı "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Ramazan Hudulov hazırda Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun II kursunda oxuyur.



- Zəhmətkeş bir ailənin övladıyam, anam Mehriban evdar qadın, atam İzzət isə təsərrüfatçıdır. Bir bacı, üç qardaşıq. Valideynlərim hər zaman dərslərimə nəzarət edirdi ki, yaxşı oxuyum, gələcəkdə - hüquqşünas, həkim, müəllim, mühəndis, yaxud hansısa digər peşənin sahibi olum.

Amma mənim istəyim tamamilə ayrı yönə, hərbçiliyə idi. Çünki uşaq yaşlarımdan ölkəmizdə baş verən faciəvi hadisələrə şahidlik etməyim sanki daxilən məni bu sahəyə yönəldir, düşməndən qisas almağa istiqamətləndirirdi. İstər 20 Yanvar hadisələri, Xocalı soyqırımı, istər də digər faciələr olsun, yaddaşımda dəhşətli iz buraxmışdı. Düşünürdüm ki, qisasımızı düşməndən almalı, qürurumuzu qaldırmalıyıq. Orta məktəbdə dərslərimi çox yaxşı oxuyurdum, xüsusilə də texniki fənləri. Yəni buraxılış zamanı sənədlərimi istənilən ali məktəbə verib qəbul ola bilərdim, ancaq Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini seçdim.

### Vətən uğrunda "İrəli"

- Xaraktercə təmkinli olmuşam. Az danışmağı xoşlayıram. Demək olar ki, yeniyetməlik dövrümdən yaşımdan böyük düşünmüşəm. Ətrafımda olan dostlarım da, adətən, özümdən yaşca böyüklər olub. Çalışmışam həyatda hansısa mövqeyim olsun.

Hər zaman düşünmüşəm ki, insan bu həyatda qarşısına nəyi məqsəd qoysa, mütləq ona çatır. Sadəcə özü buna inanmalıdır. Mənim də hər zaman özümə inamım çox böyük olub.



Uşaq yaşlarımdan hansısa kinoya baxanda, yaxud əsər oxuyanda özümü oradakı baş roldakı adama bənzətmək istəyirdim, hansısa konkret qəhrəmana yox. Eyni zamanda düşmənin xeyli sayda qüvvəsini təkbaşına məhv edərək Ermənistanda matəm elan olunmasının səbəbkarı Milli Qəhrəman Mübariz İbrahimovu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Həzi Aslanovu, Birinci Qarabağ müharibəsində döyüşmüş qorxmaz igidlərimizi gözlərimin qabağına gətirib deyirdim ki, mən də onlar kimi olmalıyam.

2020-ci ildə düşmən Tovuz istiqamətində təxribatlara əl atdı. Tovuz döyüşləri zamanı generalımız Polad Həşimovun şəhid olması bütün əsgər və zabit heyətimizin dərin sarsıntısına səbəb oldu. İçimizdə düşmənə qarşı intiqam hissi o qədər artmışdı ki, Allaha yalvarırdıq Ali Baş Komandan bizə "İrəli!" komandası versin, gedib şəhidlərimizin qisasını alaq.

O zaman Xocavənddə düşmənlə üzbəüz mövqedə xidmətdə idim. Onu da deyim ki, xidmət etdiyim ərazidə dəfələrlə düşmənin kəşfiyyat diversiya qruplarının təxribatlarının qarşısını almışdıq. Onlara ağır itkilər vermişdik. Həmin bölgədə düşmən artıq bilirdi ki, buradakı komandirlə, necə deyərlər, "zarafat" etmək olmaz. Çünki onlar hər hansı təxribata yönəlik iş görəndə ona qarşı onqat artıq adekvat tədbir görürdüm. Sonra isə təbii ki, aidiyyəti üzrə məlumat verirdim.



2020-ci il sentyabrın 27-si səhər saat 6:15 idi. Hər tərəfdə sakitçilik hökm sürürdü. Birdən müşahidədə olan əsgər dedi ki, komandir, öz tərəfimizdən bizə sarı təyyarə gəlir. Ön xəttin sonuncu hissəsində yerləşirdik və bizdən o yana ermənilər idi deyə, bu, mənə çox qəribə gəldi. Müşahidə məntəqəsindən baxdım ki, An-72 təyyarələrimiz bizim tərəfə gəlir. Onlar neytral zonanı keçən kimi müharibənin başladığını anladım və dərhal əsgərlərimə döyüşə hazırlıq əmri verdim. Hamı hazırlaşdı, döyüş paltarlarını geyindi, silahlandı...

An-72-lərimiz neytral bölgəni keçən kimi düşmənin hava hücumundan müdafiə sistemləri tərəfindən vuruldu. Əvvəlcə elə bildim ki, əməliyyat uğursuz alındı. Ancaq bu an baxdım ki, "Bayraktar" düşmənin hava hücumundan müdafiə sistemini aşkarlayıb məhv etdi.

Oktyabrın 17-dək Xocavənddə müdafiə tapşırığını yerinə yetirdik. Digər bölmələrimiz isə başqa istiqamətlərdən hücum əməliyyatına başlamışdılar. Əgər düşmən bizim müdafiə xəttimizi yarıb irəliləsəydi, digər bölmələrimizin arxasına keçib mühasirəyə salardı. Həmin müddətdə düşmən həm gecə, həm də gündüz bir neçə dəfə mövqeyimizə hücum elədi. Onların qarşısını qətiyyətlə alıb zərbələr endirdik və hücumlarını dayandırdıq. Ermənilər hücum etdikcə böyük itki verdiklərinə və bir metr belə irəli gedə bilmədiklərinə görə dayandılar və daha hücum etmədilər.

Cəbhənin Xocavənd istiqamətində göstərdiyimiz nailiyyətləri nəzərə alaraq məni bölük komandirliyindən tabor komandirinin müavini vəzifəsinə yüksəltdilər. Hücum istiqamətində olan taborla Füzuli istiqamətində əməliyyatlara başladıq. Tezliklə Dövlətyarlı kəndinin qarşısında düşməndən müəyyən mövqeləri azad etdik. Orada müdafiə tapşırığını yerinə yetirdik. Həmin günlərin birində günorta vaxtı idi, hamımız nahar edirdik. Düşmən də minaatanla olduğumuz yerə atəş açırdı. Deyim ki, müharibənin ilk zamanlarında mərmi, güllə yağışının altına birdən-birə düşəndə insanda vahimə yaranır. Amma müəyyən müddətdən sonra sanki şəraitə öyrəşirsən. Məndən 200 metr qarşıya, sağ-sola mərmilər düşürdü. Birdən arxa tərəfdən iki metrlik məsafəmə düşüb partlayan bir mərmi məni haradasa 3 metr qabağa tulladı. Gözüm qaraldı. Elə bildim hər şey bitdi, daha bu, mənim üçün sondur. Bircə onu düşündüm ki, axı döyüşlərdə hələ heç nə etməmişəm, ölmək tezdir... Bir-iki dəqiqədən sonra gözümə işıq gəldi. Gördüm ki, həyatdayam, hələ ölüm növbəsi mənə çatmayıb...

Həmin vaxt 5 qəlpə yarası almışdım. Döyüşlər zamanı bütün əsgər və zabit heyətinin yalnız bir fikri var idi: nə olursa-olsun, yalnız irəli getmək. Həmin həvəs, eyni zamanda əsgərlərimin yanında olmaq istəyi ilə mən xəstəxanaya getməkdən imtina etdim və yenidən döyüşdə iştirak etməyə başladım. Füzuli istiqamətində verilmiş tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirildikdən sonra taborumuz Şuşa istiqamətində irəliləməyə başladı.

### "Ramazan, atılan güllənin üstünə getsən belə sənə heç nə olmayacaq"

- Xocalının Sığnaq kəndinə qədər məsafəni əvvəlcə texnikalarla, sonra isə piyada irəlilədik. Dağ, dərə və sıx meşəliklərlə 20 kilometrə qədər yolu piyada qət etdikdən sonra noyabrın 4-də Daşaltı kəndinə yaxın yerdə qərarlaşdıq. Həmin ərəfədə - Daşaltı istiqamətində fəaliyyətə başlayanda ərazi kəşfiyyatına çıxıb tapşırıqları dəqiqləşdirən zaman tabor komandirimiz minaatan atəşi nəticəsində qolundan qəlpə yarası aldı. O, hospitala təxliyə olunandan sonra tabor komandirinin vəzifələrini icra etməyə başladım, məsuliyyətim ikiqat artdı. Düşmən Daşaltıdakı bütün yüksəkliklərdə möhkəmlənmişdi. Noyabrın 5-i səhər saat 6-da hücuma başladıq. İlk olaraq, plana əsasən, dövrələmə üsulu ilə Daşaltı ətrafındakı bütün yüksəklikləri ələ keçirdik. Bircə Şuşa istiqamətində olan qayalıqlardakı yüksəkliklər qalmışdı.

Azad etdiyimiz yüksəkliklərdə öz şəxsi heyətimizi yerləşdirirdik ki, düşmənin hər hansı müdaxiləsi olarsa, oranı qoruyub saxlasınlar, eyni zamanda bizim təhlükəsizliyimizi təmin etsinlər.

Noyabrın 5-i axşamüstü komanda verildi ki, Daşaltının içində olan qüvvələri məhv etmək üçün ora girmək lazımdır. Özümlə 27 nəfər götürüb həmin istiqamətdə irəliləməyə başladım. Hava dumanlı idi, hətta ayağının altını belə görə bilmirdin, sadəcə hiss edirdin ki, torpaq, yoxsa otun üzəri ilə irəliləyirsən. Birbaşa kəndin içərisinə gedən cığırla 150 metrlik məsafəsi olan kolon şəklində hərəkət edirdik. Qrupun başında da mən gedirdim. Yolun ortasına çatanda partlayış səsi gəldi, arxamdakı əsgərin "komandir, vuruldum" sözlərini eşitdim, hamını saxladım. Elə bu an yenə partlayış səsi eşidildi və məndən arxada olan 4-cü əsgər də yıxıldı.

İlk saniyələrdə zənn etdik ki, düşmən bizi hər iki tərəfdən pusquya salıb qumbaraatanla atəş açır, çünki partlayış zamanı alov gördüm. Amma ikinci partlayışdan sonra anladım ki, minalanmış sahəyə düşmüşük. Komanda verdim ki, bütün əsgər heyəti dayansın və yerindən tərpənməsin. Amma uzun kolonla hərəkət etdiyimiz üçün arxadakı şəxsi heyət səsimi yaxşı eşitmədi. Partlayış səsindən sonra özlərini bir anlıq itirib arxaya atanda yenidən sürpriz minaya (piyada əleyhinə minanın altına tank əleyhinə mina quraşdırılmışdır) düşdülər. Bu partlayışın dalğası ən öndə olsam belə, məni də 5 metr qabağa atmışdı və birtərəfli dirsəyimlə dizimin üstündə yerə düşmüşdüm. Yaxşı ki də belə olmuşdu. Baxdım ki, əlimin düşdüyü yerin hər iki tərəfində mina basdırılıb.

Onsuz da bu hadisəyə qədər dəfələrlə yaralansam belə, irəliyə gedirdim, dayanmaq fikrim yox idi. Gözümdə ölüm qorxusu da yox idi. Amma artıq orada dərk etdim və öz-özümə dedim ki, Ramazan, atılan güllənin üstünə getsən belə, sənə heç nə olmayacaq. Buna görə nə bacarırsansa, et!

Mina partlayışları zamanı 5 nəfərimiz şəhid oldu, 18 nəfər yaralandı. Yerdə qalan şəxsi heyətin hamısı partlayış səsindən qulağından, başından travma almışdı. Mə-



nim isə bir yerim də qanamamışdı, amma sol qulağım müharibədən iki ay sonraya qədər də eşitmədi. Həmin zamana qədər heç vaxt real mina zərərsizləşdirməmişdim. Baxdım ki, minaların üstü yumşaq torpaqla örtülüb və üzərinə basmadıqca partlamayacaq. Yerdəki xəzəlləri aralamağa başladım və 50 santimetr enində arxaya doğru cığır açıb yaralıların yanına qayıtdım. Minaları bir-bir tapıb üstünün torpağını təmizləyir, yanına çubuq basdırıb bir dənə də alışqan qoyurdum ki, qayıdanda bu yeri tanıyım. Minaya düşməyən digər əsgərlər isə tərpənmədən yerlərində gözləyirdilər ki, onları da qurtarım. İstiqaməti belə müəyyən etməyin çətin olduğu o dumanda, o qaranlıqda ilk olaraq yaralıları bir-bir qırağa çıxarıb yaralarını sarıdım. Sonra ayaq üstdə qalan əsgərləri də təhlükədən çıxardım.

Şəxsi heyətdən cəmi 6 nəfər nisbətən ayaq üstdə qalmışdı. Onların da ya birinin bir gözü görmürdü, ya qolundan, ya da ayağından yaralıydı. Onlarla birlikdə növbələşə-növbələşə səhər saat 7-yə işləmişə qədər yaralıları iki dağdan aşıraraq arxaya daşıdıq və təxliyə olundular. Şükür Allaha ki, yaralı olan bütün şəxsi heyətimiz xilas oldu. Hazırda da hamısı yaşayır.

### Laçın yolunu azad etmək üçün Tehran Mənsimov mənə əlavə qüvvə göndərdi

- Sonra tapşırıq verildi ki, Şuşanın alınması üçün Laçından gələn yol tutulmalı, düşmənin təminatı dayandırılmalıdır. Deyim ki, biz bu istiqamətə üç taborla hücuma başlamışdıq. Polkovnik Tehran Mənsimov da sağımdakı tabora rəhbərlik edirdi, onlar Daşaltının içi ilə hərəkət edirdilər. Düşmən yüksəkliklərdə yerləşmişdi, bütün qüvvələrini ora yönəltmişdi. Gördüm ki, Daşaltının içərisi ilə irəliləmək mümkünsüzdür. Buna görə də yanımdakı 13 nəfər şəxsi heyətlə birlikdə Daşaltının içərisinə girmədik və soldakı yüksəkliklərlə, qayalıqlarla yuxarıya doğru hərəkət etməyə başladıq. Dəhlizlə aramda 200-



300 metr məsafə olanda gördüm ki, düşmənin xeyli canlı qüvvəsi və hərbi texnikası yolda cəmləşib. Hərbi hissə komandiri ilə əlaqəyə çıxdım ki, 13 nəfər şəxsi heyət hücum üçün kifayət etmir, mənə əlavə qüvvə lazımdır. Bundan sonra Tehran Mənsimov mənimlə əlaqəyə çıxdı ki, Ramazan, yerini görürəm, orada gözlə, sənə əlavə şəxsi heyət göndərirəm. Bir saatdan sonra həmin şəxsi heyət gəlib bizə yetişdi. Onları 3 qrupa bölüb əməliyyata başladım.

Yolun Laçın tərəfdən Şuşaya gələn istiqamətini bağladıq və buradakı düşmən qüvvələrini məhv etdik. Eyni zamanda ermənilərin Daşaltını mühasirədə saxlayan qüvvələrini arxa tərəfdən mühasirəyə aldıq. Xeyli sayda texnikası, tankı var idi, hamısını zərərsizləşdirdik. Onlar canlı qüvvə sarıdan da ağır itki verərək qaçmağa başladılar. Biz isə sadəcə yüngül silahlarla silahlanmışdıq.

Beləliklə, həmin əməliyyat uğurla başa çatdı: Laçın yolu bağlandı, düşmənin təminatı kəsildi.

Elə bu uğurlu əməliyyatıma görə Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüm.

Ancaq onu deməliyəm ki, şəxsən mənim üçün ən böyük qəhrəman cənab Ali Baş Komandanımız İlham Əliyevin özüdür! Məhz müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Qarabağda şanlı zəfər qazanaraq, yenilməz ordu kimi adını silinməz hərflərlə hərb tariximizə yazdırdı.

Laçın yolunu azad edən zaman Xüsusi Təyinatlı Qüvvələrin bir neçə bölüyü Xankəndi tərəfdən düşmən arxasında dövrələmə edərək Şuşaətrafı mövqeləri, əsas yüksəklikləri ələ keçirmişdi.

Noyabrın 7-də Şuşaya hücum etdik. Əvvəlcə şəhərə xüsusi təyinatlılar girdilər və tez bir zamanda Şuşanı düşməndən təmizlədilər. Sonra biz də şəhərə daxil olub mövqe qurduq. Düşmən üç dəfə 500 nəfərlik qüvvə ilə əks-həmlə etdi, lakin hər dəfə ağır məğlubiyyətə uğradı.

Demək olar ki, onların heç bir qüvvəsi qalmadı, bütün şəxsi heyəti tələfata uğradı, texnikası məhv oldu. Bununla da düşmən başa düşdü ki, təzədən bu şəhəri ələ keçirmək mümkün deyil və hücumdan əl çəkdi. Noyabrın 8-də isə Şuşa tamamilə azad idi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bütün uğurlu əməliyyatlar düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdi.



Biz Şuşanı uşaq yaşlarımızdan yalnız fotolardan, televiziyadan görmüşdük. Amma bu şəhəri ilk dəfə görəndə insanı elə bir hiss bürüyür ki, indi onu izah etmək mümkün deyil. Şuşanın azadlığında iştirak etdiyim üçün nə qədər qürurluydumsa, onun müdafiəsini, təhlükəsizliyinin təminini də mənə həvalə etdikləri üçün o qədər fərəhlənirdim və özümü xoşbəxt hiss edirdim. Eyni zamanda Şuşanın müdafiəsi kimi məsuliyyətli işin öhdəsindən gəlmək, sözün əsl mənasında, vəzifəmin on qat ağırlığı demək idi. Düşünürəm ki, iki ildə - 2020-2022-ci illər ərzində bu çətin və şərəfli vəzifənin də öhdəsindən layiqincə gələ bildim.

### Zəfərin Xankəndi missiyası

- 2023-cü il sentyabrın əvvəllərində mən və bir neçə hərbçi yoldaşım akademiyaya oxumağa getməli idik, artıq bununla bağlı telefoqramma gəlmişdi. Ancaq həmin vaxt antiterror tədbirlərinin aparılacağını bildim və gedib korpus komandiri cənab Mayis Bərxudarova dedim ki, cənab general, Vətən müharibəsində iştirak etmişəm, istəyirəm Zəfərin nöqtəsini qoyaq, sonra akademiyaya gedim. Beləliklə, antiterror tədbirlərində də iştirak etdim. Antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının bütövlüyünü, suverenliyini tam təmin etdik.

Mənim də Xocavənddən başlayıb, Şuşaya, Xankəndiyə uzanan hərb yolum parlaq zəfərlə yekunlaşdı.



Bu müharibədə Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri cəsurluqla döyüşdülər, ana torpağı düşməndən azad etdilər. 2021-ci il aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qarşısında çıxış etmək şərəfinə nəsib oldum.

Nitqimdə söylədim: "Mən avar xalqının nümayəndəsiyəm. Mən Azərbaycan vətəndaşıyam. Bizim bir adımız var, biz azərbaycanlıyıq! Azərbaycanlı olmağımızla hər birimiz həmişə fəxr etmişik, bu gün də fəxr edirik".

Bu Zəfərə yetənə qədər acımız da oldu, şəhidlər də verdik, qazilərimiz də oldu və bütün bunlara görə ürəyimizin bir yanında hər zaman kədər var. Kaş ki bu itkiləri, kədəri yaşamayaydıq, amma müharibə itkisiz olmur. Bugünkü gündə Qarabağımızın azadlığı, qürurumuzun bərpası təsəllimizdir və ağrı-acılarımızın üzərinə məlhəm çəkir. Xoşbəxtəm ki, məhz bu dövrdə yaşadım və həm Vətən müharibəsində, həm antiterror tədbirlərində qazandığımız qələbələrdə zərrə də olsa, payım oldu".



*Bəli, Azərbaycan bu gün məhz Ramazan kimi oğulların sayəsində Qarabağına qovuşub, bütövdür. Azərbaycanlılar bu gün məhz Ramazan kimi igidlərin misilsiz xidmətləri sayəsində dünyada alnıaçıq, başıdik, qürurla gəzirlər.*

*Və Ramazan kimi qürur duyduğumuz oğullar var olduqca, Vətən, Azərbaycan da əbədi var olacaq.*

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 4 may (Bazar günü) tarixli 171-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 3 şabanül-müəzzəm sənə 1337.
4 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## FƏHLƏ KONFRANSİYASI HEYƏTİ-RƏYASƏTİ

Bakı və dairəsi fəhlə konfransı iclası mayıs ayının 4-də saat 10-da təyin olunubdur. Hamı yoldaşların gəlmələri rica olunur.

*T-123*

## ELAN

Bakı Şəhər İdarəsi bununla elan edir ki, mayıs ayının 4-də saat 12-də Təsərrüfat şöbəsi dəftərxanasında şəhər afişa sütunları və afişa yapışdırılmasını icarəyə verməkdən ötrü torq [tender] təyin olunubdur. Şəraiti [şərtləri] yuxarıda zikr olunan şöbə dəftərxanasında oxumaq olar.

*T-117*

## LEYLİ VƏ MƏCNUN

**Hökumət Teatrosunda axşam tamaşası**

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşları Müdiriyyəti Yekşənbə günü şabanül-müəzzəm ayının 3-də 1337-ci sənə (mayın 4-də 1919-cu ildə) bu mövsümdə axırıncı dəfə olaraq mövqeyi-tamaşaya qoyulacaqdır
**"Leyli və Məcnun"** operası.
Leyli – Ağdamski
Məcnun – Sarabski
Biletlər teatrın kassasında satılmaqdadır.
Tamaşa başlanacaq axşam saat 8-in yarısında.

*T-122*

## BEYNƏLMİLƏL İCTİMAİ MƏCMƏ [YIĞINCAQ]

Həmin aprel ayının 15-dən açılmışdır. Olqinski küçə, nömrə 5 (Kafe Parisin üstündə). İctima [yığıncaq] gündüz saat 12-dən və axşam isə saat 9-dan açılır. Rumınski orkestr məşhur skripkaçı N. Angeleskonun təhti-nəzarətində [rəhbərliyi altında] çalınır. Daxil olmaq ancaq üzvlərin müərrifliyi [tanışlığı, aşnalığı] ilə ola bilər.

*8747*

## DAĞISTAN VƏ BİZ

Bu bir-iki gün ərzində Dağıstandan gələn xəbərlər Dağıstan Hökuməti əhvalını o qədər qatqarışıq bir halda təsvir edir ki, insan çaşıb qalır. Bir tərəfdən İngilis Komandanlığının əmri ki, dağıstanlılar Denikin və Prjevalski ordularına qarşı düşmənanə hərəkətlərdən əl çəksinlər, Prjevalskinin qoşunu Petrovsku [Mahaçqalanı] işğal etsin. Demək, bütün Terski oblast Denikin hökmü altında qalsın. Digər tərəfdən xəbər var ki, dağıstanlılar ittifaq edərək Denikin ordusuna Narzan yanında böyük bir həzimət yetirdib [məğlubiyyətə uğradıb], Qroznını təkrar geri alıbdırlar. Bu tərəfdən dəxi bir şayiə dövran edir ki, Dağıstan Hökuməti məqərri [paytaxtı] olan Teymurxanşura şəhərində inqilab əmələ gəlib, bolşeviklik hərəkatı müşahidə edilməkdədir. Əlavə görüşüb tanışdığımız dağıstanlı qardaşlarımızdan bir çoxunun söhbətindən anlaşılır ki, Dağıstan Hökumət əzaları [üzvləri] və Parlaman məbusları arasında dəxi lüzumu dərəcədə saziş və söz birliyi yox. Əhalidən dəxi bir para qisminin hökumət və Parlamandan şikayətçi olduqları məsbutdur [sübut edilmişdir].

Həmhüdud Dağıstanla aramızda olan dini və siyasi rabitə bizi bu işlərdən baş açmağa və həqiqəti-halı müsbət [qəti, dəlilli-sübutlu] bir surətdə təyin etməyə vadar edir. Madam ki, biz Dağıstana kömək etməyi özümüz üçün böyük və vacib bir vəzifəədd [hesab] edirik ki, filvaqe [doğrudan da] böyük vəzifələrimizdən biri budur, pul yığırıq, könüllü dəstələri təşkil edirik, o halda kömək edəcəyimiz yerin həqiqəti-halından bixəbər qala bilmərik.

Bunun üçün bizə lazım və vacibdir ki, əvvəla Dağıstan haqqında və Dağıstan istiqlalını mühafizə və müdafiə xüsusunda ingilis baş komandanının rəy və mülahizəsini bilək, Dağıstandan ötrü böyük bir mədaxil mənbəyi olan və onsuz Dağıstanın müstəqil bir hökumət şəklində yaşaması həman mümkün olmayan Tersk oblastını və dəniz qapısı Petrovsk şəhərini Denikin əlinə verməkdə ingilislərin məqsudu [məqsədi] nə olduğunu aşkar edək.

İkinci olaraq, bizə borcdur ki, Dağıstan əhvalından doğru bir xəbər bilmək üçün yalnız bir rəsmi mənbələr xəbərlərilə iktifa [kifayət] etməyib, Dağıstana xüsusi bir komisyon göndərək ki, hər işi öz məhəllində [yerində] tədqiq və təhqiq edib, bizi əhvaldan vaqif etsinlər. Bu xüsusda, nə qədər tez davransaq, bir o qədər yaxşı olar.

*Ü. Hacıbəyli*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 24 nisan [aprel] iclası

*(Keçən nömrənin axırı)*

**Sədr** - Söz Rüstəmbəyli Şəfi bəyindir.

**Şəfi bəy** - Burada bazara 510 milyon manat pul buraxmaq kimi mühüm bir məsələ müzakirə olunur. Burası o qədər böyük bir məsələdir ki, onu böylə səthi keçmək olmaz. Bizim zənnimizcə, lazım idi ki, Maliyyə naziri, yainki Nəzarətin bir nümayəndəsi burada olub Məclisi-Məbusana ətraflı məlumat və izahat verəydi, ancaq ondan sonra biz bu məsələnin müzakirəsinə keçə bilərdik. Ona görə mən təklif edərdim ki, bu layiheyi-qanuniyyənin [qanun layihəsinin] müzaki-rəsi təxirə salınsın və Maliyyə naziri Məclisi-Məbusana, ümumiyyətlə əhvali-maliyyəmiz və maliyyə siyasətimiz haqqında müfəssəl məlumat versin. Öylə olsa, əhali də bilər ki, pul nə üçün, nə surətlə və nə qədər buraxılır. Mən yenə təklif edirəm, məsələ təxirə salınaraq gələn iclasda müzakirə edək, nazir də bəyanat versin.

**Sədr** - Məbuslardan rica edirəm, danışmaq istədikdə, vərəqədə nə xüsusda söyləyəcəklərini qeyd etsinlər. Şəfi bəy söz istədikdə nə danışacağını bildirməmişdi. Şimdi çıxıb müəyyən təklif edir. Fəqət mən böylə təklifi qəbul edəmməm. Zira, Nizamnaməyə görə təklif o vaxt qəbul edilib rəyə qonular ki, əqəllən [ən azından] beş məbus tərəfindən imzalanmış olsun. Söz Muxtar Əfəndizadənindir.

**[Muxtar] Əfəndizadə** - Layiheyi-qanuniyyə barəsində bizim bir neçə sualımız vardı. O suallardan bəziləri haqqında bəyanatçı əfəndi məlumat verdi. Bunları bir daha təkrara ehtiyac və lüzum yoxdur. Qaldı, bir məsələ də var idi ki, nə üçün Maliyyə naziri burada yoxdur ki, əhvali-maliyyəmiz haqqında məlumat versin. Bunu da Şəfi bəy dedi. Pulların bir qismi hələ Məclisi-Məbusan yox ikən, hökumət tərəfindən buraxılmışdır. Bir qismi də, Məclisi-Məbusan mövcud ikən kəsilmişdir. Əvvəla, Parlamandan izin olmadan hökumət heç bir vaxt pul kəsməməlidir. Üçüncü sualımız da məxaric haqqında idi. Burada ingilislərə 25 milyon manat pul verilməsi istənilir. Fəqət mən bilməm bu nə üçün verilsin. Poşlinmi [vergimi], həqqi-himayəmi, ya nə ad ilə verilsin. Mən təklif edirəm, bu vaxtadək kəsilmiş olan kağız pullar təsdiq edilsin. Amma mümkün olan qədər, yenidən pul kəsilməməsi tərəfdarıyız. Zira, indi manatın kursu bir qəpik isə pul daima kəsildikdə 1 qəpikdən də aşağı düşür. Binaənileyh [ona görə], biz təklif edərdik mümkün olan qədər təzədən pul kəsilməsin.

**Sədr** - Bir təklif var ki, Maliyyə naziri bəyanat verənədək, məsələnin müzakirəsi təxirə salınsın. Başqa təklif yoxmu? Yoxsa, son söz məruzəçinindir.

**[Mustafa] Vəkilov** - Mən bir məsələ haqqında məlumat vermək istərdim. Burada hökumət qabaqca 300 milyonmu, 390 milyonmu pul kəsmiş olduğundan bəhs olunur və denilir ki, bunu Parlaman təsdiq etməli idi. Bu, səhvdir. Çünki hökumət həman 300 milyon manatı Parlaman olmayan zaman kəsmişdir. Yəni, o vaxtki bütün ixtiyarlar ancaq hökumətin əlində idi. Saniyən [ikincisi], sual olunur ki, ingilislərə nə üçün pul verilmək istənilir. Mən deməliyəm ki, ingilislər bu məbləği bizdən borc istəyirlər və komisyonun məlumatına görə, həman məbləğ ingilislər tərəfindən lazımi dərəcədə təmin edilmişdir. Bir də sual olunur ki, nə üçün bəyanatdan ötrü nazir özü iclasa gəlməmişdir. Buna cavabən ərz edirəm ki, Büdcə və Maliyyə Komisyonu bu layihənin müzakirə ediləcəyini nazirə xəbər vermişdi. Fəqət mühüm işlər üçün iclasları olduğundan, nazir Məclisi-Məbusan iclasına gələ bilməmişdir.

**Sədr** - Təklif var layiheyi-qanuniyyənin müzakirəsi təxir edilsin. İki natiqə söz verirəm. Biri lehinə, digəri əleyhinə. Kim danışmaq istəyir? Danışmaq istəyən yoxdur, səsə qoyuram, kim məsələnin təxiri tərəfdarıdır, rica edirəm əlini qaldırsın. *(Əllər qalxır.)* Deməli, əksəriyyətlə məsələnin təxiri haqqındakı təklif qəbul olunur. Bununla məsaili-yövmiyyə [gündəlik məsələlər] bitmiş olur. Fəqət, məclisi qapamadan əvvəl möhtərəm məbusların nəzəri-diqqətlərini bir şeyə cəlb edirəm. Komisyonlar[ın] yüzdə doxsanı işləməyirlər. Adları əksəriyyən kağız üzərində var, özləri isə əsla əsəri-həyat və fəaliyyət göstərməyirlər. Parlamanın qərardadı ilə komisyonlar əzasının [üzvlərinin] miqdarı iki qat artırılmışdır. Fəqət artırmaq daha da işi müşkülə salmışdır. Zira beş adamı yığmaq çətin idi. Şimdi on əzanı çağırmaq daha da müşkül olmuşdur. Dekabrdan bəri bu komisyalar seçilmiş, fəqət, ancaq kağız üzərində qalmışdır, özləri işləməyirlər. Bir də Torpaq komissiyası üç dəfə iclasa yığışmamış olduğundan, nizamnaməyə görə ləğv edilmişdir. Fəqət bu vaxtadək hələ yeni əza seçilməmişdir. Ona görə, rica edirəm bu məclisdə məzkur [deyilən] komissiyaya namizəd göstərəsiniz. *(Namizədlər göstərildikdən sonra vərəqələr yazılıb verilir. Sonradan katib vərəqələri oxuduqca, səs alanlar qeyd olunur. Vərəqələr oxunub qurtarır.)*

**Sədr** - Cəmisi 42 vərəqə verilibdir. Komisyona keçən gərək 22 səslə keçsin. Seçkilərin nəticəsini oxuyun. *(Səs alanların ismi oxunur.)* Ən çox səs alanları oxuyun.

**Kazımzadə** *(oxuyur)* – [Cavad bəy] Məlik-Yeqanov 36, Heybətqulu [Məhəmmədbəyov] 32, Məhəmməd Əli Rəsulzadə 30, [Rza bəy] Qaraşarov 28, Əliheydər Qarayev 27, [Qərib Məhəmmədkərim oğlu] Kərimov 26, Ter-Azarov 26.

**Sədr** - Fəhlə Komisyonunda beş adam var idi. Beş üzv keçmiş olur. İndi istəyirsiniz komisyon üzvlərinin ədədini artıraq, təklif var yeddi nəfər olsun.

**Məhəmməd Əmin [Rəsulzadə]** *(yerindən)* - Əksəriyyəti-mütləqə [mütləq çoxluq] alan nə qədərsə, o qədər də keçsin.

**Sədr** - Fəhlə Komisyonuna keçənlər bunlar oldu: [Cavad bəy] Məlik-Yeqanov 36 səslə, Heybətqulu [Məhəmmədbəyov] 32, Məhəmməd Əli Rəsulzadə 30, [Rza bəy] Qaraşarov 28, [Əliheydər] Qarayev 27, [Qərib Məhəmmədkərim oğlu] Kərimov 26, Ter-Azarov 26 səslə.

Sosialist bloku tərəfindən Məclisi-Müəssisan Seçki Komisyonuna Camo bəy Hacınski əvəzinə Abbas bəy Atamalıbəyov təklif olunur. Ləvayehi-Qanuniyyə komisyonuna [Qanun Layihələri komissiyasına] "Əhrar" fraksiyası tərəfindən Muxtar əfəndi Əfəndizadə, Aslan bəy Qardaşov yerinə təklif olunur. Bir də Sosialist bloku tərəfindən Ləvayehi-Qanuniyyə komisyonuna Əhməd bəy Pepinov yerinə [Rza bəy] Qaraşarov təklif edilir.

**Qaraşarov** *(yerindən)* - Mən istəmirəm.

**Sədr** - Keçən 13 aprel tarixli iclasda erməni fraksiyası tərəfindən Çubaryan Maliyyə-Büdcə və Torpaq komisyonuna, Ter-Azarov Ləvazimat, Papyan Məclisi-Müəssisan Seçki komisyonu ilə İstizah [Sorğu] komisyonuna təklif edilirlər. Hərgah, istəyirsiniz bunları da indi seçək, yainki gələn iclasda.

**Səslər** - Gələn iclasda.

**Sədr** - Rica edirəm gələn iclasa seçki üçün hazır gələsiniz. Namizədlərin siyahısı dəftərxanada vardır. Oradan ala bilərsiniz. Bununla ruznameyi-müzakirat [müzkirə gündəliyi] bitdiyindən, məclisi qapayıram.

*(İclas saat 1 - 40 dəqiqədə qapanır.)*

## TÜRKİYƏYƏ TƏKLİF OLUNAN SÜLH ŞƏRAİTİ

Neçə gün əvvəl Müttəfiqlər tərəfindən Türkiyəyə təklif olunan sülh şəraitini bir vasitə ilə xəbər alaraq nəşr eyləmişdik. Bu kərə Osmanlı Teleqraf Ajansı-Millisinin nəşr eyləmiş olduğu sülh şəraiti maddələrini aşağıya dərc eyləmək imkanı hasil olmuşdur. Təqdir ediləcəyi vəchlə [təqdir ediləcəyi kimi], bu şərait əvvəlki xəbərə nisbətlə çox yüngüldür. Burada 25 illik kontrol maddəsi olmadığı kimi, İzmir ilə Vanın Fransa idarəsində olacağına aid dəxi bir maddə yoxdur. Ajansı-Millinin nəşr eylədiyi maddələr bunlardır:

1) İstanbul və boğazlar Osmanlı idarəsində qalacaqdır. Ancaq boğazlar təhkim edilməyəcək [istehkamlarla möhkəmləndirilməyəcək], hərb və ticarət gəmiləri sərbəst keçəcəkdir.

2) Bəhri-səfid [Aralıq dənizi] ingilis, İtaliya və Yunanıstanın qarışıq idarələri altında bulunacaq və müstəqil bir hövzə təşkil edəcəkdir.

3) Anadolu və Rumeli şəhərlərində türk və islam nüfusu [əhalisi] çox olan məhəllər [yerlər] Osmanlı Hökumətinə ilhaq ediləcəkdir [birləşdiriləcəkdir]. Gümülcinə ve Dədəağacda türk və islam ənasirinin [ünsürlərinin] fəzlə olmasından naşi [ötrü], Bolqarıstandan alınıb Türkiyəyə ilhaq üçün əhaliyi-məhəlliyyəyə [yerli əhaliyə] müraciət ediləcəkdir.

4) Ruslardan işğal edilən üç sancaq da əhalinin arzuları üzərinə Türkiyəyə ilhaq ediləcəkdir. Ancaq Batum iskələsindən [limanından] bütün Qafqaz Hökumətləri istifadə edəcəkdir.

5) Erməni hökumətinin ibqası [saxlanması] üçün kəndisinə kafi miqdarda ərazi veriləcəkdir.

6) İngilislər İraqı təxliyə edəcəkdir. Mosul, Bağdad və Bəsrə şəhərləri türk, ərəb və kürdlərdən başlı-başına bir idarə təşəkkül edəcəkdir. Şəttülərəb nəhrinin cənubundan Küveytə qədər olan ərazi ingilislərə tərk ediləcəkdir.

7) Bağdad şiməndifər [dəmiryol] xətti tərk və ingilislərə təslim olunacaqdır.

8) Fələstində ərəb və qismən yəhudi hökuməti təşəkkül edəcəkdir. Bunlara müşavir [məsləhətçi] əcnəbilər veriləcəkdir.

9) Suriya vilayətləri əğləbi-ehtimal [böyük ehtimalla] Osmanlı idarəsində qalacaqdır. Məmafih [bununla birgə], əha-linin rəyinə də müraciət ediləcəkdir.

10) Hicazın hüquqi-diniyyəsi məhfuz qalacaqdır və türk-ərəblər idarəsi altında bulunacaqdır.

11) Türkiyə Yəməni tərk edəcəkdir.

12) Türkiyə Misir və Süveyşdəki bütün hüququnu tərk eyləmişdir.

13) Hicazın istiqlalı təşəkkül etmişdir.

14) Trablus və Benqazi həvalisində [ətrafında] təşəkkül edəcək idarə müştərək heyətlə idarə olunacaqdır.

15) Avropa xilafət məsələsinə qarışmayacaqdır. Etilafiyyun [Antanta dövlətləri] Osmanlı Hökumətinin bu haqq və hüququna ehtiram edəcəkdir.

16) Türkiyə Qıbrısı [Kipri] ingilislərə tərk edəcəkdir.

17) Türkiyə Krım və Azərbaycan, Qafqaz işlərinə qarışmayacaqdır.

18) Osmanlı idarəsində bulunan rum, erməni və yəhudilərə mütəsaviyyən [bir-birinə bərabər] siyasi və idari hüquqları veriləcəkdir. Qeyri-müsəlmanların hüquqi-məzhəbiyyələri mühafizə edilmişdir.

19) Kapitülasyonlar ləğv edilmişdir. Məhakim [məhkəmələr] və zabitə [asayiş] əcnəbilər yardımı ilə tənsiq ediləcəkdir [qaydaya salınacaqdır].

20) Düyuni-ümumiyyə borclarından bir qismi tərk ediləcəkdir. Büdcənin müvazinəsi üçün 25 sənə möhlət haqqını haizdir.

21) Osmanlı Hökumətinin əsgəri 50 min nəfəri keçməyəcəkdir.

22) Türkiyədə bulunan şiməndifərlər [dəmiryolları], mədən, iskələ [liman] və sair inşaat üçün əcnəbi sərmayələri qəbul ediləcəkdir.

23) İstanbul, Batum və İzmir sərbəst liman olacaqdır.

## TELEQRAF XƏBƏRLƏRİ

**Fransa inqilab ərəfəsində**

Lozanna - Parisdə fransız əmələlərinin [fəhlələrinin] dəhşətli nümayişi vaqe olmuşdur. Bunlar, Klemanso kabinəsinin istefasını və Rusiya işlərinə müsəlləh [silahlı] surətdə müdaxilə etməməyi tələb edirlər. Sen-Antuanda və Cümhuriyyət meydançasında mitinqlər tərtib verilmişdir. Natiqlər Fransa Hökumətinin siyasətini ciddi surətdə tənqid etmişlərdir. Kabinənin istefasına baxmayaraq, əmələlərin nümayişi davam edir.

Səlanik - Parisdən xəbər verilir ki, Fransada ixtilal çıxarmaqla ittiham edilən Qilyom Qatmanı divani-hərb [hərbi məhkəmə] edama məhkum eyləmişdir.

* Kubanda müntəşir [nəşr olunan] "Utro Yuqa" qəzetəsi Lozannadan alınmış böylə bir teleqraf nəşr etmişdir:

Fransada inqilab hərəkatı getdikcə artmaqdadır. Viviani ilə [Albert] Tomas yeni hökumət təşkilindən acizdirlər. Paris, Marsel, Lion və sair bu kimi ticarət mənbələrində əmələlərin nümayişi qurtarmayır. Fransada ümum əmələlərin tətil edəcəyi qəviyyən [güclü surətdə] zənn edilir. Bu inqilab ən sol sosialistlərin şüarı ilə qalxmışdır. Məlumatlı dairələrdən verilən xəbərlərə nəzərən, Fransa dəhşətli inqilab və üsyan ərəfəsindədir.

Paris - Bolşevizm lehinə təbliğatı ilə ittiham edilən və Fransada üsyan qalxızmaq istəyən neçə nəfəri hökumət 5 ildən 8 ilədək kürək cəzasına [katorqaya] məhkum etmişdir.

**Vyana Almaniya paytaxtı**

Zürixdən "Jurnal"a yazılır:

Avstriya Xariciyyə naziri Otto Bauer firqə başçıları və hökumət üzvləri hüzurunda Avstriyanın Almaniyaya ilhaq edilməsi [birləşdirilməsi] barəsində Almaniya Hökuməti ilə müzakiratda bulunduğunu ərz etmişdir. Əsasən, bu məsələdə razılıq əmələ gəlmişdir. Bu günlərdə gömrük, maliyyə və ticarət şəraiti [şərtləri] də qəti surətdə həll ediləcəkdir. Vyana böyük Almaniyanın paytaxtı olacaqdır. Danışıq növbətlə gah Vyana, gahi Berlində olacaqdır.

**Bavariyada**

Kopenhaqdan xəbər verilir ki, aprelin 5-də Bavariyada Şura Cümhuriyyəti elan edilmişdir. Spada Erzberqerə bu xəbərin doğru olduğunu bildirirlər. Həman xəbərdə denilir ki, spartaklar Parlaman imarətini işğal etmişlərdir. Münxendə bir neçə mitinq vaqe olaraq, bunların birisində yeni cümhuriyyət elan edilmişdir. Müstəqil sosialistlər spartaklara qoşulmuşlardır. Bir neçə nöqtələrdə kəndçilər yığışıb Münxenə gəlməyə qərar qoymuşlardır.

**Nemeslər hazırlaşırlar**

Polyaklar xəbər verirlər ki, Sileziyada almanlar ləvazimati-hərbiyyə və zirehli parovozlar hazırlayırlar.

**Macarıstanda qarğaşalıq**

Kopenhaq - Peştədən xəbər verildiyinə görə, hərbi komissar Poqan istefa vermişdir. Qırmızı ordu burjuazlar ilə kommunistlər arasında olan mübahisata [mübahisələrə] müdaxilə edir. Qərbi Macarıstan qubernatoru həbsə alınmışdır. Vyanadan bildirilir ki, Avstriyanın almanlarla məskun hissələrindən Vyanaya külli bolşeviklər gəlmişlərdir. Aprelin 6-da Macarıstanda böyük nümayişlər vaqe olmuşdur.

* Tiflis qəzetələrinə bu məzmunda teleqraflar çəkilmişdir:

- Kolçak 25 min nəfər bolşeviklərdən əsir tutmuşdur. Birinci Bolşevik ordusu Qomeldə ukraynalılara təslim olmuşdur.

- Bolşeviklər Vilna [Vilnüs] şəhərini qeyb etdiklərinə iqrar [etiraf] edirlər. İngilis qoşunları Murman cəbhəsində güclü bolşevik dəstəsini tutmuşlardır.

London - İki gün bundan əvvəl bolşeviklər Arxangelsk cəbhəsində ciddi həmləyə keçmişlərsə də, onların həmləsi dəf edilmişdir. Müttəfiqlərin tələfatına nisbətən bolşeviklərin tələfatı çoxdur.

**Finlandanın Rusiyaya hücumu**

Moskva - Finlanda müntəzəm qoşunları Rusiya Cümhuriyyətinin sərhədini keçərək Olonets dairəsində şura qoşunları əleyhinə müharibə açmışlardır. İngilis simsiz telqrafının məlumatından anlaşılır ki, Finlanda qoşunlarının hərəkati-hərbiyyəsi ilə Etilaf [Antanta] dövlətləri qoşunlarının rabitə və əlaqəsi vardır. Finlanda qoşunları daxil olan oblastlarda onlar irticapərəstləri və sair bolşevik əleyhinə olan ünsürləri silahlandırıb, Şura Hökuməti əleyhinə sövq edirlər. Rusiya əmələ və kəndçiləri aşkar görürlər ki, Finlanda hökuməti Finlanda əmələ və kəndçilərini meydani-hərbə göndərərək, onları qanlarını axıtmağa vadar edirlər. Müttəfiqlərin cahangir [imperialist] hökumətləri Romaniyada boyarlar hökumətinə kömək edərək Romaniya millətini inqilabçı Macarıstana və Ukraynaya göndərirlər. Eyni zamanda, Polşada irticapərəst hökuməti saxlayaraq, Müttəfiqlər, Polşa əmələ və kəndçilərini qonşu Rusiya Cümhuriyyəti əleyhinə göndərirlər. Müttəfiqlər Finlanda camaatının arzusuna xilaf olaraq, indiki Finlanda Hökumətinə müavinət [kömək] edirlər. Şura Hökuməti öz istiqlaliyyətini təmin etmədikcə, silahı əlindən buraxmayacaqdır. Şura Hökuməti Finlanda qoşunlarının bu xürucuna [hücumuna] etiraz edir və ümidvardır ki, axirüləmr [axırda] fin milləti düşünər ki, hökumətin bu qərəzkaranə siyasətinə bir intəha [son] verilməlidir.

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransındakı ixtilaf barəsində Almaniyanın rəyi**

Bəzi Berlin qəzetələrinin məlumatına nəzərən, Almaniya bu rəydədir ki, Sülh Konfransında İtaliya ilə müttəfiqləri arasında vaqe olan ixtilaf Versalda Almaniya nümayəndələri ilə Müttəfiqlərin danışığına heç də icrayi-təsir etməz. İtaliya nümayəndələrinin Sülh Konfransından getmələri münasibətilə Müttəfiqlərin Almaniya ilə danışığa girişməyəcəyi barəsində fikir etməyə də əsas yoxdur. Gözlənir ki, Almaniya sülh nümayəndələri Versala varid olacaqdırlar [gələcəklər]. Çaharşənbə ya pəncşənbə [çərşənbə yaxud cümə axşamı] günü Müttəfiqlər bunlara sülh müahidənaməsi [sazişi] təqdim edəcəklərdir.

**Almaniya cavabı barəsində**

Parisdə əfkariümumiyyə [ictimai rəy] böylədir: Almanlar istəyir ki, bu axır vaxtlarda Müttəfiqlər arasında müşahidə edilən ixtilafdan istifadə etsinlər. Almanlar sülh maddələrinin bəzilərinə ya riza göstərməyir, yaxud müahidəni [sazişi] imzadan imtina edirlər. Böyləliklə, Müttəfiqlər müşkül bir vəziyyətdə qalmış olacaqlardır. Məlumdur ki, ümdə təkliflər müzakirə edilmişdir. Yalnız bu müzakirat hərbiyyə nöqteyi-nəzərindən olmamışdır. Foş çoxdan bəri hərbi planının da qeydini təklif edirdi. Foş istəyirdi ki, Üçlər Şurasında siyasi və iqtisadi məsələlərlə bərabər, bu məsələ də müzakirə edilsin.

Böyləliklə, üç səbəb vardır ki, Vilsonun mayın 20-də getməsinə mane olur və o üç səbəb də bunlardır:

1) Müttəfiqlər İtaliyasız sülh əqd edə [imzalaya] bilərmi?
2) Müttəfiqlər Yaponiyasız sülh əqd edə bilərmi?
3) Müttəfiqlər Almaniyasız sülh əqd edə bilərlərmi?

İstanbul – Parisdən buraya xəbər verilir ki, fransız saldatları ilə Almaniya saldatları arasında kiçik müsadimədən [toqquşmadan] başqa, Qərb cəbhəsində Almaniya məntəqəsində heç bir əməliyyati-hərbiyyə vaqe olmamışdır.

**Almanlar sülhnaməni imza etməyirlər**

"Exo de Pari" qəzetəsi yazır ki, 48 saatdan sonra, Almaniya sülh nümayəndələri tərəfindən müahidənin [sazişin] imza edilib-edilməyəcəyi aşkar olacaqdır. İsveçrədən xəbər verirlər ki, almanlar sülh müahidənaməsini imza etmək fikrində deyildirlər.

**Ferenbaxın nitqi**

Almaniya Milli Məclisi rəisi Ferenbax Kresburqda məclisdə demişdir ki, Almaniya tərəfindən sülh müahidənaməsinin imza edilməməsinin nə qədər vəxim [təhlükəli] nəticələr verəcəyini biz düşünüb biliriz. Amma bununla bərabər, yenə müahidə imza edilməməlidir. Zira, əsirlərdən düşmənlər əlində olduqca, düşmənlər ablukanı [blokadanı] ləğv etmədikcə, Dansiq və Saar hövzəsi düşmənlər əlinə keçdikcə, biz sülhü imza edəmməyiz. Əlbəttə, hökumət və Parlaman bununla öhdəsinə böyük bir məsuliyyət götürür. Fəqət hökumət və Parlamanın arxasında da Almaniya milləti durur. Bizə təlәqqi edilən [qəbul etdirilən] sülhü qəbul edə bilmərik. Biz heç bir zaman qul olmaq istəmiriz.

## DAĞISTAN ƏHVALI

**Könüllü ordunun məğlubiyyəti**

Xariciyyə Nəzarəti cəbhədən böylə bir rəsmi məlumat almışdır:

*"Teymurxanşura, 1 may. İnquş, osetin, qabardin və gürcü müttəhid [birləşmiş] qüvvələri ilə Narzan altında Könüllü ordu qəti surətdə məğlub edilmişdir. 4 top, 21 pulemyot, 500 tüfəng və bir çox mühimmat [hərbi ləvazimat] alınmışdır. Şayiata [şayiələrə] görə, Qroznı çeçenlər tərəfindən işğal edilmişdir."*

**Kuban Radasının teleqrafı**

Kuban Radası tərəfindən Dağıstan Hökumətinə böylə bir teleqraf göndərilmişdir:

*"Cənubi hökumət təşkilatlarının federasiya əsasında birləşmələri məsələsi haqqında Kuban Radasının 13 fevral tarixli qərarına əməl etməkdən ötrü, göstərilən oblastların [vilayətlərin] nümayəndələr konfransı köhnə qayda ilə mayın 5-inə təxir edilmişdir. Bu çağırılacaq konfransda Dağıstan Hökumətinin iştirak edib-etməməsini xəbər verməniz xahiş olunur. İştirak etmək xahişində olsanız, göstərilən müddətə qədər Yekaterinodara [Krasnodara] gəlməkdən ötrü 2 və ya 3 nümayəndə intixab edib [seçib], teleqrafla onların adlarını və familiyalarını, nə xidmətdə olduqlarını xəbər veriniz. Konfransın məşğuliyyət məramnaməsi bu yaxınlarda sizə göndəriləcəkdir.*

*İmza etdi:*
*Kuban Nahiyə Hökuməti rəisi: Somkov."*

Bizə məlum olduğuna görə, həmin bu teleqraf ümumi müzakirədən ötrü Dağıstan Hökuməti tərəfindən Zaqafqaziya Konfransına daxil ediləcəkdir.

* Dağıstan dəmiryolunda tətil davam edir.

* Bu axır vaxt Teymurxanşura üzərində naməlum aeroplanlar görünməkdədir.

## TÜRKİYƏDƏ

**Ərzurum vilayəti nə haldadır?**

Ərzurumda çıxan "Al bayraq" qəzetəsi vilayətin halını təsvir edən bir məqaləsində əhvalı xülasə edərək sayır ki:

1) İslam və türk nüfusunun [əhalisinin] yarısı öldürülmüş, qəsəbə və köylərin böyük bir qismi təxrib edilmiş [dağıdılmış], vilayət başdan-başa bir yanğın yerinə döndərilmişdir.

2) Hökm sürən səfalət ürəklər yaxacaq dərəcədədir. Hökumətin yardımından ziyadə Qars və həvalisi [ətrafı] ilə yapılan ticarət bir qisim xalqın üzünü güldürmüş, bir az toxum, yeyəcək və heyvanat tədarükü imkan daxilinə girmişdi. Bununla bərabər, şimdiyə qədər əkilən toxumun yüzdə 30 qədərinin də baharda zər' ediləcəyi [səpiləcəyi] fərz olunarsa, gələcək sənəki məhsuldan nüfus [əhali] başına sənədə 50 kilo isabət edə biləcəyi [düşə biləcəyi] yapılan istatistik müfadından [mənasından] anlaşılır. Şu halda, önümüzdə daha böyük fəlakət vücud bulmaqdadır. Hər nə mümkünsə yapılaraq, bahar zər'iyyatını [səpinini] çoxaltmaq xüsusu təmin edilməzsə, gələcək sənə qorxunc bir səfalətə məruz qalacağımız şübhəsizdir. [Məclisi]-Məbusanca təxsis edildiyini [Parlament tərəfindən ayrıldığını] minlərcə dəfə qəzetələrdə oxuduğumuz beş milyon hələ ənqa mahiyyətini mühafizə edir. Bilməyiz, bu para nə zaman və nərəyə sərf ediləcək.

3) Bələdiyyələr hənuz işə başlamamışdır. Xarab olan qəsəbələrin, köylərin emarı, ehyası [canlandırılması] üçün hənuz bir proje yapmaq imkanı hasil olmamışdır.

4) Nafiə [abadlıq, quruculuq] vəzifələri möhməldir [tərk edilmişdir, başlı-başına buraxılmışdır] – nə para vardır, nə qol...

5) Maarif işlərində də burası üvey [ögey] övlad müamiləsi [rəftarı] görməkdə bərdəvamdır [davam edir]. Hərbdən əvvəl mövcud olan 200-ə yaxın məktəbdən məhəllinin [yerli camaatın] hümməti ilə bir-iki ibtiadi açılmışsa da, onların da müəllimlərinin aylardan bəri maaşları verilməməkdədir. Bu sonki ciddən hal düşünməyə layiq qərib[ə] bir vəziyyət ehdas edir [meydana gətirir]: Əcəba məktəbə ehtiyacımız olmadığınamı qaneyiz?

6) Banka yox, ayda bir posta ancaq gələ bilir. İstanbul və sair ticarət mərkəzləri ilə müvasilə [rabitə] kəsilmiş kimi bir şey. Bu hala baxaraq iqtisadi vəziyyəti təyin etmək müşkül olmaz, zənnindəyiz. Başqa dövlətlərdə hərb məntəqələrinin emarına, ehyasına sərf edilən hümmətlər, qeyrətlərlə paytaxtımızda hökm sürən laqqırdı qovğalarını göz önünə gətirincə, məyus olacağımız gəlir. Tariximizin acı bir hökmü könlümüzü dağlayır. İstanbul hər zaman dişrələrin [ucqarların], xassətən [xüsusilə] Anadolunun səfalətləri, dərdləri qarşısında laqeyd qalmışdır. Bu qədər fəlakətdən sonra olsun, o qara hökmün dəyişdirilməsini bəkləmək haqqımız deyilmidir?

**Trabzon həvalisinin müqəddəratı**

"Millət" qəzetəsi Trabzon həvalisi rumlarının Pontus səltənəti haqqındakı rumların müddəiyyatını [iddialarını] bərvəchi-ati [aşağıdakı kimi] qeyd edir:

Müxtəlif millətlər tərəfindən iddiayi-hüquq zimnində vüqu bulmaqda olan təşəbbüsat miyanında [haqq iddiası çərçivəsində göstərilən təşəbbüslər arasında] ən ziyadə şayani-diqqət [diqqətəlayiq] və şayani-diqqət olduğu qədər də gülünc olanı "Pontus" namını taqınan [adını alan] Qara dənizli bəzi rumların hərəkətidir. Batum, Trabzon və Canik və Oltunu ehtiva etmək üzrə heç bir haqqi-məşruaya [qanuni haqqa] istinad etməyən müəzzəm bir dövlət təşkilinə mətuf olan [yönələn] bu təşəbbüsat son günlərdə kəsbi-vüsət eyləmişdir [genişlənmişdir]. Kəndi amalixəsisələrini [alçaqca məqsədlərini] tətmin üçün sahibi-haqq olan digər bəzi millətlər sırasında əxzi-mövqe edən [yer tutan] pontuslular əxirən [axır vaxtlarda] Sülh Konfransına tövdi [təqdim] eylədikləri bir müxtirədə [yazılı qeyddə] 700 min rumun müxəyyəl [xəyali] imperatorluq ölkəsində yaşamaqda olduğunu iləri sürdükdən sonra, masal [nağıl, əfsanə] qəbilindən bir taqım hüquqi-tarixiyyədən bəhs edirlər. Halbuki, şəraiti-hazirədə zamanımızda yunanlılıqla heç bir əlaqəsi olmayan, olmasına əsasən mümkün olmayan bir məmləkət varsa, o da Qafqaziya və bununla məhdud [sərhəd] olan Trabzon vilayətidir. Filvaqe [doğrudan da], vilayəti-məzkurə [adı çəkilən vilayət] ilə Canik livasının [sancağının] nüfusi-ümumiyyəsi [əhalisinin ümumi sayı] 1.516.249 miqdarında olub, bunun 1.187.078 qismi sırf islamlardan ibarətdir. Demək olar ki, nüfusi-müslimə ümum əhalinin yüz[də] 78 miqdarını təşkil etməkdədir. İslam, erməni və sair milliyyətlər miyanında [arasında] əxzi-mövqe edən rumlar isə pək cüzi miqdara baliğ olmaqdadır [çatmaqdadır]. Həqiqət bu dərəcə sərih və vazeh ikən, dürlüdürlü təşəbbüsatla Pontus dövləti-müxəyyələsindən [xəyali dövlətindən] bəhs etmək həm gülünc və həm də haqq naminə eyibdir.

Bu xüsusda o həvali [o yerlərin] müsəlmanları tərəfindən İstanbul qəzetələrində protestolar dərc edilmişdir ki, misal olaraq lazistanlıların teleqrafnaməsini dərc ediriz:

Lazistan mühafizeyi-hüquqi-milliyyə [milli hüquqların qorunması] heyəti tərəfindən məqami-sameyi-sədarətpənahiyə [Baş nazirin uca hüzuruna] kəşidə qılınan [çəkilən] teleqrafnamənin surətidir:

Bu gün bütün dünyanın sülh və fəlahı [nicatı] ehzar olunmaq [hazırlanmaq, əmələ gətirilmək] üzrə Parisdə iniqad edən [toplaşan] Sülh Konfransı ətrafında yunan, Qara dəniz rumlarına mənsub ezam qılınan heyətlər təğyir və təhrifi-həqa-yiqə qiyamla [həqiqətləri dəyişdirməyə və təhrif etməyə çalışmaqla], Trabzon və həvalisinə və xüsusilə livamız bulunan Lazistan sancağına hakim qılınacaq batil müddəiyyatda [iddialarda] bulunduqları şayiəsi kiçik və böyük livamız xalqını həyəcanda buraxmış, məəmülhəqat livamızda məskun [sancağımıza daxil olan ətraf ərazilərlə birgə bu sancaqda yaşayan] əhali ümumiyyətlə islam ikən, qismən müsafirətən [qonaq qismində] bulunan 100 ila 300 [100-300 arası] rumun hakimiyyəti altına girmələri hürriyyəti-miləl qaideyi-ədalətinə münafidir [millətlərin hürriyyəti haqqında ədalətli qaydaya ziddir]. Qara dəniz səvahilində [sahillərində] əhaliyi-islamiyyəyə nisbətlə nüfusları əqəlli-qəlil radəsində [azdan da az dərəcədə] bulunan və heç bir surətlə haqları olmayan rumların böylə açıqdan-açığa tələbi-hakimiyyətləri calibi-diqqətdir [diqqəti cəlb edir]. Sülh və sükuni-bəşəri təminə çalışan Düvəli-Etilafiyyə əazimi-ricalının [Antanta dövlətlərinin böyük dövlət adamlarının] hüquq və qəvaidi-insaniyyəyə münafi [bəşəri hüquq və qaydalara zidd] qərarlar ittixaz etməyəcəklərinə [qəbul etməyəcəklərinə] əmin bulunduğumuzdan, bir dəqiqə lisanlarından düşürmədikləri ədalətlərinə intizar edir və hakimiyyəti-Osmaniyyədən başqa heç bir idareyi-hökuməti qətiyyən qəbul edəmməyəcəyimizdən, bu arizuyi-ümumiyi-milliyyənin [ümumi milli arzunun] əksinə veriləcək müqərrəratın [qərarların] əlim fəcayelər tövlid edəcəyi [kədərli faciələr meydana gətirəcəyi] cəhətlə, bu həvalidə saheyi-tətbiqi qabili-imkan olmadığını [tətbiq edilməsi mümkün olmadığını] qətiyyən və müttəhidən [birgə] elan ediriz.

## RUS TİCARƏTİNİN TARİXİ

### - 4 -

Otuzuncu illərdə əcnəbi sularında üzən gəmi və vaporların ancaq 14 yarım faizi rus tacirlərinə mütəalliq [aid] idi. Bununla belə, ədədcə hamıdan az olan rus gəmiləri əcnəbi iskələlərində [limanlarında] özləri özgələrə göstərdiyi qədər mehmannəvazlığa [qonaqpərvərliyə] rast gəlməyirdilər. Bunlardan iki qat gəmi xəracatı alınaraq tələb olunurdu ki, ancaq rus malları daşısınlar.

Dəniz ticarətində əvvəlki kimi ingilislər və quru yol ticarətində də almanlar birinciliyi qazanmışdılar. Almanların Rusiyadan apardığı şeylər – taxıl, kətan, meşə, piy, dəri və donuz tükü olub, qismi-əzəmini [böyük hissəsini] ingilis, Hollandiya və Firəngistana göndərirdilər.

Lakin dəniz ticarətinin ən böyük tərəqqisi Qara dəniz səvahilində [sahillərində] vaqe olmuşdur. Bu vaxtlar rus dövləti Qara dənizin bir çox cəhətinə malik olub, ən işlək bugünkü Ades [Odessa] iskələsini də təmir etdirdi. Bu gündən sonra rus ticarəti Əqsayi-Şərqdə artıcaq şöhrətyab olur [Uzaq Şərqdə çox şöhrət qazanır].

Qırxıncı illərdə rus malının həm bahalığından, həm də davamsızlığından bir çox şikayətlər olur. Fabrikaçılar "himayəçi tarifə" istinadən işin nizamı üçün heç də çalışmayırlar. Bunun müqabilində ağır gömrüklə gətirilmiş əcnəbi malları bahalığa baxılmayaraq əhali tərəfindən hüsn-rəğbət qazanır. Odur ki, qaçaqçılıq (kontravatçılıq) ticarətçilər arasında kəsbi-şöhrət edir [şöhrət qazanır]. Banklara pul verib faizlə saxlatmaq həvəsi camaat arasında müşahidə olunur. Bunun da ümdə səbəbi o vaxtlar rus banklarının böyük faizlə (hətta Yevropa banklarından da artıq) pul saxlamasıdır. Odur ki, bu banklarda rus əhalisi ilə bahəm yevropalılar da pul saxlatmağa həvəslənirlər. Bununla belə, saxlanılmış pullardan ki, o vaxtlar 200 milyonu keçmişdi, istiqraz təriqi ilə [borc kimi] götürüb istifadə edən nə ruslardan və nə də yevropalılardan heç kəs tapılmayır. Buna çarə etmək üçün saxlanılmış pullara 4 yarım və istiqraz üçün də 5 yarım faiz qoyulur. Bainhəmə [buna baxmayaraq], yenə istiqraz həvəsçiləri tapılmayır. Axırüləmr [axırda], hökumət illərcə bikar qalmış bu pulları dəmiryollarına və sair dövlət mayəhtacına [ehtiyaclarına] sərf etməyə məcbur olur.

Bunların hamısından artıq rus ticarətinə mümaniət [maneçilik] göstərən bir məsələ var idisə də, bu da kəndlilərin mülkədarlar əlində əsir və zəlil bir halda yaşamaları idi. Bunun əvvəlinci zərəri bu idi ki, kəndlilərin ağa mülkündən kənar getməyə ixtiyarları olmadığı üçün boş yerlər başına qalıb, müddətlərcə abad olunmayırdı. Sulu, məhsuldar, meyvəli yerlər də istifadəsiz qalırdı, əkilməyirdi, biçilməyirdi. Daha əskimiş və hər yerdən qovulmuş mübadilə üsulu əsir kəndlilər arasında davam edib dururdu. Kəndlilərin azadə zəhmətkeşliyinə böyük bir sədd çəkilmişdi. Zira, buna kənd sahibləri dvoryanlar mane olurdular. Sair əsnaf arasında rəvac tapmış rus malları ümum rus kəndliləri arasında rəvac tapa bilməyirdi. Zira kəndlilər dvoryanlar çəngalında [caynağında] müflis bir hal ilə yaşayırdılar.

Xülasə, 40-50 milyon kəndlilərin böylə əsarəti rus sənaye və ticarətinin rəvişinə [inkişafına] böyük bir müxil [xarab edən, ziyan verən ünsür] kəsilib getmişdi.

Bu macəra rus tacdarlarını [hökmdarlarını] düşündürürsə də, lakin kəndliləri azad etməyə İkinci Aleksandrdan başqası cürət etməmişdi. Bunun fərmanı ilə 1861-ci ildə kəndlilər azad oldu. Həman gündən zəmanəmizə qədər rus ticarəti Yevropa ticarətinə oxşar bir ticarət olub, daha irəliləmək məqsədində bulunursa da, mənhus [uğursuz] Yevropa müharibəsi bunun təməl və rişəsinə [kökünə] qədər titrədib, üzüqoylu çevirir. Bundan sonra, rus ticarətinin başına nə gələcəkdirsə, onu Allah bilir. Lakin kəndlilərin azadəliyi nə payədə [nə dərəcədə] rus ticarətinə sirayət etmişdir, bunu bilmək üçün gələcək məqaləyə müraciət buyurula.

Kəndlilər azad olar-olmaz, rus ticarəti üçün ən parlaq bir dövr açılır ki, həman heç bir əsr və qərinələrdə müşahidə olunmamışdır. Rus məişətinin hər cəhətinə sirayət etmiş bu fəqərə [hadisə], ticarətə də böyük bir təkan vurub, bina və təməlinə qədər lərzənak qıldı [yerindən oynatdı]. Təbii olaraq, kəndlilər azadələyinin birinci təsiri ziraət [kənd təsərrüfatı] işlərinə oldu. Kəndlilərin müftəcə zəhməti ilə mənfəətbərdar olmuş bəyzadələr kəndlilərin azad olması münasibətilə muzd və ücrətlə qabaqkı kimi işi görə bilməyib, ziraət işlərini daraltdılar. Az yer əkdilər və az da qaramal saxladılar. Bunun müqabilində kəndlilərin əkin işləri çox sürətlə parıldayıb, mülkədarları yarı yolda qoydu. Taxıl və kartof məhsulatı ildən-ilə artmağa başladı.

O vaxtlar muzdurluq ücrəti ərzan [az, ucuz] olduğu üçün əl zoru əvəzinə ixtira olmuş makinaları alıb işlətməyə hələ mülkədarlar həvəslənməyirdilər. Əkin yerləri aramsız hər il əkildiyi üçün axırda qüvvətdən düşüb məhsulu getdikcə azaldır. Bu biri cəhətdən Amerikadan gətirilmiş taxılın qiyməti ucuz olduğu üçün rus taxılı da tənəzzülə başlayır. Ancaq bu tənəzzüldən sonra rus ziraətçiləri yeni ixtiraatla[ra] meyl və rəğbət göstərməyə məcbur olurlar. Yeri gah əkib, gah dincəltmək, quraqlıqda sulamaq, çürük peyinlə qüvvətləndirmək, qüvvətli mal və makina ilə iş görmək və bunlar kimi məhsulatı artırmağa bais olan bir çox tədabir ittixaz olunur [tədbirlər görülür]. Bunun nəticəsi olaraq taxıl məhsulatı böyüyür. Amma, bainhəmə [bununla birgə], indiki günlərə qədər Yevropa məhsulatından az olur. Məsələn, Rusiyada bir desyatin yerdən 39 put taxıl hasil olduğu halda, Almaniyada 78 və ingilisdə də hətta 123 put hasil olur. Rusiyanın cənub tərəfindəki boşluqlar (həman boşluqlar ki, orada bir vaxt köçəri qarətçilərinin qorxusundan slavyanlar dayanammayıb şimala doğru qaçırdılar) əlan [indi] azadə kənd mühacirləri ilə məskun və münbitdir. Bu gün o qara-torpaqda min desyatinlərcə yer əkilib, taxılı ilə rus əhalisindən başqa, bir çox əcnəbi tayfaları da doyurulur. Bu yerləri daha sürətlə abad etmək üçün bir çox yeni dəmir yolları çəkilir. 1901-ci ildə tamam rus dəmir yollarının uzunluğu 60 min verst olmuşdur.

Kəndlilər azadəliyinin böyük bir təsiri də mə'dəniyyat [mədənçilik] işlərinə olmuşdur. Həştadıncı illərdən bəri Ural və Sibir cəhətlərində qızıl, ağ qızıl və gümüşün təhsili [hasil edilməsi] şiddətli bir surətdə artmışdır. Bu vaxtlar Rusiyanın cənub tərəfində daşkömür mədənləri kəşf edildiyi üçün daşkömürə möhtac olmuş zavodların ədədi gün-gündən artır.

*Fərhad Ağazadə*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 4 may (Bazar günü) tarixli 171-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## İRAN HAQQINDA

İstanbulda bulunan İranın Balkan hökumətləri nəzdinə məmur səfiri Mirzə Əliəkbər xan Bəhmən həzrətləri İran haqqında İstanbul mətbuatına aşağıdakı bəyanatı vermişdir:

"İran əhvali-ümumiyyəsi fövqəladədir. Bu da Müttəfiqlər lehinə mühafizə etdiyimiz bitərəfiyi-xeyirxahidən [xeyirxah bitərəflikdən] irəli gəlmişdir. Məmləkətimiz əcnəbi əsgərlərin istilasından xeyli iztirab çəkmişdir. Bir çox şəhərlər və qəsəbələr tamamilə xarab olmuşdur. İran bitərəf olmaqla bərabər, feilən [əməli surətdə] hərbə iştirak etmişdir. Çünki nətayici-müxasimatdan [düşmənçiliklərin nəticəsində] müharib [savaşan] bir hökumət kimi düçari-zərər olmuşdur. Binaənileyh [ona görə], düçar olduğu zərərlərin ərazisini istila edənlər tərəfindən təmir və təzmin [kompensasiya] edilməsi müqtəzayi ədalətdir [ədalətə uyğundur]. Xariciyyə nazirimizin rəyasətində bulunan bir İran heyəti-məxsusəsi [xüsusi heyəti] mətali-bimizi [tələblərimizi] Sülh Konfransına tövdi [çatdırmağa] və izaha məmur edilmişdir. Ənənəvi rəvabiti-müxadinət [dostluq telləri] ilə İrana mərbut [bağlı] olan ingilislər məmləkətə hər zaman gərək mali, gərək iqtisadi müzahirət [köməklik] və müavinətdə bulunmuşlardır. Bundan başqa, işğalları altında bulunan vilayətlərdə tamamilə alicənabanə bir tərzi-hərəkət ixtiyar etmişlərdir. Şimali İranda rus zabitə [asayiş] təşkilatı tətili-mövcudiyyət etmişdir [mövcudluğunu dayandırmışdır]. Cənubda ingilislər mühafizeyi-asayişi bizzat bizim məmurlarımıza tövdi etmişlərdir [tapşırmışlar]. Tamamilə tənsiq edilmiş [qaydaya salınmış] olan jandarmamız öhdəsinə mövdu' [tapşırılmış] vəzifəni behəqq [layiqincə] ifa etməkdədir. Vüquati-şəqavətkaranə [quldurluq hadisələri] tək-tük vüqu bulmaqdadır. Bundan başqa, qəvanini-əsasiyyəyə müstənid islahati-ictimaiyyə [əsas qanunlara (konstitusiyaya) istinad edən ictimai islahatlar] tətbiq etmək üzrəyiz. Əmn və sələməti-ümumiyyəni [ümumi asayiş və salamatlığı] mühafizə xüsusundakı ləyaqət və iqtidarlarımızı təsdiq edən Düvəli-Etilafiyyə [Antanta dövlətləri] bizə müzahirət [köməklik] göstərməkdədirlər. Vüsuqüddövlə Kabinəsi bolşevikliyin İrana mən'i-düxul və tərəşşühü [daxil olmasının və sızmasının qarşısının alınması] üçün tədabiri-şədidə ittixaz etmişdir [şiddətli tədbirlər görmüşdür]. Hüdud kafi miqdarda əsakir [əsgərlər] tərəfindən kamali-diqqətlə mühafizə edilməkdədir. Ərazimizə girməyə müvəffəq olan bolşevizm propaqandaçıları tamamilə tərd və təbid edilmişdir [qovulmuş və sürgün edilmişdir]. Əsasən, İran bir ziraət [kənd təsərrüfatı] məmləkəti olduğundan, bolşevizm təxribatına sinai məmləkətlər [sənaye ölkələri] qədər məruz deyildir. Ciftçi [cütçü] və əshabi-əmlak [mülk sahibləri] məhsulati-ərziyyədən [torpağın məhsullarından] müştərəkən istifadə etməkdədirlər. Ordu hökuməti-mərkəziyyənin əmrlərini sədaqətlə ifaya daima hazır bulunmaqdadır. Bütün Müttəfiq hökumətlərlə münasibatımız fövqəladədir. Bolşeviklərin işğalı altında bulunan həvalidə [yerlərdə] Etilaf [Antanta] təbəəsinin müdafiəsini bizim siyasi məmurlarımız dəröhdə etmişlərdir [öz öhdələrinə götürmüşlər]. İranın mədəniyyəti-qədi-məsi və düçar olduğu müzahim və məşaqq həsəbi ilə [maneələr və çətinliklər səbəbi ilə] atiyən [gələcəkdə] millətlər arasında istehqaq etmiş [haqq qazanmış] bulunduğu mövqeyi ehraz edəcəyini [əldə edəcəyini] qəviyyən [möhkəm surətdə] zənn edirəm."

* * *

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Daxiliyyə nazirinin səfərbərlik məxaricatı üçün məbləğ təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

20 milyon fonddan avans təriqi [yolu] ilə Daxiliyyə Nəzarətinə 25 min rublə buraxılsın.

- Hərbiyyə nazirinin hökumət nəzdindəki süvari qoşunu xidmətçiləri haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin məruzəsi təsviblə [bəyənilməklə], tapşırılsın ki, təsdiq üçün Məclisi-Məbusana idxal etsin.

- Daxiliyyə nazirinin Cavad qəzasında sərhəddar [sərhədçi] təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyon fonddan 200 nəfərlik sərhəddarlar təşkili üçün Daxiliyyə Nəzarətinə 62400 rublə buraxılsın.

- Ərazi naziri vəzifəsiylə müvəzzəf [vəzifəsini daşıyan] nazirin çəyirtkə və çöl siçanları ilə mübarizədən ötrü 160 min rublə təxsis edilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyon fonddan istənilən para buraxılsın.

- Maarif nazirinin ünas məkatibinə [qız məktəblərinə] aid qanunların təbdil və təkmili [dəyişdirilməsi və kamilləşdirilməsi] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin qanun layihəsini təsviblə, ona tapşırılsın ki, təsdiqdən ötrü Məclisi-Məbusana idxal edilsin.

- Maarif nazirinin Bakı Politexnik məktəbinin təmiri üçün 22764 rublə təxsis edilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İstənilən məbləğ 20 milyon fonddan buraxılsın.

- Maarif nazirinin İkinci Zükur [oğlanlar] gimnaziyası üçün 16 min rublə buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İstənilən məbləğ 20 milyon fonddan buraxılsın.

- Maarif nazirinin Nəzarətin [Nazirliyin] təcili məxaricatı üçün məbləğ buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyon fonddan...

- Maarif nazirinin Müsəlman Ünas Cəmiyyəti-Xeyriyyəsi cənbindəki [nəzdindəki] hünər [peşə] məktəbinə xərc olunmaq üçün 100 min rublə buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İstənilən məbləğ 20 milyon fonddan buraxılsın.

## AZƏRBAYCAN DƏMİRYOL QULLUQÇULARI SYEZDİ

**25 aprel iclası**

İclas açılır saat 6-nın yarısında.

**İsrafil Rəhimzadə** - Yoldaşlar, mən burada ən aşağı sinif qulluqçuların nümayəndələrini görməməyimə çox mütəəssif oluram [təəssüf edirəm]. Ona binaən [ona görə], çox xahiş edirəm, bir komissiya seçib göndərək, hər yerdən fəhlə nümayəndəsi gəlməyib, onların nümayəndəsini seçdirib göndərsinlər və əlavə, mən bu syezddə görürəm, hər bir nümayəndə öz sinifindən başqa qeyri bir sinifin hüququnu müdafiə etməyir və etmək belə istəməyir. Ona görə, nümayəndə yoldaşlara təklif edirəm ümum dəmiryol fəhlə və qulluqçularının mənafeyini nəzərə alıb ümum Azərbaycan dəmiryolunda işləyənlərin hüququnu müdafiə etsinlər.

Yoldaş **Mursiladze** deyir: Mən görürəm, müsəlman yoldaşlar bizim aramıza nifaq salmaq istəyirlər. Mən xahiş edirəm, araya nifaq salmayıb, birlikdə işləyək.

Yoldaş **İsrafil** cavab verir ki: Mən görürəm, biz müsəlman qardaşları töhmətləndirib bizə iftira etməklə, bizim haqq sözümüzü yalansıtmaq istəyirlər. Nə qədər bizə iftira etsələr də, genə də biz getməyib, birlikdə işləyib öz hüququmuzu, müsəlman fəhlələrinin hüququnu müdafiə edəcəyik. *(Alqışlar)*

**Əzimzadə** - Mən çox təəccüb edirəm müsəlman yoldaşlara ki, həmişə müsəlman sözü danışırlar və çox təəssüf edirlər ki, nə səbəbə bu syezddə müsəlman nümayəndəsi azdır deyirlər. Müsəlmanlar burada olsa da, olmasa da bu iş olacaq. Və əlavə deyir ki, Bakıda olan qüvvə bizim əlimizdədir. Biz bu işi yeridəcəyik siz olsanız da, olmasanız da. Mən müsəlman nümayəndələrinə təklif edirəm, müsəlman nümayəndələri bizlərnən işləsinlər.

Gəncədən gələn yoldaşlardan **Rəhim Mahmudov** söz alıb deyir: Mən təklif edirəm Əzimzadə dediyi sözləri geri alsın və bizləri Bakı qüvvəsi ilə qorxutmasın. Hədələmək heç bir demokrata yaraşan iş deyil. Heç kəs bir-birindən qorxmayır və mən dübarə deyirəm, biz müsəlmanlar borcluyuq həmişə öz hüququmuzu müdafiə eyləməyə və birliklə millət, vətən üçün çalışmağa. Təəssüflər olsun ki, yoldaş Əzimzadə araya Bakı-Gəncə sözü salıb bizləri bir-birimizdən aralamaq istəyir. Biz buraya fəhlə yoldaşlarımızın hüququnu müdafiə etməyə gəlmişik. Mən təkrarən deyirəm, burada alçaq qulluqda olan yoldaşlar yoxdur, çünki onların hüququ paymal olur [tapdalanır]. Əlavə, burada olan yoldaşlar həmişə öz kəndi işlərini düzəldə bilirlər, amma onların halı nə cür keçir, heç kəs bilmək belə istəməyir. Ələlxüsus, onlardan üçü mənə məlumdur. İki aydır məvacib almayıblar.

**Əzimzadə** durub deyir: Mən elə deməmdim, mən deyirəm birlikdə çalışaq və rus yoldaşlardan ayrılmayaq.

**Sədr:** Bizim syezd ildə 4 dəfə olacaq. Hələ biz təzə başlayırıq. 2-ci syezd də üç aydan sonra olacaq. O vaxt hər bir işi özünüz düzəldərsiniz.

**Məşhədi Yusif İbrahimli** söz alır. Söz verilir:

Yoldaşlar, hərçənd bizim yoldaşlarımız haqlı söz buyururlar. Nə üçün lopatka ilə, külüng ilə işləyən fəhlələrin nümayəndəsi yoxdur? Düzdür, biz gərək burasını da bilək, əgər baltaçı işləməsələr heç bizim üçün qulluq və bir belə ali məclisimiz olmaz ki, bu gün biz bura yığılıb öz məsələlərimizi həll edirik. Mən bu barədə yoldaşlardan xahiş edirəm, yoldaşlar hamı razı olsun. Yoldaş, biz sədrin sözünə qulaq asıb gələn syezddə həman fəhlə yoldaşlardan lazımınca seçib işlərimizi kamalınca düzəldərik.

*Məclis qapanır.*

## SƏNƏTKARLARIN TƏMƏNNASI

Neçə illərdən bəri idi ki, Nikolay kimi bir zalım padşahın yumruğu altında əzilirdik. Bir işə şüru edərdiksə [başlayardıqsa], iqtidarımız yox idi. Məsələn, ölümüz olarsa, basdırmağa iqtidarımız yox, toyumuz olardısa, yenə də Nikolaydan izin gərək alaydıq. Hətta, əziz olan günümüz Məhərrəmliyi saxlamağa iqtidarımız yox idi. Hər bir işə başlasaydıq, gərək Nikolaydan bir vəsiqəmiz olaydı. Doğrudan da, bizə çox zülümlər oldusa, çox Nikolaydan da əskiklər bizi tapdalardılarsa, çox şükürlər olsun ki, indi o cəfaların səfasını çəkmək zamanıdır. İndi öz iqtidarımız öz əlimizdədir. Hər kəs öz ürəyinin sözünü aşkar bəyan edir. Neçə illərdən bəri gözlədiyimiz günlər çatdı.

Qardaşlar! İndi birlik edək, hümmət edək, qeyrət edək ki, bu gülüstanı əldən verməyək. Bu bir güldür, əlimizə düşübdür. Bərk saxlamağı bizə vacib və əlzəmdir. Necə ki, bir bağban istər bir ağac əksin, o ağacı əkər, sonra o ağaca su verər. Küləkdən saxlamaqdan ötrü çəpər çəkər, heyvanatdan saxlamaqdan ötrü hasar çəkər, hər bir xətadan, bəladan o ağacı saxlar. O ağac müddətində göyərər, xırda-xırda sevimli yarpaqlar, çiçəklər açar. Bağban da baxıb sevinər, əkdiyi ağacın axırda meyvəsini yeyər. İndi, qardaşlar, bizim Azərbaycan Hökuməti də yeni göyərmiş bir ağac misalındadır.

Vətəndaşlar! İndi hər bir vətən övladının bu əziz olan vətəninizi düşməndən saxlamaq borcumuzdur. Bu iş də başa gələr əvvəla birlik ilə. Məsələn, firqə-firqə olmayaq, hamımız bir olaq. Qardaşlar, bir əldən səs çıxmaz, bir işləyək. Firqəbazlıq zamanı keçmişdi. İndi isə birlik zamanıdır. Birlik, birlik! Birliklə hər bir iş olar. Baxınız, qonşularınız necə işləyirlər. İkincisi də əsgərlikdir. Əsgərlik demək, yəni vətənimizi, Quranımızı, namusumuzu saxlamaq deməkdir. Doğru ürək ilə silaha sarılaraq əsgərlikdən qaçmayaq. Əgər əsgərimiz olmazsa, tez tələf olarıq. (Məgər yadınızdan çıxdımı?)

"Azərbaycan" qəzetəsinin 166-cı nüsxəsində oxudum, dördgözlü olmalıyıq. Yoldaşlar, nəinki dördgözlü, bəlkə on gözlü olmalıyıq. Özümüzdən də düşmənimiz çoxdur. Lazımdır ki, böylə xainləri arayıb da, tapaq. Mənim bu sözlərimdən məqsədim budur. Necə ki, yuxarıda zikr eylədim, indi iqtidarımız öz əlimizdədir. Ürəyimin dərdini açıb deyə bilərəm. Vətənimiz olan Azərbaycan yolunda işləyən qardaşlarımdan acizanə bunu təmənna edərdim ki, hər həftə biz sənətkarları toplayıb bizə silah məşqi veriləydi. Mənim əqidəmcə, bu bir yaxşı fikirdir və cəmi sənətkarlar, fəhlə qardaşlarım da yəqin ki, həpsi toplanacaqdırlar. Biz fəhlə-sənətkarlar bu işi hökumətimizdən acizanə təmənna edirik.

Allah bu yeni göyərmiş Azərbaycan Hökumətini paydar [əbədi] etsin. Amin, ya rəbbül-aləmin!

*Sənətkarlardan Qasım İsmayılzadə*
*və Əliabbas Kərimov*

## BAKI XƏBƏRLƏRİ

**Kooperatsiya türk şöbəsində**

Xəzər Müstəhliklər [İstehlakçılar] İttifaqı "Kooperatsiya"nın Ümran [Mədəniyyət] və Maarif şöbəsi tərəfindən türkcə "İstehlak cəmiyyətinin üzvü nə bilməli və nə etməlidir" və "Məhəmməd əleyhissəlamın Qurana idxal edilməmiş ayələri" adlı kitabçalar nəşr edilmişdir. Bu kitabça iməci cəmiyyətlərində və kitab mağazalarında satılmaqdadır. Birincinin qiyməti 1 manat 50 qəpik, ikincisinin isə 1 manatdır.

"Kooperatsiya"nın Ümran və Maarif şöbəsinin cənbində [nəzdində] Türk şöbəsi dəxi açılmışdır. Bu şöbənin birinci məqsədi Azərbaycan türkləri arasında kooperativ və kənd təsərrüfatına dair kitabça və risalələr nəşr etməkdir. Türk şöbəsinə türkcəyə bələd yazıçılar dəvət olunmuşdur. Necə ki məlumdur, həmin şöbə tərəfindən türk dilində "Zəhmət həyatı" adında ədəbi kooperatif məcmuəsi [jurnalı] dəxi nəşr edilməkdədir. Bu məcmuə gələcək nömrədən daha da vüsətli [geniş] bir əndazədə çıxıb, ədəbi və iqtisadi tərəfinə daha da artıq əhəmiyyət veriləcəkdir.

**Türk mütəəllimləri arasında lotereya**

Bakı və ətrafının Türk Mütəəllim və Mütəəllimələri [oğlan və qız tələbələri] İttifaqı öz varidatını artırmaq fikri ilə bu yavuqlarda böyük bir lotereya tərtib etməyi qərara almışdır. Lotereya biletləri biri 3 (üç) rublədən komitə üzvləri vasitəsilə satılır. Adres: Birinci Realnı məktəbində, axşam saat 5-dən 7-yə kimi.

**İdilboyu türkləri**

İdilboyu [Volqaboyu] müsəlmanlarının mütəşəbbislər heyəti işbununla özünün vətəndaşlarına məlum edir ki, bu gün 5 mayda, saat 5-də, Dördüncü Ünas [qız] məktəbi binasında İdilboyu müsəlmanlarının ümumi cuyolışları [iclasları] olacaqdır. Qaldırılacaq məsələlər əhəmiyyətli olduğundan, hər vətəndaşının məzkur [deyilən] şuraya təşrif gətirmələri rica olunur.

Meydani-mühakiməyə qoyulan məsələlər:

1) Mart hadisələrinə qədər davam etmiş olan İdilboyu müsəlmanlarının milli idarə[si]ni (şurasını) diriltmək və ona məxsus ustavı [nizamnaməni] baxmaqdır.

**Növbətçi apteklər**

May ayının 26-a qədər şəhər apteklərindən bu aşağıdakılar növbətçi təyin edilmişlərdir:

May ayının 8, 12, 15, 19, 24 və 25-də Tsipkin, Çernomordinov, Ketiladze, Naberejni, Novo-Şamaxinski apteklər açıq olacaqlar.

May ayının 3, 4, 9, 14, 20, 26 və 29-da Baryatinski, Ferdinand, Vasilevski, Bolşoy Morskoy apteklər açıq olacaqlar.

Mayın 1, 5, 7, 10, 11, 16 və 22-də Ermans, Telefonnı, Qoqolevski, Novo-Şamaxinski apteklər açıq olacaqlar.

Mayın 2, 6, 13, 17, 18, 21 və 23-də Nikolayevski, Vitoşinski, Veynilat və Markarov apteklər açıq olacaqlar.

**Hadisat**

- Bakı qalabəyisi [komendantı] qubernatora məlum etmişdir ki, şəhərdə beynəlmiləl bir cibgirlər kompaniyasının mövcud olduğu kəşf edilmişdir. Həmin kompaniyaya Məlik Əliməhəmməd oğlu, Xəlil Baxış oğlu, Yervand Sanamov, Sadıq İbrahim oğlu, Cabbar Qafar oğlu, Vaqan Mkırtıçyan, Silutir Maysaşvili, Pyotr Zalvadski, Vasili Bazayev və bir nəfər də yəhudi daxildirlər. Bunlar bu günlərdə tövqif [həbs] edilib və tezliklə Azərbaycan torpağından sürgün edilmələrini qalabəyi qubernatordan rica etmişdir.

- Aziatski küçədə sükunət edən [yaşayan] Teymur Məhəmmədtağı oğlu polisəyə məlum etmişdir ki, onun qardaşı Ağamiş Məhəmmədov cibində 50 min manat pul olduğu halda evdən çıxıb getmiş və geri qayıtmamışdır. Təhqiqatdan məlum olmuşdur ki, onu Azovski dalanda 14 nömrəli evdə sükunət edən oğrular pirşağılı Əli və Əlihüseyn Həmzə oğlanları və Pyotr Zabludski ilə Vasili Bazov öldürüb və pulunu qarət etmişlərdir. Qatillər tövqiflə [tutulmaqla] mərkəzi həbsxanaya göndərilmişlərdir.

- Malakanski küçədə 3 nömrəli evdə sükunət edən Vera Vertoqradskaya poli-səyə məlum etmişdir ki, onun yanına kişi libası geyinmiş bir qız gəlib öldürmək hədəsi ilə 15 min manat pul istəmişdir. Təhqiqatdan məlum olmuşdur ki, o, Şuşanik Ayrapetyan adlı bir qız olub, erməni arvadları Mariya və Varvara Əmirova və Susanna Kasparovadan ibarət bir quldur dəstəsi tərəfindən göndərilmişdir. Beş quldurlar tövqif edilib [tutulub] həbsxanaya göndərilmişlərdir.

**Atışma**

Dünən saat 9 radələrində Şamaxı küçəsində atışma vaqe olmuşdur. Atışmadan bir nəfər yaralanmışdır. Cani tövqif edilərək [tutularaq] 4-cü polis dairəsinə göndərilmişdir.

## MÜTƏƏLLİMLƏR QURULTAYI

Qafqaziya Müsəlman Mütəəllimlərinin [Tələbələrinin] Mərkəzi Komitəsi may ayının 1-dəki iclasında qət etmişdir ki:

1) May ayının 30[-da] (otuzunda) Qafqaziya Müsəlman Mütəəllimlərinin Qurultayını çağırsın.

A) Qurultaya hər təşkilat 100 həqiqi üzvündən bir, 150 üzvündən 2, 200 üzvündən 2, 250 üzvündən 3, 300 üzvündən 3 nümayəndə göndərəcəkdir və hakəza [bunun kimi]...

B) 100 nəfərdən əskik həqiqi üzvü olan təşkilat dəxi bir nümayəndə göndərəcəkdir.

2) Fəaliyyətləri barəsində Komitəyə izahat göndərməmiş təşkilatlar, nümayəndələri ilə izahatlarını göndərməlidirlər. Hər təşkilatın nümayəndəsi qurultayda fəaliyyətləri barəsində məruzədə bulunacaqdır.

3) Mayın 20-sinə (iyirmisinə) kimi təşkilatlar həqiqi üzvlərinin siyahısını Komitəyə göndərməlidirlər.

Başqa qəzetələrdən, iqtibas etməyi rica ediriz.

*Sədr: Həmid Məhəmmədzadə*
*Katib: Əbdülvahab Məhəmmədzadə*
*Ünvanımız: Bakı, posta qutusu nömrə 273*

## ZƏHMƏTKEŞ ZİYALILAR İTTİFAQI

Bakı və Ətrafının Zəhmətkeş Ziyalilar İttifaqı idarəsinin 12 nisan bəratülqövlü [protokolu]:

Ziyalılar İttifaqının idarəsi ibtidada [əvvəlcə] Əli bəyin, sonra Ağa əfəndinin təhti-sədarətində [sədrliyi altında], Camo bəyin katibliyi ilə açıldı.

Hazirun [iştirakçılar]: Kərim bəy [Alxasov], Teymur bəy, Baba bəy, Əliməhəmməd, Sadıq, Mehdi bəy.

Heyətlər tərəfindən: doktor [Əliheydər] Allahverdizadə, Zivər bəy, Kərim bəy [Alxasov]; qaibdə: Ağalar bəy, Rəhim və Cəmil bəy.

Günlük məramnamə: keçmiş iclasdan qalmış məsələlər və heyətlər sədrlərinin məruzələri.

Nisan 4 tarixli iclasın bəratülqövlü oxunub qurtardıqdan sonra qərar qoyuldu ki, əvvəl heyətlər sədrlərinin məruzələri oxunsun.

Səhiyyə heyəti tərəfindən doktor Allahverdizadə heyətin məruzəsini müxtəsər şəkildə söylədi və rəsmi surətdə yarın təqdim edəcəyini vəd etdi.

Maliyyə heyəti tərəfindən Ağa Axundzadə heyətin məruzəsini oxuyub müfəssəl və rəsmi surətdə təqdim edəcəyini vəd etdi.

Texnika heyəti tərəfindən Zivər bəy məruzə oxudu və rəsmi surətdə yarın təqdim edəcəyini vəd etdi.

İdarə bu məruzələri əsasən qəbul edib təsdiq edilməsini qərar verdi.

Məruzələrdən sonra məsələlər[in] həllinə şüru edildi [başlandı].

İkinci və doqquzuncu məsələlər yetimlər yurdu haqqında olduğu üçün birləşdi. Yurd işinə mübaşir olan [baxan] üzvlərdən Teymur bəy xəbər verdi ki, bu zamana kimi hələ yurd binası remont [təmir] edilməmişdir və böyük çocuqlar Yollar İdarəsi tərəfindən qəbul edilməyibdir. Zivər bəy söylədi ki, Yollar İdarəsi rəisi Əliasgər bəy bu çocuqların ərizəsini bəkləyir və ərizələr gələcək də qəbul ediləcəkdir. İdarə qərar qoydu ki, çocuqların adından ərizələr yazıb Yollar İdarəsinə göndərsin.

Əxzi-Əsgər [əsgərliyə çağırış] İdarəsinə intixab olunmuş [seçilmiş] Camo bəy xəbər verdi ki, Cəmil bəylə bərabər onlar valinin hüzuruna getdi və vali idarənin təzkərəsini [arayışını] qəbul edib, onlara məhəllə müdiriyyətlərində işləməyi təklif etdi. İdarə qərar qoydu ki, [Axundzadə] Ağa əfəndi valinin hüzuruna gedib ondan rica etsin ki, idarə tərəfindən intixab edilmiş üzvlərə Əxzi-Əsgər İdarəsində də işləmək izni verilsin.

Mərkəzi Ev Komitəsindən gəlmiş məşruhəni [izahatı] Camo bəy oxudu. Bu məşruhədən anlaşıldı ki, Murtuza Muxtarov tərəfindən [M. Y.] Şor bihörmət edilmişdir. İdarə qərar qoydu ki, Ağa Axundzadə bu iş xüsusunda məlumat toplayıb, iclasa məlum etsin.

Mahmud bəy neçə gün bundan əqdəm [qabaq] iki əsgər libasında məst [sərxoş] şəxslərin küçədə kəndisinə sataşdığını söylədi. İdarə qərar qoydu ki, bu əhvalat komandana xəbər verilsin ki, komandan böylə işlərin qabağını almaq təşəbbüsatında bulunsun.

Sonra idarəyə daxil olmuş ərizələr Camo bəy tərəfindən oxundu. Bu ərizələrdə Məhəmmədqulu İsmayılzadə, Məhəmməd Əlizadə, Əliheydər Babazadə, İsmayıl bəy Qədirbəyzadə, Abbas Mirzə Əlizadə, İsgəndər bəy Məlikbəyzadə, Aslan Giray Dudarov, Əliaşrəf Sultanzadə, Haşım Rəsulzadə və Abbas Kərimzadə İttifaqa üzv olmaq ricası edirlər. İdarə qərar qoydu: Məhəmmədqulu, Məhəmməd və İsmayıl bəy haqqında Mehdi bəy məlumat toplayıb idarəyə təqdim etsin. Abbas Mirzə, İsgəndər bəy, Əliaşrəf və Abbas Kərimzadə üzvlüyə qəbul edilsinlər. Aslan Giray Şamaxıya getdiyi üçün üzvlüyə qəbul etmək məsələsi qalsın və müəllim Haşım xüsusunda el məktəbləri naziri Mahmud bəyə bir təzkərə yazılsın.

## CƏMİYYƏTİ-MAARİFİ-İRANİYAN [İRANLILAR MAARİF CƏMİYYƏTİ]

Cümə günü, may ayının 2-də fövqəlzikr [yuxarıda adı çəkilən] cəmiyyətin müəssisləri [təsisçiləri] tərəfindən ümum [bütün] iranlılar dəvət olunmuşdu. Saat 10 tamamda Şəhər Dumasının salonu məd'ular [dəvət olunanlar] ilə məmlu [dolu] olub, Əjdər Əlizadənin sədarəti ilə iclas açılır.

Sədr cənabları Maarif Cəmiyyətinin tarix və əhəmiyyətindən bahis [danışan] bir nitq söylədikdən sonra, [Mircəfər] Cavadzadə müəssislərin fəaliyyətini və heyəti-müvəqqətənin [müvəqqəti heyətin] iqdamatını [təşəbbüslərini] bəyan edib, cəmiyyəti-məzburənin [haqqında danışılan cəmiyyətin] məram və nizamnaməsini oxuyur.

Dübarə, sədr cənabları camaatı üzv olmağa dəvət etdikdən sonra, heyəti-idarə intixab [idarə heyəti seçmək] və məramnaməni təsdiq etmək üçün gələn cümə İttihad məktəbində üzvlərin iclası olacağını elam edib [bildirib], iclas qapandı.

Bu vaxtadək cəmiyyətə ianə edən zəvat [şəxslər]:

Məşhədi Yusif İbrahimzadə - 25 manat, Məhəmmədhəsən Zeynalzadə - 20 manat, İmaməli Hüseynquluzadə, Rəcəb Məhəmmədhüseynzadə, Məşhədi Ağadədə Şükürzadə - hərəsi 10 manat, Məşhədi Yusif Məhəmmədbağırzadə, Mirzəbağır Əlizadə - hərəsi 10 manat, Əbdül Məhəmmədzadə - 11 manat, İsmayıl İbrahimzadə, Həbib Məşhədi Abbas oğlu, Məşhədi Məhəmmədbağır, Kərim Zamanzadə - hərəsi 5 manat, İmaməli Hüseynquluzadə - elan vermək üçün 60 manat.

Yuxarıda adları yazılan əşxasa [şəxslərə] idarə tərəfindən təşəkkür izhar olunur.

*Heyəti-müvəqqətə*

## BALAXANA ÜNAS CƏMİYYƏTİ

Balaxana Ünas [qızlar] məktəbinin rəisəsi möhtərəmə Sara xanım Əfəndizadənin qadınlarımızın tərəqqi və təalisi [ucalması] yolunda ibraz etdiyi [göstərdiyi] hümmət şayani-təqdir və təhsindir [bəyənilməyə və alqışlanmağa layiqdir]. Öylə ki, mümaileyha [haqqında danışılan xanım], vaxtını ancaq xırda qız balalarımızın təlim və tərbiyəsi ilə keçirməyib, yaşlı qadınlarımızın da qeydinə qalmışdır. Müşarünileyhanın [adı çəkilən xanımın] səyi səmərəsi olaraq bugünlərdə qadınlara məxsus teatro tamaşası tərtib verilmişdi. Tamaşadan sonra möhtərəmə Sara xanım bir nitq irad edərək [nitq söyləyərək], qadınlara məxsus bir cəmiyyət təşkili lüzum və əhəmiyyətini bildirmişdir. Həman gün Balaxanada "Bacılar İttifaqı" namında bir cəmiyyət təşkil etmişdirlər. Cəmiyyətin birinci məqsədi hələlik bir məktəb binası tikməkdir. Çünki qızlara məxsus Balaxanada məktəb yoxdur. Fəlihəzə [bunun üçün], fövqəlzikr [yuxarıda deyilən] tamaşadan hasil olan 1440 manatı məktəb fonduna qoyub, bu barədə bəzi dairələrə də rücu [müraciət] edəcəklərini söyləyirlər.

Cəmiyyətin sədrliyinə Sara xanım Əfəndizadə, müavinisədrliyə Rəhimə xanım Quluzadə, katib Səriyyə xanım Axundzadə, xəzinədar Savad xanım Qədimzadə, dəftərdar Nuriyə xanım Əlimərdanzadə; heyəti-idarə: Nuriyə xanım Mahmudzadə, Məsumə xanım Qafarzadə, Dilbər xanım Məhəmmədzadə, Südabə xanım Quluzadə, Tubu xanım Qasımzadə; Təftiş komissiyasına Diləfruz xanım Eldarzadə, Vəcihə xanım Rzazadə, Cövhər xanım Ağazadə seçildilər. Cəmiyyətin miyanında [içində] zeyldəki [aşağıdakı] xanımlar vardırlar: Şirin xanım Yusifzadə, Nuriyə xanım Quluzadə, Bəhriyə xanım Quluzadə, Şəhrəbanu xanım Quluzadə, Xanımgül xanım Gərayzadə, N. x. Əlizadə, S. x. Babazadə. H. x. Qədimzadə, K. M. x. Rzazadə və sairləri.

*H. Eldar*

## ƏMƏLƏ BAYRAMI

**Parlaman qarşısında**

Mayın 1-ini Azərbaycan-türk zəhmətkeşləri olduqca nizam və qayda üzrə təntənəli bir surətdə icra etdilər. Səhər Parlaman qarşısına camaat toplanmağa başladı. Saat 10 radələrində "İttihad" məktəbinin musiqi dəstəsi gəlib durdu. Camaatı "Müsavat" firqəsi göy, milli Azərbaycan və qırmızı inqilab bayrağı ilə qarşılayırdı. Saat 11 radələrində fəhlələr musiqi və zurna çala-çala Hürriyyət meydanına doğru yönəldilər.

Qabaqda Azərbaycan bayrağı ilə bəzənmiş avtomobil içində türk aktyorları "Marselyeza" və "Azərbaycan marşı" oxuyurdular. Bayraqlarda "Yaşasın Azərbaycan Xalq Cümhuriyyəti! Yaşasın müstəqil Azərbaycanın azad əmələ bayramı! Yaşasın Müsavat!" yazılmışdı. Bu sırada, Bayıl, Bibiheybət tərəflərindən, Fəhlələr Klubu meydanından, Parapetdən, Çornı-qorod, Vağzal rayonundan və Mədən dairələrindən türk və xarici fəhlələr öz bayraqları ilə bərabər axın-axın Hürriyyət meydanına gəlirdilər.

Musiqilər "Marselyeza" tərənnüm edirdi. Fəhlələrin əllərində tutulmuş qırmızı bayraqlar arasında "Müsavat" dəstəsindən başqa heç birində milli bayraq görünməyirdi.

Bayraqlarda yazılmış sözlərin arasında heç birində "Azərbaycan" kəlməsi, "Azərbaycan istiqlaliyyəti" yazıları yox idi. Hətta Parlamanda, hökumətdə belə oturmuş olan "Hümmət" sosial-demokrat firqəsi "Azərbaycan" sözünü unutmuşdu. Həpsində beynəlmiləliyyət, Şura Hökuməti və kommunizm sözləri görünürdü.

Saat 11 radələrində Çornı-qoroddan gələn böyük bir dəstənin arxasından "Mən bir türkəm!.." nəğməsi eşidildi. Bir-iki yüz 8-9 yaşlarında ayaqyalın türk çocuqları əsgəri nizam ilə qayırma silah çiyinlərində olaraq Hürriyyət meydanına qoşur, böyük cahan bayramında iştirak etmək istəyirdi.

Çocuqlarımızı öz aralarından şəxslər idarə edirdilər. Qabaqlarında "Yaşasın hürriyyət, rədd olsun istibdad!" sözləri yazılmış qırmızı inqilab bayrağı yellənirdi.

Çocuqlar Hürriyyət meydanına bir az qalmış yenə "Mən türkəm!" marşını oxudular. Hürriyyət meydanında nizamla xüsusi bir yer tutub durdular.

Saat 12 radələrində bütün rayonların, məhəllələrin və firqələrin dəstələri bayraq və musiqiləri ilə Hürriyyət meydanının ətrafını bürümüşdülər. Natiqlər nitqə başladılar. "Müsavat" firqəsi nümayəndələrindən başqa, yerdə qalanları həpsi müttəhid [birləşmiş] görünürdülər. Sosialisti, kommunisti, eseri, Hümməti, Ədaləti – hamısı Şura Hökumətini tərif və arzu edirlərdi. Bunlardan ancaq Azərbaycan sosial-revolyusionerləri bu "Şura"nı Azərbaycan dairəsində görmək istəyirdi. Qalanı ümumiyyətlə Moskvanı çağırırdılar.

"Müsavat" firqəsi tərəfindən bir çox natiqlər nitqlər irad edib [nitqlər söyləyib], müstəqil Azərbaycanın azadə zəhmətkeş xalqını təbrik etdilər. Bu vaxt zurna və musiqi çalınır, hürriyyət nəğməsi, "Azərbaycan marşı" və "Marselyeza" oxunurdu.

Hürriyyət meydanından hamısı Dənizkənarı, Sadovı, Nikolayevski təriqi [yolu] ilə Parlamana doğru yönəldilər. Nikolayevski küçədə dəstələr ingilis ştabı qarşısında durub bir neçə nitq irad olundu. Oradan Parlaman qarşısına gəldilər və "Müsavat" firqəsinin irəlicə hazırlanmış musiqi dəstəsi tərəfindən milli hürriyyət nəğmələri ilə qarşılandılar. Görüşük bir səmimiyyət rəngini göstərirdisə də, rus kommunistləri və müsəlman sosialistləri danışmaqla bu zahiri səmimiyyət pozuldu. "Müsavat"dan başqa hamısı Şura bolşevikindən danışır, "Yaşasın Azərbaycanın Şura Hökuməti!" deyirdi.

"Müsavat" firqəsi tərəfindən "şuraçı istiqlaliyyətçilərə" və hökumətdə oturub da Moskvaya tabe olmağı arzulayanlara cavabən Səməd bəy Əliisgəndərov, Abbasqulu Kazımzadə, [Məhəmmədzadə] Zülfüqar nitqlər söylədilər. "Bizə bolşeviklər lazım deyil, bolşeviklərin verdikləri hənuz gözümüzün qabağında" – deyə İsmailiyyəni göstərdilər. "Bizə istiqlaliyyət lazımdır. O istiqlaliyyət üçün də lazım gəlsə və mümkün olsa, biz Şura Hökuməti də qura bilərik" – dedilər və camaatın alqışlarına nail oldular. Buradan dəstələr saat 4 radələrində dağılmağa başladılar.

## AZƏRBAYCANDA

**Gəncədən**

Xüsusi müxbirimizdən:

Quzu dərisinə girib Avropada mərsiyəxanlıq edən Daşnak firqəsi yenidən dişini göstərməkdədir. Bizdə olmayan və olmasına heç ehtimal verilməyən xunxarlığı [qaniçənliyi] bizə isnad verib, bizim qanımızla özlərinə "Böyük Ermənistan imperatorluğu" yaratmaq istəyənlər indi də Azərbaycanın Göyçəsinə saldırmışdır. Türk və müsəlman olduğu üçün köylər, qəsəbələr bir-birinin ardınca yandırılmaqdadır.

Bu sətirlər yazıldığı vaxt 35-ci köyə hücum edildiyinin xəbəri gəldi. Gəncə və qəza Göyçə mühacirləri, əlsizayaqsızları ilə doludur. 15000-ə qədər erməni əsgəri yollarındakı müsəlman köylərinə erməni millətinin sətvətindən [gücündən] (?) dərs verirlər. Ermənilərin hücumu davam edir. Sülh və müsalimətdən [əmin-amanlıqdan] dəm vuran Avropaya qarşı göyçəlilər isyan etmişlər imiş. Daşnakların bu xunxarlığı bəlkə Avropada bəşəriyyətə bir xidmət hesab edilməkdədir.

Burasını da ərz etmək istəyərdim ki, Qars həvalisində [tərəflərində] büsbütün yox edilən 22 türkman köyünün günahı nə isə, göyçəlilərin də odur. Hasili, haqsızlıq son dərəcəyə qədər çıxdı. Buna səbəb olanların bu işlər gözünə nə vaxt soxulacaqdır, bilməm ki. Tiflisə sərhəd məsələsini həll etmək üçün nümayəndə göndərən Ermənistan Hökuməti bizi əmri-vaqe [fakt] qarşısındamı bulundurmaq istəyir? Biz müəmmaları həll etmək istərkən, nə vaxta qədər yeni müəmmalar qarşısında bulunacağız, ya rəbbi?

Şimaldakı Denikinin müqabilinə sərbəst gedə bilmək üçün bu tərəfi təmin etmək sırası gəldiyini daşnaklar özləri anlatmaq istəyir. Hər halda, bunun önünü almaq üçün millət və hökumət qəti davranmalıdır. Azərbaycanın üstünə gələn düşmən bütün firqələrimizin, istiqlalımızın, vətənimizin düşmənidir. Heç olmazsa günahkarların üzünə tükürülsün.

**Yeni vali**

Hökumət tərəfindən Rəfibəyli Xudadad bəyin Gəncəyə vali təyin edilməsi əhalidə böyük bir sevinc oyatmışdır. Xudadad bəyin indiyə qədər göstərmiş olduğu mətanəti, doğruluğu həpimizin məlumumuzdur. Məmləkətin ən ağır bir vaxtında ən mühüm və ən ağır vəzifəni öhdəsinə alan Xudadad bəyin müvəffəqiyyəti üçün dualar edən vətənpərvərlər pək çoxdur. Hələ bahalığın əlindən təngə gəlmiş olan füqəra sinifinin sevincinin dərəcəsi ölçülməz. Cənabi-Haqq müvəffəq etsin.

*Gəncə müxbiri*

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Daxiliyyə nazirinə müraciətən Şamaxı və Kürdəmirdə olan ziraət makinaları[nı]n [kənd təsərrüfatı maşınlarının] siyahısını tərtib və Nəzarətə təqdimini rica etmişdir. Böylə makinalar qaçqınlar və əhalinin ziraət işlərinə lazım olduğu üçün cəm ediləcəkdir.

**Mühəndislərə müavinət**

Bakı qubernatoru Cavad və Göyçə uyezd naçalniklərinə müraciətən rica etmişdir ki, məzkur uyezdlərə [deyilən qəzalara] Kür çayı yaxınlığında olan körpülər və qeyri təmirat işləri üçün göndərilmiş olan mühəndislərə uyezd məmurları tərəfindən lazımi müavinət və müzahirət [köməklik] göstərilsin.

## TEATRO VƏ MUSİQİ

**"Leyli və Məcnun"**

Bu gün, may ayının 4-də, yekşənbə [bazar] günü axşam Hökumət Teatrosunda Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən bu mövsümdə axırıncı dəfə olaraq "Leyli-Məcnun" operası təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır. Məcnunun rolunu Sarabski və Leylinin rolunu Ağdamski ifa edəcəkdir. Tamaşa axşam saat 8-in yarısında başlanacaqdır. Biletlər teatrın kassasında satılır.

**İtibdir**

Təxminən 4 gün bundan irəli mən Möhsün Hacıağazadə bir göy cildli cib dəftəri itirmişəm. İçində bir neçə dənə qəbz və kiftansiya, 150 manat pul dəxi var idi. Onu tapan şəxsdən acizanə təvəqqe edirəm, pulu özü götürüb dəftəri və qəbzləri 100 manat bəxşiş olaraq gətirib bu ünvana versin: Naberejni küçə, "Fenomen" teatrosu qarşısında Hüseynovun evində Ağaəli Əkbərov və Məhəmməd Rəhimovun zərgər dükanı.

*8744*

**İtibdir**

Gülabətin Məmiş qızı 9 yaşında 3-cü uçastokda 2 aydır itibdir. Onun barəsində məlumatları olanlardan acizanə xahiş edirəm bu adresə xəbər versinlər. 2-ci Xrebtovaya küçə, nömrə 72, Qaraş İsmayıl oğlu.

*8758*

**Elan**

Bu il 9 mart tarixli 5 nömrəli məsləhətnamə ilə Sabunçu camaatının iclası müqərrər edildiyinə [qərarlaşdırıldığına] görə, Sabunçuda, 3-cü dalanda (tupik) vaqe [yerləşən] mərhum Əsgərəli Cavad oğlunun yetimlərinə məxsus 68 nömrəli ev bu may ayının 5-də düşənbə [bazar ertəsi] günü müzayidə [hərrac] ilə satılacağından, həman evi almaq istəyənlər yövmi-məzkurda [deyilən gündə] saat 2-də, məzkur [deyilən] evin həyatinə gəlsinlər.

*Qəyyum: Süleyman Süleymanzadə*
*8746*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Diş həkimi M. B. Şternin**

Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə. Süni dişlər qayırır. Qızıl ənglər və damaqlar qayırır. Dişləri ağrısız çəkir.

*8757*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*8057*

Doktor **M.M.Kərimov** göz naxoşlarını və diş həkimi **A.Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Məclisi-Məbusanında***

"İki natiqə söz verirəm.": qəzetdə "söz" yerinə "səs" getmişdir.

***Türkiyəyə təklif olunan sülh şəraiti***

"Dədəağac": Yunanıstanın şimal-şərqində şəhər; Aleksandrupolis.

"Gümülcinə": Yunanıstanın şimal-şərqində şəhər; Komotini.

"üç sancaq": (Əlviyeyi-səlasə) Batum, Qars və Ərdahan sancaqları nəzərdə tutulur.

"Şəttülərəb": İran və İraq ərazisində çay.

"Düyuni-ümumiyyə": Osmanlı dövlətinin xarici və daxili borcları və bu borclara nəzarət edən qurum.

***Teleqraf xəbərləri***

"Spa": Belçikanın cənub-şərqində yerləşən Spa şəhəri nəzərdə tutulur.

"spartaklar": Almaniyada fəaliyyət göstərmiş marksist təşkilat olan Spartak İttifaqının üzvləri nəzərdə tutulur.

***Sülh ətrafında***

"Üçlər Şurası": Paris Sülh Konfransının gedişində dörd böyük dövlətin liderlərindən (ABŞ prezidenti Vudro Vilson, Britaniya, Fransa və İtaliya Baş nazirləri Lloyd Corc, Jorj Klemanso və Vittorio Orlando) əmələ gələn Dördlər Şurası mövcud idi. Bəzən İtaliya Baş naziri Orlando olmadan yığışan Şura isə "Üçlər Şurası" adlanırdı.

"Exo de Pari" [L'Écho de Paris]: 1884-1944-cü illərdə Parisdə nəşr edilmiş gündəlik qəzet.

"Almaniya Milli Məclisi": söhbət, Veymar Respublikasını quran və yeni Konstitusiya qəbul edən Veymar Müəssislər Məclisindən [Weimarer Nationalversammlung] gedir.

***Türkiyədə***

"ənqa mahiyyətini mühafizə edir": "Ənqa" yaxud "simurq", əfsanəyə görə Qaf dağında yaşayan çox iri bir quşun adıdır və insanların bu quşu gözlə görməsi demək olar ki, mümkün deyil. Bu xüsusiyyətinə görə, "adı olub, özü olmayan" şeylər barəsində "ənqa kimi" ifadəsi işlədilir.

"Lazistan": Türkiyədəki etnik qruplardan olan lazların yaşadıqları əraziyə verilən ad; Osmanlı dövlətində Trabzon vilayəti daxilində Lazistan sancağı mövcud olmuşdur. Lazistan sancağının inzibati mərkəzi əvvəllər Batum, Batumun ruslar tərəfindən işğal edilməsindən sonra isə Rizə şəhəri idi.

"...əksinə veriləcək müqərrəratın...": qəzetdə "müqərrəratın" yerinə "müqəddəratın" getmişdir.

***Rus ticarətinin tarixi***

"1861-ci ildə kəndlilər azad oldu.": Rusiyada təhkimçilik hüququnun ləğv edilməsindən söhbət gedir; qəzetdə "1861" yerinə səhvən 1891" getmişdir.

***Vükəla Şurasında***

"20 milyon fonddan...": qəzetdə bu cümlə, özündən sonra gələn abzasla birləşdirilmişdir: "20 milyon fonddan Maarif nazirinin Müsəlman Ünas Cəmiyyəti-Xeyriyyəsi cənbindəki hünər [peşə] məktəbinə xərc olunmaq üçün 100 min rublə buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir: İstənilən məbləğ 20 milyon fonddan buraxılsın." Belə görünür ki, əvvəlki xəbər yarımçıq qalmışdır.

***Azərbaycan Dəmiryol Qulluqçuları Syezdi***

"Sədr": İclasa İzmail Laleviç sədrlik etmişdir.

***Sənətkarların təmənnası***

"Azərbaycan" qəzetəsinin 166-cı nömrəsində oxudum, dördgözlü olmalıq.": Üzeyir Hacıbəylinin "Azərbaycan" qəzetinin 25 aprel 1919-cu il tarixli 166-cı nömrəsində dərc edilən "Dördgöz olmalıyıq" adlı məqaləsi nəzərdə tutulur.

***Bakı xəbərləri: İdilboyu türkləri***

"bu gün 5 mayda": güman ki, "4 mayda" olmalıdır.

"cuyolış": iclas (tatarca)

"Qaldırılacaq məsələlər": qəzetdə "Qaralacaq məsələlər" getmişdir.

***Bakı xəbərləri: Hadisat***

"Aziatski": Bakıda, indiki Əlövsət Quliyev küçəsi.

"Malakanski": Bakıda, indiki Xaqani küçəsi.

***Azərbaycanda***

"sətvətindən (?) dərs verirlər": sual işarəsi qəzetdə getmişdir.





# Mədəniyyət





Musiqi xadimlərimiz

## "Mən çox xoşbəxtəm ki, belə bir tarixi mərhələyə şahidlik edirəm"

**Sözü, söhbəti gözəl bir musiqiyə bənzəyir. Danışdıqca dinləmək istəyirsən. Dinlədikcə də düşünürsən... Adı qədər özü də aydın adamdır. Yaşı 80-ni haqlasa da, ürəyi arzularla doludur. Planlarından danışarkən, bir cümlə ilə belə ifadə etdi: "İndiyə kimi etmədiklərimi etmək istəyirəm. Məni yaşadan yazmaq, yaratmaq həvəsidir". Deyir ki, hər kəs üzərinə düşən işi vicdanla görməlidir. Əgər belə olarsa, Vətən vətəndaşından yarıyar. Nikbindir... İnamlıdır... Qürurludur...**

"Dövlətimlə, xalqımla, qələbəmizlə qürur duyuram. Bu xalqın oğlu olduğum üçün fəxr edirəm", - deyir həmsöhbətimiz bəstəkar Aydın Əzimov.

Aydın Kərim oğlu Əzimov 1946-cı il mayın 1-də Bakının Əmircan kəndində anadan olub. 1964-cü ildə A.Zeynallı adına Musiqi Texnikumunun (indiki A.Zeynallı adına Musiqi Kolleci) Nəzəriyyə fakültəsini bitirib. Daha sonra təhsilini Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında davam etdirib. Dünyaşöhrətli bəstəkar Qara Qarayevin sinfində oxuyub. 1968-1996-cı illərdə Azərbaycan Dövlət Teleradio Komitəsində, radionun Musiqi verilişləri baş redaksiyasında kiçik redaktor, böyük redaktor, şöbə müdiri, radionun səsyazma evində səs rejissoru, baş rejissor, Azərbaycan Dövlət Teleradio Komitəsi bədii kollektivlərinin və səsyazma evinin müdiri, "Azərbaycantelefilm" Yaradıcılıq Birliyinin baş məsləhətçisi vəzifələrində çalışıb. 1996-cı ilin sonundan Türkiyə Respublikası Mersin Universiteti Dövlət Konservatoriyasından iş üçün dəvət alan bəstəkar Aydın Əzimov 2005-ci ilə qədər qardaş ölkədə çalışıb. Qardaş ölkədəki fəaliyyətindən danışan sənətkar qısaca belə dedi: "Mersin Universitetində bəstəkarlıq şöbəsini mən təşkil etmişəm".

2005-ci ildən Bakı Musiqi Akademiyasının Bəstəkarlıq kafedrasının professoru Aydın Əzimov eyni zamanda BMA-nın elmi laboratoriyasının fəal əməkdaşlarındandır.

Yüzlərlə musiqi əsərinə həyat verən Aydın Əzimov həm də Dövlət himnimizi yenidən bərpa edən və işləyən bəstəkar kimi də musiqi mədəniyyətimizə öz möhürünü vurub. Eyni zamanda Müdafiə Nazirliyinin orkestrinin təşkil olunmasında əvəzsiz xidmətləri ilə tanınan bəstəkarın təklifi ilə hərbi orkestrə milli alətimiz olan zurna da daxil edilib. "Sonata-poema" əsəri 11 illik musiqi və incəsənət məktəblərinin tədris proqramlarına salınıb.

Musiqimizin bu günündən danışarkən ustad sənətkar dedi: "Bəxtiyar Vahabzadənin çox gözəl bir şeiri var - "Axı dünya fırlanır". Dünya fırlandıqca da, çox şeylər dəyişir... Bu təbiidir. Əsas odur ki, dayanıb yerimizdə saymırıq, hərəkətdəyik. Özü də çox uğurla yeni bir çağa getməkdəyik. Artıq o köhnə dövran bitmişdir. Həyatın da, tarixin də fazaları, dönəmləri var. Biri başlayır, inkişaf edir, öz işini görüb hardasa tamamlanır. Sonra geriyə gediş olur. Yeni mərhələyə keçmək üçün hazırlıq dönəmi başlanır. Xüsusi olaraq vurğulamaq istəyirəm ki, bu çox önəmli bir dönəmdir. Keçmişdə olan böyük inkişafın böyük də dərsi olur. Orada insanlar bəlkə də böyük bir yüksəlişin təməlini qoyurlar. Mən belə düşünürəm ki, artıq musiqimizdə də yeni çağ başlamaqdadır. Onun hazırlığı getməkdədir... Azərbaycan xalqının tarixində gözlərimiz önündə çox böyük hadisələr baş verir. Mən çox xoşbəxtəm ki, belə bir tarixi mərhələyə şahidlik edirəm. Hələ də bizim bir çoxumuz, bunu dəyərləndirə bilmirik. Təbii ki, bunun davamı da çox böyük olacaq. İnsanlarımız da buna hazır olmalıdır...

Birmənalı olaraq bu belədir ki, bütün müharibələr, çaxnaşamalar, sənətə böyük zərər verir. Ötən əsrlərə baxsaq



nə görərik? İnsanlara cox ciddi zərər verən böyük müharibələr...

Birinci və İkinci Dünya müharibələri dünya musiqi mədəniyyətinə böyük zərər vurdu. Cəmiyyətdə müxtəlif anamaliyalar meydana gəldi. Buna baxmayaraq, Azərbaycan musiqi sənətində böyük hadisələr baş verdi. Azərbaycan xalqının musiqi mədəniyyəti tarixində Üzeyir bəyin musiqiyə gəlişi fövqəladə, böyük bir hadisədir.

Əbdülqadir Marağayidən sonra Azərbaycanda böyük musiqi hadisəsi baş verməmişdi. Fəqət Üzeyir bəyin gəlişi Azərbaycan musiqisinə yeni nəfəs gətirdi. Mədəniyyət tariximizdə yeni mərhələ başladı.

Bu məqamda bir məsələyə də münasibət bildirmək istəyirəm. Belə deyirlər ki, Üzeyir bəy Azərbaycan professional musiqisinin banisidir. İcazə verin deyim ki, bu yanaşma doğru deyil. Azərbaycan professional musiqisinin çox minillik tarixi var. Musiqi ilə bütün xalqımız, hətta şahlarımız, xanlarımız da məşğul olublar. Azərbaycan professional musiqisinin tarixi IX əsrdən bir qədər də əvvələ gedir. Üzeyir bəy özü deyir ki, ona kimi Azərbaycan xalqı Səfiəddin Əbdülmömin Urməvi və Əbdülqadir Marağayi, Əbu Əli İbn Sina kimi alim və bəstəkarlar yetişdirmişdir. Bütövlükdə türk dünyasını götürsək, Əl Fərabi kimi böyük dühalar yetişdirmişdir. Hər bir xalqın folkloru olur. Onun zəminində professional musiqi yaranır. Üzeyir bəy Şərq mədəniyyəti tarixində partlayışa səbəb olan "Leyli və Məcnun"u nəyin əsasında yazmışdı? Azərbaycan xalqı qədər folklorun üzərindən professional musiqi sistemi yaratmaq heç bir xalqa nəsib olmayıb. Üzeyir bəy zamanının fəlsəfəsinə əsaslanaraq, yəni bizim şanlı bayrağımızın üzərində hansı rənglər varsa, o fəlsəfə əsasında Avropa musiqisinə doğru qapı açmışdır.

Burada bir məqama da diqqət yetirmək olduqca vacibdir. Mən Avropa musiqisinə inteqrasiya etdi demədim. Belə deyək ki, dünyada bir musiqi bazarı var. Gərək hər kəs bu bazarda öz malını sata. Mədəniyyətdə, musiqidə inteqrasiya olmur, bir-birindən öyrənmə olur. Bir-birinə baxıb təsirlənmə olur. Üzeyir bəy də bu bazara öz musiqimizlə çıxdı...

Çox qısa zamanda çox böyük iş gördü. Ona kimi musiqinin nota yazılması yox idi. Musiqinin nota yazılmasını Üzeyir bəy gətirdi. Bundan sonra inkişaf istiqamətləri canlandı. Musiqi təhsil sistemini yaratdı. Beləliklə, musiqinin inkişafının yeni bir mərhələsi başlandı... Və bu məktəbin davamçıları yetişdi. O bir mərhələ idi. Musiqidə maarifçilik mərhələsi. İndi musiqidə maarifçilik mərhələsi də bitibdir.

Bunu niyə dedim. Əsas odur ki, biz özümüzü tanımalıyıq. Bizim böyük musiqi mədəniyyətimiz var. Bizim muğamlarımız var. Bizim muğamlardan da qədim aşıq musiqimiz var. Bütün bunlar daha dolğun şəkildə öyrənilməlidir. Üzeyir bəy Azərbaycan xalq musiqisinin əsaslarını yazdı ki, musiqimiz inkişaf etsin.

İndi üzərimizə düşən odur ki, maarifçilik dönəmi, Avropa dönəmi üzərində özümüzün türk dünyası, Şərq dünyası musiqi texnologiyasını yaradaq.

### Böyük qələbə böyük musiqinin yaranmasına səbəb olacaq

30 il idi ki, bizi zorla müharibəyə cəlb etmək istəyirdilər. Gəlin biz 30 illik bu prosesi müharibə yox, haqlı davamız adlandıraq. 30 il haqqımız uğrunda dava etdik və haqq qalib gəldi. Mənə elə gəlir ki, bu hadisənin qavranması çox vaxt aparacaq. Dediyim kimi, çox böyük hadisə baş verib. Azərbaycanın haqq savaşı yüz illiklərdən sonra əldə edilən ilk qələbədir. Digər tərəfdən də bu, Azərbaycanın Yer üzündə sözünü deməsidir. Son 500 ilin tarixini götürsək, bu böyüklükdə qələbə olmayıb...

Etiraf edək ki, hələ də bizim mədəniyyət xadimləri bu hadisəni düzgün qavraya bilməyiblər. Hələ o səviyyəyə çatmamışıq ki, bunu gerçəkdən dəyərləndirib bu hadisələrə layiq bir əsər yaza bilək. Mən zamanında Dövlət himnimizi bərpa edən bəstəkaram. Əhməd Cavadın "Bayrağım" şeirinə oda yazmışam. Bununla qürur duyuram.

İnanıram ki, bundan sonra daha gözəl əsərlər yaranacaq. Buna çox az vaxt qalıb. İndi himnimiz Azərbaycanın hər yerində səslənir. Gerbimiz haqqında musiqinin üzərində işləyirəm. Ömür vəfa etsə, tezliklə tamamlayaram. Bundan sonra dünyadan köçsəm də, deməyərəm az iş görmüşəm. Düşünürəm ki, çox əzəmətli bir əsər olacaq.

### Hər bir bəstəkarın öz həyat yolu var

Yer üzündə elə bir bəstəkar yoxdur ki, teatr üçün musiqi yazmasın. Elə bəstəkarlar da var ki, onu teatr musiqisi ilə daha çox tanıyırlar. Edvard Qrik, Menderson, Bethoven bəstəkarlığa teatr musiqisi ilə başlayıblar. Motsart opera teatrı ilə bağlı olan bəstəkardır. Hər bir bəstəkarın öz həyat yolu var. Teatrı çox sevən insanam. Gəncliyimdə teatr üçün çox musiqi yazmışam. Belə deyək ki, ən gözəl tamaşalara musiqi yazmışam. Mehdi Məmmədov, Hüseynağa Atakişiyev, Mürsəlov kimi rejissorlarla işləmişəm. Azərbaycanda elə bir teatr yoxdur ki, mən o teatr üçün musiqi yazmamış olum.

Teatr hər bir xalqın həyatının bir parçasıdır. Onun mədəniyyətinin simasıdır. Yeri gəlmişkən, deyim ki, düşmənlərimiz bunu bildikləri üçün Qarabağ hadisələri başlayanda ilk olaraq opera teatrını yandırdılar. İlk böyük zərbəni onda aldıq. Bununla musiqi mədəniyyətimizə böyük bir zərbə vuruldu. Ardınca Musiqili Komediya Teatrı da öz işini dayandırdı. Zaman keçsə də, indiyə kimi onun fəsadını yaşayırıq. Səhnə olmadığı üçün opera musiqisi də yazılmadı...

Mədəniyyətin inkişafından danışanda, musiqili teatrların saat kimi işləməsini böyük əhəmiyyətli amil kimi qəbul etməliyik. Əgər belə deyilsə, demək ki, mədəniyyət iflic olub.

### Hamılıqla musiqi təfəkkürümüzü də dəyişməyə çalışmalıyıq

Bəstəkar Aydın Əzimov deyir ki, vaxtı olanda daha çox klassik musiqilərə qulaq asıram. Klassik sözü mükəmməl, yüksək səviyyə deməkdir. Keçmişdə bizim musiqi məktəblərində, əsasən, Avropa musiqisi tədris olunurdu. Avropa musiqisini dinləyərək böyümüşəm. Gərək biz öz musiqimizi, öz klassikamızı sevək. Mənim üçün Hacıbaba Hüseynov da, yaxşı aşıq musiqiləri də, Bethoven də, hind raqaları da, qədim Çin operası da mükəmməl musiqidir. Azərbaycan bəstəkarı Soltan Hacıbəyovun "Karvan" simfonik lövhələri əsəri orkestr şedevridir. Musiqi dinləmək də dönəmə baxır. İndi özümün fortepiano üçün yazdığım "Axar su" əsərimi daha çox dinləyirəm. Qustav Möllerin simfoniyalarını çox sevirəm. Ən çox dinlədiyim müğənni Maykl Ceksondur. Bill Levinsonun caz musiqisini dinləməkdən zövq alıram. Məsələ burasındadır ki, indi biz hamılıqla musiqi təfəkkürümüzü də dəyişməyə çalışmalıyıq. Böyük bəstəkarlarımızın gördüyü işlər hesabına biz artıq Avropa musiqisinə yaxşı bələdik. Gənc musiqiçilər artıq bütün janrlarda musiqi yaza bilirlər. İndi bizə hərtərəflilik lazımdır. Azərbaycan bəstəkarı həm Qərb, həm də Şərq musiqisini yaxşı bilməlidir. Bu olmasa, yeni mərhələ də alınmayacaq.

### Bəstəkar musiqinin xiridarıdır

Bəzən məndən soruşurlar, Musiqi Akademiyasının bəstəkarlıq kafedrasının müdirisiniz. Bu qədər tələbə yetişdirirsiniz. Vaxtında Qara Qarayevlər, Fikrət Əmirovlar yetişirdi. İndi onlardan niyə yoxdur? Onu da deyim ki, bu kafedranın təməli Üzeyir bəy tərəfindən qoyulub, Qara Qarayevin səyi ilə çox böyük bir yol keçib. Deyirəm ki, vaxtında Qara Qarayevlər də, Fikrət Əmirovlar da indiki gənclər kimiydilər. Təzə konservatoriyanı bitirmişdilər. Onlara radioda, televiziyada təbliğ edilmələri üçün, yazdıqlarını o andaca səsləndirmək üçün imkan yaradırdılar. Onların haqqında verilişlər hazırlanır, qəzet və jurnallarda yazılar dərc olunurdu. Dövlət onlara maddi və mənəvi dəstək olurdu. İnsanlar onları televiziyadan tanıyırdılar. Əsərlərini dinləyirdilər. Beləcə, onlar gəlib Qara Qarayev, Fikrət Əmirov oldular. Azərbaycan xalqı çox istedadlıdır. Çox da istedadlı gənclərimiz var.

Bir baxın televizoru açmaq olmur. Bizim televiziyalara az baxıram. Ümumiyyətlə, baxmıram. Baxdığım da informasiya almaq xatirinədir. Yeni bir bəstəkarın əsərini vermirlər. Radioda da onların əsərlərini eşitmirik. Artıq belə musiqiyə dəyər verilmir.

Əvvəllər mən teatra gedib musiqi yazırdım. Onun maddi tərəfi də var idi. İndi nə tələbələrimi çağıran var, nə də musiqi sifariş verən. Böyükhəcmli əsərlər var. Nə təbliğatı var, nə də maddi təminatı. Ona görə də bəstəkarlar sənəti atıb başqa işlə məşğul olurlar.

Bu gün cürbəcür adamlar televiziyaya çıxıb deyirlər ki, mən bəstəkaram. Nə ondan sənətini soruşan olur, nə də onun necə bəstəkar olduğunu bilən var.

Allahın istedad verdiyi adamlar var. İstisnalar olur. Elə adamlar var heç bir musiqi təhsili olmasa da, gözəl bir musiqi yaza bilir. Amma ona bəstəkar deməzlər. Mədəni yerlərdə deyirlər ki, musiqisi filankəsə aiddir. 27 il radio və televiziyada işləmişəm. Mahnımı orada səsləndirmək üçün çəkmədiyim əziyyət qalmırdı. 4 mahnı gətirirdim, biri keçirdi. İndi kim bunu dəyərləndirir? Artıq dinləyicilərin də zövqü korlanıb. Yaxşı musiqini seçə bilmirlər. Bəstəkar musiqinin xiridarıdır, musiqinin canını, ruhunu bilən adama deyilir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## "Azərbaycan Atabəyləri" bədii-sənədli filminin qala-premyerası olub

**Heydər Əliyev Mərkəzində "Azərbaycan Atabəyləri" bədii-sənədli filminin qala-premyerası olub.**



Azərbaycan Televiziyası, "Şahdağfilm", Türkiyənin "İkinci Yeni Film", "Patik Prodüksiyon" və "Ernet Grup" prodakşnlarının birgə səyi ilə ərsəyə gələn filmdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi eyni zamanda Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) rəsmi tərəfdaş qismində yer alır.

Premyerada rəsmi qonaqlar, filmin yaradıcı heyəti, incəsənət xadimləri və digər şəxslər iştirak ediblər.

Filmin təqdimatından əvvəl "Ernet Grup" prodakşnın rəhbəri Eray Ucuzal AZƏRTAC-a açıqlamasında "Azərbaycan Atabəyləri" bədii-sənədli filminin gələcəkdə serial olaraq davam etdiriləcəyini, bu istiqamətdə hazırlıq işlərinin görüldüyünü bildirib. "Bu film Azərbaycan tarixini anladan gözəl bir layihə oldu. Azərbaycanla bağlı daha böyük layihələrdə yer almağı düşünürük", - deyə o qeyd edib.

"Azərbaycan Atabəyləri" filminin baş rol ifaçısı, idman ustası, məşhur kikboksçu Zabit Səmədov isə filmlə bağlı təəssüratlarını bölüşərək, belə bir məsuliyyətli rolu ifa etməkdən qürur duyduğunu bildirib. O, filmin qısa müddət ərzində uğurla ərsəyə gəldiyini qeyd edib.

Filmdə Zübeydə Xatun rolunu ifa edən tanınmış teleaparıcı Jalə Həsənli filmin çəkilişləri zamanı mövcud atmosferin insanı sanki həmin dövrlərə apardığını bildirib. O, özünün iştirak etdiyi səhnələrin rahat mühitdə çəkildiyini, lakin döyüş səhnələrinin daha ağır və çətin olduğunu söyləyib.

Sonra "Azərbaycan Atabəyləri" bədii-sənədli filmi nümayiş olunub.

Film Orta əsrlərdə yaşamış türk dünyasının iki böyük tarixi şəxsiyyəti, cəsur sərkərdələr - Qara Sunqur və Atabəylər dövlətinin qurucusu Şəmsəddin Eldənizin hekayəsindən bəhs edir.

Filmin quruluşçu rejissoru Məcit Güvən, ssenari müəllifləri Sərvər Bayramov, İlqar Mehti, Səxavət Sahil və Ərcan Kayadır. Prodüserlər eyni ilə İlqar Mehti, Sərvər Bayramov və qardaş Türkiyədən "İkinci Yeni Film"i təmsil edən Furkan Bəsli, quruluşçu rəssam isə Zəfər Malkoçdur.

Digər əsas rollarda isə Xalq artisti Mehriban Zəki (Möminə Xatun), Əməkdar artist Bəhruz Vaqifoğlu (Məhəmməd Cahan Pəhləvan), Jalə Həsənli (Zübeydə Xatun), Günay Əhməd (Laçın), Tural Əhməd (Arslan Şah), İlqar Musayev (Candar Çavlı), Səmimi Fərhad (Vəzir Əl-Xəzni), Samir Qulamov (Gəncər bəy), Salam İsmayılov (Şeyx İmad), Türkay Cəfərli (Şeyx İmadın köməkçisi), Rəşad Kəsəmənli (Sərkərdə), Hidayət Əliyev (Sultan Məsud) və ölkəmizin digər dəyərli sənətçiləri yer alır.

Filmdə 100-dən çox aktyor epizodları canlandırıb, ümumilikdə isə heyətdə 500 nəfərdən çox insan çalışıb.

Film dekabrın 5-dən etibarən kinoteatrlarda nümayiş olunacaq.

## Azərbaycanın daha bir mədəni elementi UNESCO siyahısına daxil edilib

**Paraqvayın paytaxtı Asunsion şəhərində keçirilən UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 19-cu sessiyasında "Azərbaycanda təndir sənətkarlığı və çörəkbişirmə" adlı milli nominasiya faylının UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi qərara alınıb.**



Mədəniyyət Nazirliyindən bildirilib ki, UNESCO-nun Qiymətləndirici Orqanı tərəfindən müvafiq meyarlar üzrə müsbət rəy alan nominasiya faylına dair qərar dekabrın 3-də elan edilib.

Bununla da, UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında yer alan elementlərimizin sayı 24-ə çatdırılıb.

Qərarın elan edilməsinin ardınca çıxış edən ölkəmizin UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev Azərbaycan Respublikası adından UNESCO Qiymətləndirmə Orqanına və Hökumətlərarası Komitəyə xalqımızın mədəni irs nümunəsini dəstəklədiklərinə görə təşəkkür edib.

Sessiyada çıxış edən Azərbaycan mədəniyyət nazirinin müavini Səadət Yusifova, ilk növbədə, müsbət qərarın qəbuluna görə Qiymətləndirici Orqana və Katibliyə təşəkkür edib. Qədim ənənələrə söykənən təndir sənətkarlığının Reprezentativ Siyahıya daxil edilməsinin xalqımız üçün əlamətdar olduğunu vurğulayıb. Sürətlə müasirləşən dünyada mədəni irsin qorunması və gələcək nəsillərə çatdırılmasının xüsusi önəm daşıdığını qeyd edən S.Yusifova bu istiqamətdə Mədəniyyət Nazirliyinin təşəbbüslərindən də danışıb. COP29 çərçivəsində təqdim edilən İqlim üçün Mədəniyyət (C4C) təşəbbüsü haqqında məlumat diqqətə çatdırılıb.

Qeyd edək ki, "Azərbaycanda təndir sənətkarlığı və çörəkbişirmə" adlı nominasiya faylı Mədəniyyət Nazirliyi tərəfindən 2023-cü ildə Xarici İşlər Nazirliyi vasitəsilə UNESCO-ya təqdim edilmişdir. Elementin siyahıya daxil edildiyi 19-cu Sessiyada Mədəniyyət Nazirliyi, UNESCO yanında Daimi Nümayəndəliyimiz və UNESCO üzrə Milli Komissiya təmsil olunur.

Sessiya öz işini 7 dekabra qədər davam edəcək.

## "Yaxşı ssenarini əla ssenariyə necə çevirməli"

**Azərbaycan Kinematoqrafçılar İttifaqının maliyyə dəstəyi ilə tərcümə edilmiş növbəti kitab işıq üzü görüb.**




İttifaqdan bildirilib ki, amerikalı yazıçı, ssenarist, iki mindən çox ssenarinin məsləhətçisi olmuş, bir çox ölkədə seminarlar keçirmiş Linda Segerin "Yaxşı ssenarini əla ssenariyə necə çevirməli" ("How to make a good script great") kitabını Azərbaycan dilinə yazıçı, dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirli tərcümə edib.

Kitabda ssenarinin necə yazılması, maraqlı hekayənin necə qurulması diqqətə çəkilir. Linda Seger yazıçılara, kinodramaturqlara, rejissorlara və prodüserlərə yaxşı ssenarini əla ssenariyə çevirməyin yollarını izah edir. Ssenarinin doğru formada redaktə olunması ssenarist üçün sehrli bir gücdür. Məhz bu sehrli güc pis ssenarini daha yaxşıya, yaxşı ssenarini isə əlaya çevirə bilər.

Əli Əmirlinin kitaba yazdığı "Ön söz"də müəllifin nəşrdə ssenarinin yazılmasını və redaktəsi ilə bağlı yüksək peşəkarlıq səviyyəsində məsləhətlər verməsini, keyfiyyətli ssenarinin yazılma yollarının, sirlərinin konkret misallar üzərində göstərilməsindən bəhs edərək qeyd edir ki, kitabda kinossenarinin bütün komponentlərinə göstərilən tələblər araşdırılıb.

Azərbaycan Kinematoqrafçılar İttifaqı tərəfindən maliyyələşdirilən kitab Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinə və kinematoqrafiya sahəsində təhsil alan və çalışan gənclərə paylanılacaq. Kitabın nəşrinə məsul şəxs Azərbaycan Kinematoqrafçılar İttifaqının icraçı katibi rejissor Əli İsa Cabbarovdur.

# COP29-un əks-sədası gəlməkdə davam edir

## "Tədbirə evsahibliyi etmək Azərbaycanı qlobal iqlim diplomatiyasının mərkəzinə çevirdi"

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Bakıda öz işini başa vursa da, əks-sədası hələ dünyanın ayrı-ayrı regionlarından gəlməkdə davam edir. Planetin dördbir yanından COP29 və onun nəticələrindən soraq verən xoş sədanı eşitmək isə, təbii ki, qürurvericidir.**




Qlobal tədbirin yekunlarına dair qəbul olunmuş sənədlər və qərarlar çox vacib əhəmiyyətə malikdir. Bu əhəmiyyət nəinki iqlim gündəliyi, həm də siyasi baxımdan özünü göstərir. Çünki indi bir çox siyasi məsələləri məhz iqlim gündəliyi müəyyənləşdirir, ekologiya dünyada gedən siyasi proseslərə, həmçinin beşəriyyətin gələcək inkişafına əsaslı dərəcədə təsir göstərir.

COP29 əvvəlki sessiyalardan bir çox parametrlərinə görə fərqlənir, burada əldə olunan tarixi uğur hələ uzun illər xatırlanacaq. Şübhəsiz, Bakı sammiti inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan dövlətlərə münasibətlərində, məsuliyyətinin, öhdəliklərinin formalaşmasında mühüm uğur kimi qiymətləndiriləcək.

Məlumdur ki, hələ 2015-ci ildə Parisdə keçirilən beynəlxalq iqlim sammiti çərçivəsində vacib maliyyə məqsədli sənəd qəbul olunmuşdu. Amma həmin sənəd müxtəlif səbəblərdən uzun zaman idi yerinə yetirilmirdi. Çünki inkişaf etmiş ölkələr bu öhdəliyi yerinə yetirməkdən boyun qaçırır (halbuki bu, onların birbaşa vəzifəsidir), həmin sənəddə göstərilən maliyyənin miqdarını azaltmaq istəyirdilər. Bu da inkişaf edən ölkələrin qəzəbinə və narahatlığına səbəb olurdu. Bakıda keçirilən iqlim sammiti çərçivəsində əldə olunmuş razılıqlar hesabına isə dünyanın iqlim gündəliyi yeni mərhələyə qədəm qoydu. Bu, COP29-a evsahibliyi edən Azərbaycanı qlobal iqlim diplomatiyasının mərkəzinə çevirdi və ölkəmizə iqlim dəyişikliyi ilə mübarizədə önə çıxmağa imkan verdi.

Heç şübhəsiz, ətraf mühit, iqlim dəyişikliyi və dayanıqlı inkişaf kimi məsələlərə verdiyi əhəmiyyət beynəlxalq miqyasda Azərbaycanın nüfuzunu gücləndirəcək. Bu, o deməkdir ki, ölkəmizin gələcəkdə iqlim siyasətində daha fəal rol oynayaraq beynəlxalq müstəvidə bir sıra təşəbbüslərə rəhbərlik edə bilməsi şübhəsizdir. COP29-un Azərbaycanda keçirilməsi təkcə ölkəmizin beynəlxalq aləmdə mövqeyini gücləndirmək, ekoloji və iqlim siyasəti deyil, həm də innovativ iqtisadi inkişafın dəstəklənmək baxımından gələcəkdə ciddi faydalar gətirməsinə yol açıb.

Məhz bu səbəbdən dünya mediası ilə bərabər, siyasət adamları və iqlim mütəxəssisləri COP29-un nəticələri ilə bağlı öz müsbət fikirlərini söyləyir, mülahizələrini irəli sürürlər. Bu günlər Moldovanın "Noi.md" xəbər portalında rus və rumın dillərində dərc edilən "Azərbaycan COP29-da ekoloji diplomatiya sahəsində sıçrayış edib" sərlövhəli məqalədə nüfuzlu beynəlxalq konfransın təşkili, müzakirə olunan strateji mövzular barədə məlumat verilib. Məqalədə bildirilir ki, hətta gecə vaxtı aparılan mürəkkəb danışıqların nəticəsində "Bakı sıçrayışı" adlandırılan razılaşma əldə olundu: inkişaf edən ölkələrə 2035-ci ilədək iqlim maliyyəsi üçün ildə ən azı 300 milyard dollar ayrılacaq. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş tədbirin təşkilatçılarının peşəkarlığını xüsusilə yüksək qiymətləndirdi və könüllülərin mühüm töhfəsini vurğuladı. Yekun bəyanatında Quterreş COP29-da əldə olunan razılaşmanın iqlim dəyişikliyi ilə mübarizədə gələcək addımların əsasını qoyduğuna diqqət çəkdi. Məqalədə o da qeyd olunub ki, Prezident İlham Əliyev COP29-da əldə olunan razılaşmanı "epoxal mərhələ" adlandırıb.

İsveçin "Diplomatic World Sweden" saytı da noyabrda Bakıda keçirilən iqlim sammitinə məqalə həsr edib. Əsas auditoriyası diplomatlar, siyasətçilər, eləcə də akkreditə olunmuş diplomatik korpusun üzvləri olan saytda yer alan "Bakıda keçirilən tarixi COP29 iqlim konfransından sonra dünya, nəhayət, bir ümid şüası tapır" sərlövhəli məqalənin müəllifi yazır ki, forum iqlim dəyişikliyi ilə qlobal mübarizədə tarixi hadisəyə çevrilib. Sənayeləşmiş ölkələr hər il 300 milyard dollar ayırmağı öhdələrinə götürdülər ki, bu da əvvəlki planlardan 50 milyard dollar çoxdur. Məqalədə danışıqlara töhfə verən investorların və özəl sektorun rolu vurğulanır və sonda bildirilir ki, COP29 innovativ yanaşmalar, maliyyə ambisiyaları və beynəlxalq əməkdaşlığın qlobal çağırışların öhdəsindən necə gələ biləcəyini nümayiş etdirdi.

İtaliya mediasında isə Riqa Texniki Universitetinin tələbəsi Mehran Camalxanlının Bakının evsahibliyi etdiyi COP29-la bağlı məqaləsi dərc olunub. Yazıda tədbirin əhəmiyyətindən söz açan müəllif qlobal sammitin iqlim dəyişmələrinin mənfi təsirlərini azaltmaq və ekoloji problemlərin qarşısını almaq üçün mühüm platforma rolunu oynadığını vurğulayaraq bəzi Qərb ölkələri tərəfindən COP29-a qarşı aparılan boykotun nəticəsiz qaldığını diqqətə çatdırıb. Məqalədə zəngin təbii resurslarına baxmayaraq, Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə ciddi addımlar atdığı da qeyd olunub. Həmçinin ölkəmizin COP29 çərçivəsindəki fəaliyyətinin qlobal enerji təhlükəsizliyinin təmin olunmasına verdiyi töhfədən bəhs edilib.

Bir neçə gün əvvəl Türkiyənin "Milliyet" qəzetinə müsahibə verən Yeditepe Universitetinin tələbəsi Nazya Yürek və Bahçeşehir Universitetinin tələbəsi Kamil Koray Eryılmaz COP29-u ekologiya sahəsində üfüqlərin genişləndirilməsi və təcrübə toplanılmasına əhəmiyyətli töhfə adlandırıblar. Hər iki tələbə Türkiyənin "iqlim səfirləri"dir. Qeyd edək ki, Türkiyədə "İqlim səfirləri layihəsi" "yaşıl transformasiya" yolu ilə milli iqlim mübarizəsini həyata keçirmək səylərini gücləndirmək və iqlim siyasətinin planlaşdırılması, inkişafı və həyata keçirilməsində gənc nəslin effektivliyini artırmaq məqsədilə hazırlanıb. "İqlim səfirləri" layihəsi Türkiyənin 2053-cü il üçün xalis sıfır emissiya və "yaşıl inkişaf" hədəflərinə uyğun iqlim dəyişmələri ilə mübarizə və uyğunlaşmada gənclərin iştirakını gücləndirmək məqsədi daşıyır.

COP30 gələn il Braziliyada keçiriləcək. Estafeti Azərbaycandan qəbul edən bu ölkədə hazırlıqlar hələ ötən ildən başlasa da, COP29-a hazırlıqlar ərəfəsində yaradılan "üçlük" (BƏƏ, Azərbaycan və Braziliya) formatına uyğun işlərlə də diqqət çəkirdi. Bu günlər "üçlük" formatında COP29-da təşkil edilmiş ilk turizm günü üzrə keçirilən tədbirlər çərçivəsində Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev tərəfindən Braziliya Federativ Respublikasının turizm naziri Selso Sabinoya hədiyyə edilən ağacı Braziliyanın ilk milli turizm məktəbinin həyətində əkilib. Ağacı nazir Selso Sabino və COP30-un keçiriləcəyi paytaxtı Belem şəhəri olan Para ştatının qubernatoru Helder Barbalyo əkiblər. Nar tingi COP29-da ilk dəfə keçirilən turizm günündə əsası qoyulan turizmin iqlim dəyişikliyindəki rolunu qabardan təşəbbüslərin Braziliyada keçiriləcək COP30-da davam etdirilməsini simvolizə edir.

***Zülеyxa ƏLİYEVA,
"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə 2024-cü il üçün abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Cənubi Koreya hökuməti böhranla üz-üzə: kabinet üzvləri istefa verir

**Cənubi Koreyada dekabrın 3-də gecə saatlarında elan olunan və təxminən 6 saat davam edən hərbi vəziyyətdən sonra ölkədə siyasi gərginlik yaranıb.**



AZƏRTAC xəbər verir ki, Koreya tarixinin ən qısamüddətli hərbi vəziyyəti ölkəni böhranla üz-üzə qoyub. Artıq müdafiə naziri Kim Yonq-Hyunq istefa verdiyini açıqlayıb. "Fövqəladə hərbi vəziyyətin yaratdığı bütün iğtişaşlara görə məsuliyyəti öz üzərimə götürərək Prezidentə istefa vermək istəyimi bildirdim", - deyə o müraciətində bildirib. Medianın məlumatına görə, hərbi vəziyyət elan olunmasını Prezidentə müdafiə naziri təklif edib və onu inandırıb. Elə bu səbəbdən də parlamentdə müdafiə nazirinin impiçmenti məsələsi gündəmə gətirilib. Nazir impiçmenti gözləmədən istefa verməyi üstün tutub.

Parlamentin Prezident Yun Sok Yolun hərbi vəziyyət barədə qərarının əleyhinə səs verməsindən və dövlət başçısının hərbi vəziyyəti ləğv etməsindən sonra onun 11 köməkçisi, o cümlədən aparat rəhbəri, milli təhlükəsizlik məsələləri üzrə müşaviri istefa vermək niyyətlərini bildiriblər. Bundan başqa, kabinetin bütün üzvləri, o cümlədən 18 nazir istefa təkliflərini səsləndirib.

Milli Assambleyada üstünlük təşkil edən müxalifət isə daha da irəli gedərək Prezident Yun Sok Yolun impiçmenti prosesinə başlayıb. Əsas müxalif qüvvə olan Demokratiya Partiyasının 191 deputatı və kiçik müxalifət partiyalarından olan 5 deputat Prezident Yun Sok Yolun impiçmenti üçün vəsatət qaldırıblar. Məsələnin dekabrın 4-də parlamentin plenar iclasına çıxarılması, dekabrın 5-də və ya 6-da səsvermənin keçirilməsi planlaşdırılır. Qanunlara görə impiçment məsələsi plenar iclasın gündəliyinə təklif olunandan 72 saat ərzində səsvermə keçirilməlidir. İmpiçmentin təsdiqi üçün 300 yerlik parlamentin ən azı üçdəikisi (200 deputat) lehinə səs verməlidir.

Qeyd edək ki, Cənubi Koreya Prezidenti Yun Sok Yol müxalifəti qiyamın hazırlanmasına yönəlmiş antidövlət fəaliyyətində ittiham edərək dekabrın 3-də gecə saatlarında ölkədə fövqəladə hərbi vəziyyət elan edib. O, televiziya müraciətində hərbi vəziyyətin Şimali Koreya meylli kommunist qüvvələrin aradan qaldırılmasına, konstitusiya quruluşunun qorunmasına yönəldiyini açıqlayıb. Bu qərar əsas müxalif qüvvə olan Demokratiya Partiyasının parlamentdə dövlət büdcəsinin azaldılmasını tələb edən qanun layihəsini irəli sürməsindən, habelə dövlət auditoruna və baş prokurora impiçment üçün vəsatət qaldırmasından sonra qəbul edilib. Hərbi vəziyyət rejimində ölkədə bütün siyasi fəaliyyətin qadağan olunmasına, parlamentə giriş-çıxışın bağlanmasına baxmayaraq, 190 deputat Milli Assambleya toplaşaraq gizli səsvermədə Prezidentin hərbi vəziyyət qərarının əleyhinə səs veriblər. Dövlət başçısının hərbi münaqişə və fövqəladə vəziyyətlərdə parlamenti buraxmaq səlahiyyətinin olmamasına baxmayaraq, Prezident Yun Sok Yol kabinetin iclasını keçirib və hərbi vəziyyətin aradan qaldırılması barədə razılıq əldə olunub. Dövlət başçısı dekabrın 4-də yerli vaxtla səhər saat 4:30-da hərbi vəziyyətin ləğv olunduğunu elan edib. Hərbi vəziyyətlə əlaqədar küçələrə çıxarılmış ordu geri çəkilib.

# Şimal-qərb küləyi əsəcək

**Azərbaycanda dekabrın 5-nə gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişkən buludlu, əsasən yağmursuz olacaq. Lakin səhər bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-8° isti, gündüz 8-11° isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 771 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 8-12° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 0-5° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° şaxta, gündüz 7-12° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy və Göygöldə hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, bəzi yerlərdə 2° isti, gündüz 3-8° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-4° isti, dağlıq ərazilərdə 9°-dək şaxta, gündüz 4-8° isti olacaq.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 6-11° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 0-5° isti olacaq.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 8-12° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir çiskinli olacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-6°, gündüz 8-12° isti, dağlarda gecə 0-3°, gündüz 4-7° isti olacağı proqnozlaşdırılır.

# Fransa Nigerdə uran mədəninə nəzarəti itirib

**Fransanın böyük uran şirkəti "Orano" Nigerdəki törəmə şirkətinə əməliyyat nəzarətini itirib. Belə ki, şirkətə nəzarət Niger səlahiyyətlilərinə keçib.**




AZƏRTAC xəbər verir ki, bu haqda Niger telekanalları məlumat yayıb. Bildirilib ki, "Sociyty des mines de l'Apr" (Somapr) şirkətinin 64,3 faizi "Orano"ya, 36,6 faizi isə Niger dövlətinə məxsus olub.

Ölkənin suverenliyini, xüsusilə də uran məsələsini prioritet hesab edən Niamey hakimiyyəti hələ iyun ayında "Orano"dan "Imouraren" meqa yatağı və onun 200 min ton qiymətləndirilən ehtiyatlarının əməliyyat icazəsini geri götürmüşdü. Oktyabrın sonunda Fransa tərəfi törəmə şirkətin işini davam etdirə bilməməsinə görə oktyabrın 31-dən etibarən istehsalı dayandırmaq niyyətində olduğunu bildirmişdi.

"Orano" mətbuata açıqlamasında bildirib ki, şirkətin idarə heyətinin iclasları zamanı qəbul edilən qərarlar artıq təbiq olunmur və Niger səlahiyyətliləri əməliyyat nəzarətini ələ alıblar.

Bildirilir ki, noyabr ayında Nigerin mədən naziri Usman Abarşi rus şirkətlərini ölkənin təbii sərvətlərini kəşf və istismar etməyə dəvət olunduğunu vurğulayıb.

Xatırladaq ki, "Euratom" təchizat agentliyinin (ESA) məlumatına görə, Niger qlobal təbii uran istehsalının 4,7 faizini təmin edir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4233
Sifariş 2789

Qiyməti 60 qəpik